TACİRƏ SARIYEVA

Qəlb çırpıntıları

Bakı-2012

Az$_2$

2012

Tacirə Abuzər qızı Sarıyeva,
“Qəlb çırpıntıları”, Bakı, 2012, 322 səhifə

<u>*Redaktor:*</u> **Aslan Hüseynoğlu**

İlk dəfə oxucularla görüşən şairənin bu kitabında təzə-tər könül qönçələri ilə yanaşı, müxtəlif vaxtlarda yazdığı şeirlərindən və poemalarından bəziləri verilmişdir. Bütövlükdə çələng kimi hörülən “Qəlb çırpıntıları” inanırıq ki, oxucuların zövqünü oxşayacaq.

ⓒ mtr polygraphics group **mətbəəsində çap olunmuşdur**

Ön söz

Dünya xəritəsində bənövşə yarpağına bənzəyən Azərbaycan torpağı bəşəriyyətə böyük söz ustaları bəxş edib. Vaxtilə bir rus şairi deyirdi ki: "Azərbaycan xalqı şair xalqdır". Kimsə bu sözü ironiya ilə qarşılayırdı, kimsə uca tribunalardan onu sitat gətirirdi. Bu sözə nə ironiya ilə yanaşılmalıdır, nə də yeri düşdü-düşmədi, şüara çevirmək lazımdır. Təbiətən şair olan xalqın belə təriflərə umacağı yoxdur.

Azərbaycanın hər bir guşəsindən istedadlı şairlər yetişib və bu proses, bu sənət möcüzələrini yaradan insanlar Naxçıvandan da çıxır, Bakıdan da,Gəncədən də, Göyçaydan da, Cəlilabaddan da, Şəkidən də, Qarabağdan da, Şirvan torpağından da, Lənkərandan da, Salyandan da, Qubadan da, ucqar bir dağ kəndindən də, "nəfəsləri benzin və kükürd qoxulu" bir sənaye şəhərindən də. Amma bir bölgə var ki, o bölgənin şairlərindən söz düşəndə, qurumayan çeşmə təşbehinə üz tutursan, həmişə o çeşmədən ürək sərinlədən sular axır, o sular onu içənlərin ruhunu təzələyir. Ora Qazaxdır. Doğrudan da, Qazax bölgəsi Azərbaycan poeziyasının ana xətlərindən biri, bəlkə də birincisidir. Əlinizdəki bu kitabda dediklərimizin təsdiqidir. Sarıyeva Tacırə Abuzər qızının bu şerlər kitabı şairlər yurdu olan Qazaxdan müasir Azərbaycan ədəbiyyatına yeni bir töhvədir.

Nəhəng ədəbi mühitdə hələ öz kövrək addımlarını atan Tacirə Sarıyevanın bu kitabını ələ alarkən tanış ovqata köklənir və bu hazırlıq prosedurları zamanı, açığı, fəhmin qeyri-adi hər hansı hadisənin baş verəcəyini təxmin etmirsən. Amma kitab ilk andanca səni tutur. Ədəbiyyatda ilk toplusu olan bir insanın bu dünyanın "bostanın"a cəsarətlə, sərbəstliklə daş atması fikrimi, düşüncəni çox ilgiləndirir və kitabı birnəfəsə oxumaya bilmirsən.

Tacirə xanımın şerlər toplusunun xüsusi bir özəlliyi də onların qəzəl üstündə yazılmasıdır. Qəzəl nə qədər bizim anladığımız dildə yazılsa da bəzən biz onun mənasını sıradan bir deyilişdə anlamırıq. Bizim gənc yazarların arasında qəzəlxanlarla çox az-az rastlaşırıq. Amma bu gün həqiqətən də qəzəl yazan yazarlarımız var. Bunların sırasında haqqında Tacirə xanımın imzası xüsusilə seçilir.

Neynirəm şövqilə mən mehmanı olum cahanın
Bu cahan içrə mənim növrəstə canım aldılar
Unuda bilməyirəm könlümü həsrət qəm alıb
Sanki bir incə gözəl nazlı həyanım aldılar
Hər gülün öz bülbülü ,hər mahitabanın yarı
Mənimdə bir yari afəti , gülşanım aldılar
Mail oldu eşq əhli gözəl zülfə ,gözələ
Mən də vurğundum ona cismimdə canım aldılar
O günahkar gecənin çökdü qəmi gözlərimə
O gecə zindan ola şahi sultanım aldılar
Bilmirəm nədir bu hal yaşamaqmı yoxsa ölüm
Könlün ilham pərisi istəkli xanım aldilar
Tacirə axtarma onu bəlkədə tapdın guman et
Onsuz olmaq nə lazım güllü rövşanım aldılar

T. Sarıyevanın şeirləri bütün poetik qənaətlərin, çoxillik ənənələrin, ədəbi postulatların əksinə olaraq özündən çox yaşlıdır. Onun şeirlərinin məna yükünün ağırlığı, geniş müşahidə diapazonu, ümumiləşdirmək bacarığı bir çox hallarda oxucunu dərin təbəddülata qərq edir: əcaba, bu sətirləri yazan doğrudanmı zahirən öz yaşıdlarından vüzual aspektdən heç nə ilə fərqlənməyən, öz dünyasını qərq olmuş bir şairədir?

Tacirə xanımın şeirlərində də zaman və məkan anlayışı tamamilə şərtidir. Fitri istedad sahibi olan şairənin şeirlərində bu dünyanın sirlərinə vaqif olmaq, onun gərdişindən baş çıxarmaq cəhdləri, bütövlükdə HƏYATI anlamaq çabaları çox təbii, səmimi və inandırıcıdır. O, sanki bu günə sığmır, ətrafında baş verən proseslərin yeknəsəkliyi, qeyri-təbiiliyi onu hövsələdən çıxarır və bu zaman təkrarən "dünya qalmalı yer deyil, səfər eylə" (yenə də sufizm!) fəlsəfəsinə sığınır. Bəzən şairənin hisslərini, düşüncələrini cilovlaya bilməyərək xəyalən çox-çox uzaqlara, qaranlıq, insanın xoflanacağı, baş tapa bilməyəcəyi bir dünyaya gedib çıxır və bu sirli dünyanın müşkülləri onu əməlli-başlı sıxır, qorxuya salır...

Fəhmilə salsa nəzər duyular canda ikilik
Əyləşar çiynimizdə yeriyər yanda ikilik
Hər üzün astarı var xeyrilə şərin ilqarı
Hər gecə gündüz olar, qalar cahanda ikilik
Tuş gələr yaxşıya pis, ömr edər şirinlə, acı
İsti soyuq səsləşər hökm edər qanda ikilik
Eşqi ülfəti ilə qızla oğlan bənd olar
Vəfasızlıqla etibar bu cür tufanda ikilik

Ömrü sona yetəni cənnət , cəhənnəm gözləyər
Kim şübhə edir buna böylə məqamda ikilik
Danışar vicdanla dil , cüt görərgözlər dünyada
Həm gerçək ,həmdə xəyal aşikar , pünhanda ikilik
Tacirə kainatda canlı və cancız ikidir
Tapılmayar arasan tanrı nişanda ikilik

Qloballaşma dövrünün qızğın çağında, informasiya-kommunikasiya texnologiyalarının insanı az qala düşünmək instinktini yadırğalatmağa başladığı bir məqamda Tacirə Sarıyeva və onun kimi şairlərin Azərbaycan poeziyasına, bütövlükdə Azərbaycan ədəbiyyatına sahib çıxması çox yaxşı, sevindirici haldır. Tacirə xanımın bu kitabı kifayət qədər oxunaqlı, düşündürücü, maraqlıdır və bizə də müəllifi ürəkdən təbrik etmək və bu kitabın davamına səmimi şəkildə ümid bəsləmək qalır.

AĞIZLAR

Ağız var sanasan, söz zərdən düşür.
Ağız var söz orda, kəsərdən düşür.
Söz var ağızlara, çox hərdən düşür,
Söz də var əbədi, deyər ağızlar.
Dillər dodaqlardır, sözün qalası,
Ağıl bilir, hansı gedib qalası.
Söz var insanları, oda salası,
Söz də var, yaqut don geyər ağızlar.
Ağız var bilməyir, doğru-düz, nədir,
Onda seçilməyir, astar üz nədir.
Əgər ömr eləsə, səksən yüz nədir,
Ömrünün, mənasın, əyər ağızlar.
Tacirə düz deyər, yalan dünyada.
Hər yaranan gedər, qalan dünyada.
Düz sözü tapılmaz, alan dünyada.
Əyri danışanı, öyər ağızlar.

29.12.1996-cı il

SÖZ

Gah ağladar, gah güldürər.
Gah ucaldar, gah, endirər.
Eləsi var, lap öldürər.
Axıb gəlir, nizama düz.
Ağızlarda, deyilən söz.
Hikməti var, dərin-dərin.
Axmasıdır, ləpələrin.
Mayasıdır, göyün-yerin.
Hər insanda, bir görən göz.
Ağızlarda, deyilən söz.
Yaranmışdır, əzəl başdan.
Yol keçibdir, çox savaşdan.
Söhbət salma, ona yaşdan.
Hər kəlmədə, var neçə üz?
Ağızlarda, deyilən söz.
İnsan -ucuz, sanma onu.
Hara çəksən, düşər yonu.
Nə əvvəli, nə də sonu.
Bitməz haqdan, yarandı düz.
Ağızlarda, deyilən söz.
Qartal kimi, uçan olur.
Kəhər at tək qaçan olur.
Bir günəşdir, saçan olur.
Gah qılıncdır, gah da ki biz.
Ağızlarda, deyilən söz.
Hərdən dönər, nazəninə.
Haz eyləyər, aya günə.

Gah süzülər, dənə-dənə.
Gah da salar, bir qalın iz.
Ağızlarda, deyilən söz.
Mayası az, ümmandı o.
Aydınlaşdır, dumandı o.
Əkər duysan, cahandı o.
Ünsiyyətdir, danışın siz.
Ağızlarda, deyilən söz.
Gah yalanı, gah düzü var.
Həm qulağı, həm gözü var.
Sözlərində, öz sözü var.
Pətək kimi, olar göz-göz.
Ağızlarda, deyilən söz.
Tanrı verib, qənaət et.
Bu bəxşişə, itaət et.
Kim duymasa, şikayət et.
Yol göstərən, mayaq bir iz.
Ağızlarda, deyilən söz.
Çox danışıb, vermə yelə.
Əvvəl düşün, gətir dilə.
Tab gətirər, axan selə.
Bəzən başlar, kəsdirər yüz.
Ağızlarda, deyilən söz.
Tacirə, söz sərrafa ver.
Nadan ona verməyər yer.
Əsirlərdən gələn bir sir.
Sehirlidir səbrlə döz.
Ağızlarda deyilən söz.

2010

QƏZƏLLƏR

KİMİ

Sevgilim, salma mənim könlümə məhəbbət odu.
Alışar, cismim ona, şamdakı pərvanə kimi,
Söyləmə, kimsəyə sən, eşqi-növbaharımızı.
Düşəcəkdir, bu xəbər, dillərə əfsanə kimi.
Nə zamandan yaranıb, könlümü, fət etdi bu eşq.
Abu-kövsər suyudur, dumduru,dürdanə kimi.
Kimki, mübtəla olar, bu dərdə dərman eyləməz.
Dəyişər, yer üzünü, insanı-insanə kimi.
Eşqidir, dərdimizin dərmanı, eşqidir dərd.
Eşq üçün, can verərik, biz gələrik canə kimi.
Vəfasız, dünyamızın hüsnü varın, neyləyirəm.
Gəlmişik dünyaya biz min kərə mehmanə kimi.
Hicri eşqilə varam eşqidir mənim varım.
Dünyada, yalqız ikən, eşqilə xaqənə kimi.
Tacirə,bu dərdilə, xoşbəxtdir dünyada tək.
Eşqilə, ucalacaq, daim asimanə kimi.

19.07.2002

SÖZ

Baş qaldıran min duyğunu, acıq aşkar eliyən söz.
İnsanların əzabını, sevincini söyləyən söz.
Güc-qüvvətə sinə gərən qalib çıxan fırtınadan.
Neçə başlar kəsmək üçün qılıncları əyliyən söz.
Həm yüksəyə qaldırar o insanlığı həmdə yerə.
Gah insanı uğur işə, gahda qəmə teyliyən söz.
Bu bir kəlmə deyilən söz beyin, zəka məhsuludur.
İnsan qalib çıxar desə əql evində öylüyən.
Ondan qüvvət alanlar bar, ondan qorxub qalanlar var.
Neçə milyon bir milləti birləşdirən qoyluyan söz.
Hər millətin, hər bir elin öz kökü var, öz soyu var.
Bu kök, bu soy üzərində Dədə qorqud boyluyan söz .
Kimisinə sevinc verən, bir ömürlük qanad verin.
Kimisinə kədər verib həyatını əyliyən söz.
Tacirə, sanma söz asan onu deyib qurtararsan.
Sözü ucuz söyləməki, ucüz olar söylüyən söz.

3.VI.1996

GÖRƏMMƏDİN

Əziz anamın vaxtsız vəfatına həsr edirəm .

İnsan oldun dörd yanında bir insan görəmmədin.
Min əzabla ömr elədin söz dünyanı görəmmədin.
Bu fırtına dənizində neçün tənta qalar oldun.
Duyğusu bir, istəyi bir can yananı görəmmədin.
Duydun neçə xatirəni dərk elədin min amalı.
Qohum qardaş çox olsada, bir həyanı görəmmədin.
Ömr elədin bu dünyanın sevincində, kədərində.
Dərddən, qəmdən oldun xəstə, sağ bir canı görəmmədin.
Neçə kərə bu dövranda min qanunlar dəyişibdi.
Baş qarışdı nə bir xanı, nə sultanı görəmmədin.
O qədər ki zərbə aldın, yarə aldın min yerindən.
Hey beynində yada saldın xoş bir anı görəmmədin.
Nə dünyadan, nə sevincdən bu dünyada doyammadın.
Ömür bitdi göz yaşıyla asimanı görəmmədin.
Təkcə mənəm duyan səni vətənimtək əziz anam.
Qisasını tanrı alar heyif canın, görəmmədin.
Tacirə uyma xatirəyə ağla nakam analarçün.
Yana-yana söylə səndə bu dünyanı görəmmədin.

4.VI.1994

SƏN

Gəl ,çıxma mənim qarşıma, sevdim uzaq ol sən,
Sevgi bağının, gülzarına, ta yasaq ol sən.
Bunca unudum, eşqimi məndə ,can usansın,
Hərdən, o xəyal oylağına, bir qonaq sən.
Sevdim, bu cahanda, səni mən ,ilhama gəldim
Eşqilə, gözəldən ayılıb, qaç, qoçaq ol sən.
Ahəstə baxışla, o zərif, könlümü, yaxma.
Məndən, vəfasız dünya kimi, get qaçaq ol sən.
Əqlilə, tamam, bir dəfəlik, könlüm uzaqdır,
Qoyma alışım, cismi canagir, nifaq ol sən.
Səbrilə qərar, dərya olub, ümmana döndü.
Sevim yenə də, bir də qayıt, bir uşaq ol sən.
Könlüm oxuyur, hər gecə gündüz, sarı sim tək.
Baxma, bu ahu naləyə, yanar çıraq ol sən.
Tanrı, bu qoca dünyada, eşqi uca tutdu.
Mələk kimi gəl, haqq ilə eşqə, dayaq ol sən .
Tacirə, keçib indi cavanlıq, yaş o yaşdı,
Sev ki, bu könül nəğməsini, bir mayaq ol sən.

20.03.2010

YAR DEMƏ

Sən mənim gözümdə, huriqılmansan, yar demə.
Həm fəzli kamil, rözveyiri zvansan, yar demə.
Sən varikən, neylərəm, mənləlusimzari.
Ruhi tənindir, gözəl, həm rövşansan ,yar demə.
Gülmərəm, dövrün qəmi, ağlar gözümdür, neyləyim.
Kəşvin bildin sirrimin ,çün mehmansan, yar demə .
Can verər, canın cana, canı candan, almaram.
Alsa yarəb canımı ,mənə cansan,yar demə.
Hüsnündür, şəmsi qəmər, sərvi boylum, neyləyim.
Tanrı vermiş, eşqimi, sən insansan, yar demə.
Sındı könlüm şüşəsi, sədparə oldu, canım.
Ey, gözümün şöləsi, peşmansan, yar demə.
Yox məkanım könlümə, sığmaram, dünyaya mən
Xəstə cana, həm ürək, həmdə cansan, yar demə.
Səni tapmam, bir daha, bivəfa dünyada, mən.
Sən mənim çün kainat, həm zamansan, yar demə.
Eşqin ilə xəstəhal, olmuşam, bilməm nədən.
Ta viran olmuş cana, xanimansan, yar demə.
Tacirə, dərd əhlidir, dərd ilə köçüb gedər,
Eşqi dərdə dərman, ya hicransan, yar demə.

25.03.2010

BƏRİ BAX

Səbri qərarım kəsilib, canım alanım, bəri bax.
Eyləmə bağrımı qan, sevgim canım, bəri bax.
Xətrinə. min dəfəölləm, canı verrəm sadağa.
Min gözəl icrə gəzən bəlli, nişanım, bəri bax.
Bütün aləm sənə sevgi, mən isə, can verirəm.
Canımı canın ilə, sev ki, cavanım, bəri bax.
Kim olar, könlümə mehman. sən uzaq dursan əgər.
Sən ey ağzı şəkkərim, ömürə həyanım, bəri bax.
Baxışın, ox kimi sancıldı, mənim gözlərimə.
Gör necə xəncər ilə, tökdülər qanım, bəri bax.
Saçların, bir gecədir, camalın ay, bədirlənib.
Seyrə çıx, gəl görüşək, gəl mehribanım, bəri bax.
Ağlaram, hər gecə gündüz, bu acı həsrətinə.
Gəl ey mahi tabanım, ey pərişanım, bəri bax.
Başqaları ömrünü, keflə, damaqla keçirir.
Mən isə, qəm çəkirəm, dərdü hicranım, bəri bax.
Tacirə, məhəbbətdi, insanı cana gətirən,
Onsuz ailəm quruyar, əhdi peymanım, bəri bax.

22.XII 2009.

MƏNƏM

Həm qaçan, həm yeriyən, həm çətində, darda mənəm.
Hərdən göylərdə uçan, qanadları, zərdə mənəm.
Bu yerə, mən gələli, dərdimə dərman gəzirəm.
Uyuşmadım kimsəyə, bir allahım, birdə mənəm.
Tarımar oldu könül, gah ağlayıb, gah da gülüb.
Həm qaranlıq dərəyəm, həm aşikar, sirdə mənəm.
Zamanam, ayam, iləm ləpir - ləpir cilvələnən.
Həm göydə ulduz- ayam, həm səmayam, yerdə mənəm.
Bölünüb, kainata, hissə-hissə dağılmışam.
Gün nuru, düşmək üçün, səhər gedən, pərdə mənəm.
Sığmıram, yer üzünə, bu kiçicik könlüm ilə.
Dərd ilə, dərd çəkirəm, dərmanıda, dərdə mənəm.
Külək kimi, əsirəm şimşək olub, göydə caxam.
Dumanam, gah yağışam, gah da yağan, qarda mənəm .
Bir buzam, əriyərəm, axıb gedərəm sulara.
Bir fikir, bir xəyalam, gah yoxam, varda mənəm.
Günəşəm, nur saçıram, gah açılan, qızıl güləm.
Gah varlı, bağça - bağam, gah da, naləzarda mənəm.
Eşq ilə, yandı könül hüsnü xərab olmadadır.
Eşq üçün, nalə deyən, hər gün, ahu zarda mənəm.
Ay üzün görməyəcək, gün ki, səhərlər çıxacaq.
Sevgimə qovuşmayan, ayrı düşən, yarda mənəm.
Safdı qəlbim, düz üçün, düzlüyə getdi amalım.
Oxuyub niyyətimi, el qınadı, xarda mənəm .
Bu nahaq, dünyasında, çünki tapılmır dayağım.
Bəd ürəklər yanında, demək, füsünkarda mənəm.
Tanrıma diz çökürəm, hər gecə gündüz, quluyam.
Verir o, qiymətimi, deyir tacidarda mənəm.
Tacirə, hər gecənin, bir açılan, güdüzü var.
Səbr elə, gün gələcək, onda aşikarda mənəm.

22.XII 2009.

* * *

Sevəndə səni, könlü çıraqban dedim olsun, olmadı.
Can verdim ona eşqimi qurban, dedim olsun, olmadı.
Canın gözəlim, vurğunu çoxdur, bu mahalda.
Bir munis üçün ,sən kimi insan, dedim olsun, olmadı.
Bənzərmi mənim eşqimə, Yusiflə, Züleyxa.
Canın hər iki, dünya üçün, can dedim olsun ,olmadı.
Sevən könülə, eşqi yolunda, cəfa, olmaz
Bu vüsal üçün, imtahan dedim olsun, olmadı.
Neyçün, bu acı qismətimə, yar yasaq oldu.
Könlümə qonaq, bu mahitaban, dedim, olsun olmadı.
Ey gül, nəzərinlə, ox atıb, könlü qanatdın.
Oxlu ürəyim, aləmə nişan, dedim olsun, olmadı.
Tacirə, gəzər, hər gecə gündüz, səni ağlar.
Royadasada, bir gecə, mehman, dedim olsun, olmadı.

13.II 1992.

* * *

Xəlvətcə, sevən könlümə, dustaq demək oldum.
Eşqimlə hər an, dünyaya qonaq demək oldum.
Nədir görəsən eşqi, yolunda o baş əyməz?
Məhəbbət ilə, xəstə idim, sağ, demək oldum.
Səni, gözəlim, hər dəfə, xəlvətcə süzzürkən.
Cevinc ilə mən ,oynayan, uşaq demək oldum.
Gün tək, işığın, şölə, saçırkən, bu cahanda.
Mənsə, kiçicik, şamilə çıraq, demək oldum.
Gəldikcə bahar, hər təzə, qədimləri ilə.
Sən gül nəfəsi, mən isə, bir bağ, demək oldum.
Ölüncə gülüm, eşqi yolunda, cəfa görsəm.
Dərdli, yaralı, bir cəfakeş, dağ demək oldum.
Tacirə, quru dünya üçün, eşqi nəfəsdir.
Eşqim. Daima, qaynayan, bulaq, demək oldum.

8.IV.1999

* * *

Dedim: - ey çeşmi xumar, sən məni, xar eyləmisən.
Dedi ki: - eşqimizi, niyə xavar, eyləmisən.
Dedim: - o, gözlərinin, çoxdur, əsiri məncə.
Dedi ki, -   sənsə mənim, könlümü dar, eyləmisən .
Dedim: - eşq ilə səni, canım kimi, sevdi ürək,
Dedi: - o ,növ baharı, - yağışlı qar, eyləmisən.
Dedim: - sakitcə baxan, gözlərin eşqilə dolub.
Dedi: - sən isə onu, dillaşikar, eyləmisən.
Dedim: - ey gül, güzarım, getdikcə, sənsiz dəyişir.
Dedi: - əbəs yerəki, naleyizar, eyləmisən.
Dedim: - soyuq baxışın, könlümü, dondurdu mənim.
Dedi ki, yoxsa ki, sən, güllü bahar, eyləmisən.
Dedim: - aləmdə Tacirə, necə dözsün, bu hala.
Dedi ki, bəs nə üçün, bu qədər ar eyləmisən.

14.IV.1999

GÖRMÜŞƏM

Səndən ayrı, könlümü qəmi, dustaq görmüşəm.
Öz əziz, evciyimə, canı qonaq görmüşəm.
Gün kimi, şölə saçar, sevinəndə, ay üzün.
Təbiət yağmuru tək qaşu-qabaq, görmüşəm.
Pərişan zülflərinin ,əsiri oldum binadan.
Nə fərqi, zəncir ilə, daim ,bağlanmaq görmüşəm.
Kölgətək, hər vaxt məni, izlər xəyalın ey gözəl.
Aşikar görməz səni, gözlər ağlamaq görmüşəm.
Bivəfa dünya kimi, sən də, vəfasız olma gəl.
Bifəalar içində, səndəndə, soraq görmüşəm.
Nə edimki, bəxtimə, səntəki huri, yazılıb.
Kimsədə görmədiyim, qönçeyi-dodaq, görmüşəm.
Nə xəbərdən, ağlayar,könlüm, illərlə ey gözəl.
Səhrada, məcnun kimi, gəzib dolanmaq, görmüşəm.
Sən kimi, könül qıran, heç vaxt, tapılmaz dünyada.
Mahirsən, zalımlıqda, bu işdə, qoçaq görmüşəm.
Məhəbbət dərdi çəkən, divanəliklə eynidir.
Başqa cür, dərdləri mən, bu işdə, uşaq görmüşəm .
Tacirə, bu bəladan, qurtarmaq, yoxdur sevənə.
Bu, cəfeyi hicranı, səndə, saxlamaq görmüşəm.

24.06.1999

OLMUR

Neyləyimki, mənim, sevdalı çəmənzarım olmur.
Könlüm, sevəcək, segili bir ,dildarım olmur.
Ahımla, könül, od tutub aləmdə yanırkən.
Könlü ovudan, bir gecə mehman, yarım olmur.
Məcnun olalı, keçmişəm, cismimdə canımdan.
Eşqim üçün ol, gör necə, tacidarım olmur.
Mübtəla olan, atəşi-eşqə, yox əlacı.
Dərd ilə, könül, olmayacaq, xavarım olmur.
Onsuzda nə qəm, xəstədi könlüm, yar ucundan.
Xəlvət çəkirəm, dərdimi, aşikarım olmur.
Tacirə, necə, böylə bəlaya, dözəcəksən?
Ağlar ürəyim, xəlvəti, ahu zarım olmur.

29.09.1999

EYLƏMƏZ

Açılan çiçək mənim könülümü şad eyləməz,
Tanrıdan kəmsə bəxtim, ruhum qanad eyləməz.
Hər bağın öz bağbanı, hər aşiqin Leylası var,
Olmasa bağə bağban, baxça gülşad eyləməz.
İllər-aylar dövr edir, hər köhnə təzələnir,
Tanrı lazım bilməsə, dünya abad eyləməz.
Ruhilə cismi-canım başdan ülfət bağlamış,
Olmasaydı dostluğu hər bir kəs ad eyləməz.
Dünyada adəm əhli dörd kitabı bilmədi,
Dünya elmi öyrənən öyrənər ustad eyləməz.
Nazu nemət cismimi bəsləyən azuqədir,
Haram ilə yoğrulan tikələr dad eyləməz.
Kasıb olan daima ayrılıq ömrü çəkər,
Kimki vardan şadlanar kasıbı yadj eyləməz.
Tacirə, nahaqq ilə barışmadın neyləyim,
Nahaqq könlü dağıdar bir daha bad eyləməz.

28.XI.012

* * *

Eşqinlə, hər an, sevgili canan, dilə gəldim.
Oldürdü məni, dərdilə-hicran, dilə gəldim.
Xoşdur mənə çox, sevgi yolunda, cəfa çəkmək.
Yardan dilədim, bir kərə can-can, dilə gəldim.
Qaşları kaman, bir ox atıbsan, ürəyimdən.
Eylədi mənim bağrımı, al qan, dilə gəldim.
Axdıqca məhəbbət, bu könüldən, o könülə.
Səndə özünü, zənn elə sultan, dilə gəldim.
Yarəb, bu cürə xoş camalı, zalimə verdin.
Bir eşq üçün ol, ey mahibatan, dilə gəldim.
Salsanda məni, o, qara zülfünlə, cəzaya.
Oldun bu gecə, hər yana rövşan, dilə gəldim.
Göyçək camalın, birləşib, əqli kamal ilə.
Duydum hamını, yox belə insan, dilə gəldim.
Tacirə, səni yerdə seçibdir, gül içindən.
Göylər qızısan, sərvi xuaman, dilə gəldim.

30.09.1999

BU KÖNLÜM

Eşqilə məni, salıbdı hicranə, bu könlüm.
Qaçsam da yenə, bağlanıbdı, canə, bu könlüm.
Gülməz bu cahanda, ürəyim, ey qoca, dünya .
Hərdən sevinib, gahda ki, bir yanə bu könlüm.
Onun ilə mən, ülfət edib, sirrimi verdim.
Qalarmı əziz dostuna, biganə, bu könlüm.
Məhəbbət üçün, sevda yolunda, cəfa çəkdim.
Çətinki mənə, rəhm edə, divanə bu könlüm.
Sitəmkar olub, dünya mənim, sevgimi aldı .
O, gündən olub, daima viranə, bu könlüm.
Yaş artır, ömür, tamam olur saça, düşür dən.
Cavandı daim, eşqilə, sultanə, bu könlüm.
Tacirə üçün, dünya evi, cənnət olammaz.
Cismimdə canım, onada, mehmanə bu könlüm.

10.06.1999

CANIM

Səninlə könül, ülfətü canandı ,canım.
Bilməm, nə zamandan, dirilib, candı canım.
Gəzdikcə məni, çöllü-biaban, tanıdı.
Bu yeri, könlüm üçün, mehri-məkan, sandı canım.
Bir əsər, eyləmədi, şaxtalı qışla, günəşim.
Qəm yükü tutdu məni, ta alışıb yandı canım.
Bəni insan dediyin, gör necə, tamahkar imiş.
Hiyləyə, fənd, fəsada, kəc baxıb, ovsandı canım.
Bir külək, çovğun ilə, mülkü xaniman dağılar.
Bu qədər, dərdü hala, dözübdü, aslandı canım.
Nə qədər, isti günəş, musiqi aldatsa məni.
Bu acı, rüzgarımın, zülmünə, nişandı canım.
Tacirə, saf ürəyin, huri mələklər, dilədi .
Hər iki, dünya üçün, gör necə, sultandı canım.

10.05.2008

* * *

Mənim, istəkli yarım, eşqimə naz, etmədədir.
Bilməm, nə zamandan vurulub könlümə istək nədədir.
Canı birsə canımın yarıma qurban edərəm.
Məndəki eşqə vəfa nə onda nə kimsədədir.
Küllü aləm yaradıb xəlq edən öldürə bilər.
Hər gülü rənada bir can alıcı qüvvədədir.
Eşqi əyləncə sanıb kimsədən istək diləmə.
O incə dür sapağı coçub-daşan çeşmədədir.
Bir əsir olmuşam ki, zülfü pərişanda yenə.
Səninsə şəhla gözün başqa bir aşinədədir.
Çərxi dövranda hamı bir yazı qədər qazanıb.
Hər kəsin dünya evi yaratdığı ximədədir.
Tacirə dünya əzəldən bəzəkli bir pəridir.
Sevsədə aləm onu heç kəsə qalmaz belədir.

18.06.1998

* * *

Sevməkdə davam eyləmə könlüm bu günahdır.
Səni can ilə sevməyəni sevmə nahaqdır.
Gün tək daima yanmışam aləmdə nahaqdan.
Eşqin kimi insan da bu dünyada qonaqdır.
O hüsnilə sən könlümü aldın gecə-gündüz.
Çətin ki, mənim eşqimə məcnun çatacaqdır.
Hər kəsdə olur vətənə evlada məhəbbət.
Qocalmaz anam ondakı istəkdə uşaqdı
Aşiq olalı yer üzü göylərə vurulmuş.
Bizdən əbədi təkcə məhəbbət qalacaqdır.
Afət kimi çox canlara qəsd eylədi dünya.
Bir gün gələcək tanrıda bizdən alacaqdır.
Tacirə fəxr eləmə hər təzə növrəstə gözəldir.
Qalmaz bu qoca dünyada hər şey solacaqdır.

13.08.1998

DİLƏ GƏLSİN

Olmazdımı ki, eşqi xuraman dilə gəlsin.
Etsin bu canı hali pərişan dilə gəlsin.
Sevməz ürəyim hər baği cənnətdə mələklər.
Eşqin oduna eşqimi dərman dilə gəlsin.
Mehrilə gəlir dünya çıraqbanına insan.
Onda o yarım gizlicə pünhan dilə gəlsin.
Çərxi fələyin əmrilə dəyişsə bu dünya.
Olmaz ona biganəki insan dilə gəlsin.
Cismimlə canım sevgili pərvanə olublar.
Əzrail ayırsa oları can dilə gəlsin.
Vurğundu geniş dünyaya şadlıqla gözəllik.
Ağlar daima dərdilə hicran dilə gəlsin.
Tacirə günah içrə yaşamaqdan üzüldün.
Edibdi canım, könlümə nöqsan, dilə gəlsin.

18.VII.1998-ci il

QALIBDIR

Ey gül tikanın bağrına nöqsanə qalıbdır.
Hər kəs sevənə bülbülxar sanəm qalıbdır.
əzabla bu dünya alacaq canları bir gün.
Kef məclisi meyxanədə tar canə qalıbdır.
Hər canlıya vacib olanıdır yeyib içmək.
Elm, mərifət başqadır insanə qalıbdır.
Tarix ayırar haqqı nahaqdan güman etmə.
Dövrün əzabı könlümə nişanə qalıbdır.
Derlər yanırıq atəşi eşqin alovunda .
Şamda alışan sevgili pərvanə qalıbdır.
Sorma halımı daima əzabdı bu dünya.
Dərdi sərimi yazmağa dastanə qalıbdır.
Tacirə neçə ömr eləmək keçdi sinəndən.
Dünya sınanıb hər təzə mehmnə qalıbdır.

20.VII.1998-ci il

İNCİMƏ

Ey gül mənim ol könlümə mehparə incimə.
Gəl et canımı birdəfəlik qarə incimə.
Qəlbim dağını mən sənə anlatdım əzəldən.
Sən ol təbibim dərdimə et çarə incimə.
Dövrü zamanım könlümü viranə edibdi.
Dönsün bu cahan mülküdə gülzarə incimə.
Xəbər yayılıb qətlimə fərman verilibdir.
Sənsiz dönərəm buz kimi məzarə incimə.
Sevdikcə səni nazu ədadan xumar oldun.
Bənzərmi sənə başqa bir sitarə incimə.
Mehrilə sənə yalvarıb möhlət dilədim ki,
Baxmır sözümə bu könlü avarə incimə.
Tacirə günah iş üçün cəza alacaqsan.
Yalvarsam əgər gələrmi qərarə incimə.

20.VIII.1998

DƏRİN OLSUN

Dərinlik üçün söz gəzib aləmdə dolanma.
Gərəkdir ola əvvəla insan dərin olsun.
Kordur bu cahanda gözümüz görsədə neylim.
Dünya evini dəyişə hər can dərin olsun.
Insan itirər eşqini həyatı puç olmaz .
Yoxsa ümidi istəyər hicran dərin olsun.
Axtarma dayaz çayları qiymətli balıqçün.
Onlar yaşayan göl ilə ümman dərin olsun.
Sevdim bu qoca dünyanı sevdalı sənəmlə.
Əmanətimi tapmağa nişan dərin olsun.
Mənasız olar sevgisiz aləm bu cahanda.
Sevməkçün onu şah ilə sultan dərin osun.
Tcirə yer əhli nə qədər nura boyansa.
Arzumdu uca göylər də rövşan dərin olsun.

08.17.1998

GÜL ÜZÜNDƏN

Ey yar ürəyim tarımar gül üzündən.
Keçdi ömrüm ahu zar oldu gül üzündən.
Tər qönçəyə vurğun ola bülbül eyib etməz.
Xarə köməyin aşikar oldu gül üzündən.
Dözdüm həyatın hər necə qeylü qalı oldu.
Sıxdım ürəyi intizar oldu gül üzündən.
Sevdim səni yar gör necə dürdanələr içrə.
Eşqinlə sənin qalmaqal oldu gül üzündən.
O xoş camalın aciz edibdir güllüzarı.
Könlümdə təzə sevdalar oldu gül üzündən.
Neyçün uzaq oldun mənə ey sevgili dildar.
Xəstə ürəyim biqərar oldu gül üzündən.
Tacirə gözəldir bu həyat birdə gözəllik.
Məhəbbət üçün nazlı yar oldu gül üzündən.

06.05.2000-il

SƏN AZAD ET

Alma canımı sevgili canan sən azad et.
Eşq aləminə ruhimi qurban sən azad et.
Eşqinlə sənin gör necə pərvanələr oldu.
Yandırdı məni min kərə hicran sən azad et.
Sevmək dilədim tanrıdan ancaq bu cahanda.
Kuyində sənin eşqimdi nöqsan sən azad et.
Yandı gecə gündüz yer üzü naleyi ahdan.
Bu dərd evidə könlünə mehman sən azad et.
Ayrı dolanıb gəzmişəm avarə ölüncə.
Nola yetişə sən kimi bir can sən azad et.
Sənlə keçəcək bir günüm olsa o məkanı.
Cənnət biləcəm ey mahitaban sən azad et.
Neylim ürəyim ayrıla bilmir o gözəldən.
Tale buyurub sən kimi insan sən azad et.
Allah bu acı ayrılığı ömrümə verdi.
Bir vüsal üçün könlümda lışyan sən azad et.
Aləmdə bilir hər anımın mənası eşqdir.
Tacirə düşübdür bu bəlaya sən azad et.

07.05.2000-il

EYLƏ

Dözərmi könül həsrətinə gül həyan eylə.
Həsrət dolusu dərd evimə dəriman eylə.
Sənsiz ürəyim biqərar oldu bu cahanda.
Sən gəlki mənim ömrümü birdə cavan eylə.
Sığarmı sənə naleyi dərdim qoca dünya.
Yarəb yar üçün könlümü bir asiman eylə.
Sevdikcə səni sərvi xuraman mail oldum.
Barı yaradan yarı mənə mehriban eylə.
Neyçün bu acı taleyimdə sevdalar oldu.
Dərdli ürəyi bir daha eşqə yanan eylə.
Hicran dolu ey nazlı nigar eşqinə yandım.
Səndə kömək et eşqimizi bir asan eylə.
Tacirə çox istər ki, sənə əhli yar olsun.
Bu sevda üçün səndə çalışıb nişan eylə.

14.VII.2000-il

ÖLÜNCƏ

Qəst etmə mənə sevgili cananım ölüncə.
Yandırdı məni dideyi giryanım ölüncə.
Neyçün bu ahım faneyi dünyanı puç etməz.
Səndən uşağam dövri-Süleymanım ölüncə.
Kimki belə eşqə düçar olsa eyib etməz.
Divaneyi məcnun olacam canım ölüncə.
Gördükcə səni royalar aşkar olur əlbət.
Xəyal yüküdür hər gecə mehmanım ölüncə.
Könlümdə qalıb atəşü həsrətü fərağın.
Gerçəkdi onu bəslərəm xaqanım ölüncə.
Zalım canımı bir dəfəlik alki azad et.
Yaşa demisən bu hökmü fərmanım ölüncə.
Tacirə çəkər hər nazını ey dili qafil.
Ömr eyləyərəm o mahi tabanım ölüncə.

2.VIII.2000-il

GƏLDİ

Səninlə gülüm eşqi avazım dilə gəldi.
Eşqilə yanıb bülübülü şeyda gülə gəldi.
Neyçünki yenə cismidə canə zülüm etdin.
Bu can evidə bir kərə mehman ələ gəldi.
Yarım günahım olmayıb aləmdə bilirsən.
Neyçün belə tez fitnə-vüşayə elə gəldi.
Kimki ömr ilə yaşadı qədrini bildi.
Kimdə kor olub, gahda ki eşqi zilə gəldi.
Göz yaşım ilə dərya yaratdım sonasısan.
Axar sulara necəki pünhan sona gəldi.
Bəxdi dilədim mən bu fələkdən yanə-yanə.
Yarımla görüşdə yenə yarım yana gəldi.
Tacirə, könül həsrətü-hicrilə yaşarmı.
Məhəbbət ilə bu xəstə könlüm cana gəldi.

27.03.2002-il

DOLAN GƏL

Yarəbbi məni sən kimi gülzarə gül etdi.
Gül yarpağısan tər gülü qönçanə dolan gəl.
Olarmı mənim başqa gülüzarlara meylim.
Səndən aralı ağlaram əfqanə dolan gəl.
Axar suların şövqi fəraqi könül açar.
Göz yaşım isə könlü zimistanə dolan gəl.
Qalmaz mənə bu aşiqi sevdada gözəllik.
Könlümdə yarə olubdur mehmanə dolan gəl.
Ey mehri səba toxunma könlüm qüvar eylər.
Yarım mən üçün bir gecə röyanə dolan gəl.
Könlümə sığar bu qoca dünya əməlilə.
Sığmaz üəyim vəfasız dünyanə dolan gəl.
Sevdikcə səni könlümü eşqin əsir etdi.
Saldın məni çox həsrətü hicranə dolan gəl.
Tacirə könül eşqsiz olsa quru daşdır.
Sevir ürəyin fəxrilə şahanə dolan gəl.

28.03.2002.

GETMƏ GƏL

Istərəm mən səni sevgili yarım getmə gəl.
Sənsən aləmdə mənim tacidarım getmə gəl.
Eşqinlə sənin gizlicə yandım el içində.
Gəl-gəl ey pünhanım aşikarım getmə gəl.
Neylim ki, sənin həsrətini can çəkər oldu.
Sənsən mənim həsrətim, intizarım getmə gəl.
Sənsiz qış olar bir yazikən könlüm açılmaz.
Sən ey könlümə həmdəm novbaharım getmə gəl.
Xoşbəxt olaram səninlə bir gün görüşərdim.
Uzaq olma mənə ey Şəhriyarım getmə gəl.
Dövran təzədən birdə səni yetirməz mana.
Öz eşqin üçün alış yan iliqarım getmə gəl.
Sən can evini bir dəfəlik cənnətə döndər.
Qoy qəlb evidə gülsün qəmsuxarım getmə gəl.
Tacirə bilir bir yaradan tanrıdır ancaq.
Sən bahar müjdəsisən xoşxavarım getmə gəl.

08.08.2000.

NƏ EDİM

Gözlərim yolda qalıb ağlayır artıq nə edim.
Qismətim ümidimi bağlayır artıq nə edim.
Nə var atəşlərə ki, daima yanmaqdır işi.
Məhəbbətim ürəyi dağlayır artıq nə edim.
Çıxacaqdır ay günəş hər səhər axşam səmada.
Yaradan sevgilimi saxlayır artıq nə edim.
Mehrilə ülfət ilə hər baxca bağ gülzar olar.
Eşqidəndir ürəyim çağlayır artıq nə edim.
Vurğunam sevgilimin hər can olan qəmzəsinə.
Bir nazıyçün ölərəm qoymayır artıq nə edim.
Keçdi dövran keçdi gün hər təzə yadigar üçün.
Dayanarmı zamanım oynayır artıq nə edim.
Tacirə səndə yaşa Azəribaycanım üçün.
Vətən eşqilə canım qaynayır artıq nə edim...

28.08.2000.

ALDI

Əziz anam Hürünün xatirəsinə həsr edirəm

Neynim bu gecə könlümü məhparəkər aldı.
Sənsiz canımı görkü necə yarələr aldı.
Gəzdim bu cahanda sorağın hər yana saldım.
Söndün günəşim hər tərəfi qarələr aldı.
Ömür bağımın bülbülü susdu gülü soldu.
Hər dərdə dəva can evimi çarələr aldı.
Canım sən üçün çox əriyib şam kimi yandı.
Orda nazını gör necə dürdanələr aldı.
Heç kəs duya bilməz səni məntək sevə bilməz.
Dərdən ürəyim, həm bağrımı şanələr aldı.
Eşqinlə sənin ömrümü avarə dolandım.
Söz söhbətimi könlümü divanələr aldı.
Tacirə, bilir ömür gözəldir bu həyatda.
Ölmüş kimiyəm ruhumu təranələr aldı.

04.11.2000.

KÖMƏK DUR

Yarım gəl iman eşqinə bir yarə kömək dur.
Çəkdilər məni gör necə sədparə kömək dur.
Neylimki sənə huri mələklər kömək oldu.
Tənha dolanan mən canı biçarə kömək dur.
Bir səba yeli qoy sənə əhvalımı versin .
Sənsiz əzilir bu incə məhparə kömək dur.
Al məktubumu o qürbət eldə yenə qəm etə.
Göz yaşın ilə gözləri xumarə kömək dur.
Ölsəm dönərəm torpağa günahsızam ancaq.
Gəlləm yuxuna bir gecə aşkarə kömək dur.
Qəmdən ay üzüm gör necə sənsiz bulud aldı.
Bir gün kimi çıx sevgili dildarə kömək dur.
Eşqin ilə sən hər sözü söhbəti uzaq et.
Sevindir məni bu ömrü baharə kömək dur.
Tacirə bilir yarəbbi haqdır yolun ancaq .
Bu haq yoluna tək düşən nubara kömək dur

14.07.2000.

GÖZƏLLƏR

Yarım yenədə könlümü aldatdı gözəllər.
Hər cür əmələ fitnə felə çatdı gözəllər.
Saxta baxışı heyran edibdir bu canımı.
Gözlə qaşını gör necə oynatdı gözəllər.
Aldandım ona mən günü qarə yenə sevdim.
Saldı canıma oxları qanatdı gözəllər.
Baxdıqca boya sərvi xuraman gözü şəhla.
Kövsər suyudurqiymətli həyatdı gözəllər.
Aldı ürəyi gör necə asan onun oldu.
Yoxdur vəfası eşqimizi satdı gözəllər.
Sevdikcə   onu könlümü atəşlərə saldı.
Eşq aləminə qəmdi şikayətdi gözəllər.
Rahat yaşayıb ləzzət alırdım bu həyatdan.
Gizlincə gəlib əhvalımı qatdı gözəllər.
Tacirə düşübdür bu bəlaya neçə vaxtdır.
Çıxmaq diləyir qorxulu bi zatdır gözəllər.

15.09.2000.

BU GECƏ

Gəl ey sevgili yar könlümə həmdəm bu gecə.
Kənar et dərdi qəmi ürəyimdən sən bu gecə.
Hər səhər bir gecədən doğulub dünyaya gəlir.
Yenə yar həsrətidir ürəyimdə çən bu gecə.
Hə şövq ilə açılar aləmə bəyan günəşin.
Öz qara pərdəsini örtəcək nöqsan bu gecə.
Sən günəş oldun, əzizim mən də bir ay kimiyəm.
Yetişərsə ay günə aləmdə üsyan bu gecə.
Nə edim bir yaradan ol dedi gündüz gecəyə.
Yarandı bu kainat ən ali insan bu gecə.
Əbədiyyət yuxusu axirət günü görünər.
Bənzəyib hökm sürür sakitcə sultan bu gecə.
Sevinirəm yar üçün dərdü hicrilə yanıram.
Eşqilə ahu zara eylədim üsyan bu gecə.
Əsiri oldum əzəldən qara gözlü yarımın.
Çata billəmmi ona röyada pünhan bu gecə.
Tacirə neyləyəcək gündüzlər işıqlı günü.
Yar üçün hər xəyalı olubdu rövşan bu gecə.

22.10.2000.

GÖRÜŞƏYDİM

Könlüm diləyər nazlıyarımla görüşəydim.
Kaşki bu gecə güllüzarımla görüşəydim.
Eşqinlə sənin gör necə aləmdə xar oldum.
Könlü qanadan tacidarımla görüşəydim.
Aləm qovuşar hər ili bir tazə baharla.
Noylaydıkı məndə baharımla görüşəydim.
Gülüm necədə can alıcı qüvvədəsən sən.
Ölməyim üçün taki zalımla görüşəydim.
Sənsiz ürəyim bu qoca dünyada şad olmaz.
Bir könül ovudan xayalımla görüşəydim.
Istəkli yarımın əlləri çatmaz əlimə.
Həm şirin həm də şəkər balımla görüşəydim.
Tacirə eşqi üçün gəl bu qədər qəm eləmə.
Yoluma nur çiləyən amalımla görüşəydim.

18.11.2000

* * *

Naz eyləmə, ey gül ,bu qədər, naz nə gərəkdir.
Eşqin, bu dəli könlümü, məcnun edəcəkdir.
Bivəfa ikən, vurğunu olduq, bu cahanın.
Dünyaya gələn, ağlayıb, gülüb gedəcəkdir.
Məhəbbətə, baş əydi, bu dünyada qılıncda.
Sevda, qəmini, sevdalı könlüm çəkəcəkdir.
Qızıl gülə bənzər, gözəlim, hüsü camalın.
Lakin, bu gözəllikdə, çiçəktək köçəcəkdir.
Hər xoş səfalı yaylağı, hər nərgizli çölü.
Tanrı yaradıb, eşqilə, aşkar edəcəkdir.
Yarım, səni mən, tapmışam rənalar içində.
Gercək hurisən, qədrini, aşiq biləcəkdir.
Tacirə, bu yolda, canını kim fəda etməz .
Məhəbbət ücün, məcnin olanlar, öləcəkdir.

7. X. 1998

NEYLƏDİN

Anamın əziz xatirəsinə həsr edirəm

Gəzmə məndən aralı,mənim, mən olan xəyalım.
Dolanım, qoy başına, ciyər paramı neylədin .
Hər tazə qədəmləri, təbiəti dəyişdirən .
Hər ilin dörd fəsili, dərdə carəmi heylədin.
Yandırdı can evimi, həsrət fərağın atəşi.
Böylə kim, sorcaq həmən, bəs məhparamı neylədin .
Nə zamandır, soruram, aşıb daşan suları mən .
Öz qanın qatmış olan, nazlı saramı neylədin .
Bir xəyal, birdə könül, birdə şirin xatirələr.
Soracaq bunca yenə, deyin, anamı neylədin .
Mən ömür yollarının, bir ömürlük, yolcusuyam .
Dolaşıb, bu yollardan sordum həyanı neylədin .
Aşiq oldu, göy üzü, öz sehirli şöhrıtinə.
Məndə, vurğundum ona, nazlı sonamı neylədin .
Hər kəsin, öz könlündə, bir silinmız dünyası var.
Al qana, döndü ömür, söndü dünyamı neylədin ?
Hər gecəm, gündüz olub, hər bir günüm aramsız .
Bumudur etibarın, fələk röyamı neylədin?
Tacirə, bu dünyada, hər yaranan bir gün ölər.
Uğrumda, çox əriyib, alışan şamı neylədin.

11.IX.1996.

* * *

Məsti xumar olmuşam ,neynirəm meyxanələri.
Yandı qəmnən ürəyim, oda düşdü şanələri.
Nahaqdan, duymaz hec vədə, sevgili cananın halın.
Ya eşqin, ax vayını, ya qəmnən əfğanələri.
Bir xəyal tək, hər zaman, xatırlaram mən onu.
Ya o xoş qəmli günü, ya yarın nişanələri.
Bəxdi halım, bu imiş, sevdalı dünyada mənim.
Kiminin, kefdi varı, mənimki qəmxanələri.
Eşqiidən, nalə çəkir, bülbül zimistan içrə.
Məndə sevdim hamı tək sevgili dürdanələri.
Hər, məhəbbət aşiqi, eşqidə məcnun olmaz.
Eşq ilə, sevgi ilə, gəzirəm həyanələri.
Tacirə, dayan səbr et yanma keçmişlər üçün.
Sonra, derlər sənə də, bir dəli divanələri

3.X. 1996.

GƏLƏN

Könlüm,ayıl yuxudan, sevgili mehmandı gələn.
Dil bilən, könül verən, bir şahi sultandı gələn.
Gözlədim çox illəri, bu yolda hicran görmüşəm.
Qurtarar, zənn edirəm, hörmətliəfĝandı gələn.
Bax, onun gözlərinə, dür kimi safdır ürəyi.
Bəlkə, səndə alışan, atəşi hicrandı gələn.
Sual etdim, sənə mən, neçün ona söyləmədin.
Dərddən, yanmış könlünü, bu könlü rövşandı gələn.
Böylə zənn, eyləməki, gördüyün insandı hərə.
Bax elə, istədiyin ən vacib, insandı gələn.
Tacirə, ağlama gəl, sənidə bir kəs duyacaq.
Ruhdan düşmə, bir kərə, xəlqidən nişandı gələn.

3.X.1996.

TANIDIM

Sən ,gedəndən bəri mən,könlümü yarə taıdım.
Yandırdı, bu dərd onu, birdə dübarə tanıdım .
Ağlayıb, inləməyi, tanrı mənə bəxş eləmiş .
Gecə gündüz, gözümün, yaşını çarə tanıdım.
Mənim, bu qəmli günümdə, daim ürək ağlar olub.
Deyib, gülən dişimi,indi avarə tanıdım .
Neynirəm, aləmdə mən, olsada gündə, toy büsat.
Gülsüz, ax vay eyliyən, bülbülü xarə tanıdım.
Aradım, xəyalımın sənlə keçən günlərini.
Keçdi, gözlər önündən, canlı sitarə tanıdım.
İnanmıram, hec kəsə, daima könlüm aldanıb.
Min kərə,vədə verə, necə xumarə tanıdım.
Tacirə, sənədə çox, etibar etmək olmaz.
Küsdürdün, can evimi, hər etibarə tanıdım.

11. X. 96.

OLA BİLMƏZ

Meysiz məzəsiz can evi gülşan ola bilməz
Olmasa qəmzələri afəti canan ola bilməz
Çoxdu aləmdə daim hər boyu növrəstə gözəl
Əsil insanlığa layiq hamıda can ola bilməz
Nədən aşiqlərdəki atəşi hicran başqadır
Məzəsiz məsti xumar olmayan hicranola bilməz
Vari dövlətin pulun ləzzətü zövqü başqadır
Qəlbi namıərd olanlar dövlətlə sultan ola bilməz
Mənimki bu dünyada gülməyibdir hec ürəyim
Nə qədər kefdə görsəm könlüm də rövşan ola bilməz
Tacirə çox sevirəm öz yurdumu elimi
Heç hara əzab çəkən Azərbaycan ola bilməz

11.I X .1998

YOX

Dövrü cəfa çəkmişəm bunca dövrün mənası yox
Gəlki könlüm vurulub daim sevər həyası yox
Aldanıb vəfasızın könül açan xildətinə
O gün ki son gün ola hər bir kəsin dayəsi yox
Xoş keçər ömrü günü hər kəsin namərd olmasa
Mərdin haqdan gələr səsi namərdin saf mayəsi yox
İnsan oğlu mənalı keçirsə mehman ömrünü
Xoş olar keçirməsə gözlərinin röyası yox
Bəxtiyardır elini vətənini sevən kəslər
Kimki duymazbu halı o, kəslərin dünyası yox
Tacirə mənalı söz dəhirdə bir dur kimidir
Sözü kim ucuz ersə məncə onun ustası yox

15. X. 1996

SONRA

Görmərəm dünyadan səfa mən öləndən sonra
Neynirəm ey bivəfa mən öləndən sonra
Candan əziz sanmışam zəhrilə qisas aldılar
Bir gün batarlar günaha mən öləndən sonra
Qoy baxım gözlərinə dünya bu bivəfadır gülüm
Bəlkə görmərəm daha mən öləndən sonra
Dünənin əhvalını pəjmürdəhal eyləməsin
Daim ümid et sabaha mən öləndən sonra
Dirikən hər bir kəsə istərəm qiymət berələr
Qoymasınheykəlm baha mən öləndən sonra
Tacirə vüqarlı ol əylmə namərd önünə
Qul olarsan allaha mən öləndən sonra

16. X. 96 il.

SƏNİ

Tanrı tək xəlq eləmiş afəti mehparə səni
Yaratmaz bunca daha sevdalı dübarə səni
Gülü yazmış bülbülə hər gülü gülşanda daim
Vəslinə hökm verib bir aşiqi xarə səni
O gözəl nazlı baxış uydumu eşqə ey sənəm
Onun olmaz təbibi ovutma ya çarə səni
Neçəki tər qönçədə çiçəklərə munis idin
Saldı eşq əhlinə bir naleyi avarə səni
Demə fərqim nə imiş başqa sənəmlərdən mənim
Tutulub dərdə könül ağrıdacaq yarə səni
Bir ömür qurban edib verdim ey nigar eşqinə
Ayıq ol aldadacaq fitneyi xumara səni
Tacirə bu sevdadan düşərəmsə səhraya mən
Onda xəlq bənzədəcək Leyliyə , Nigara səni

15. X I 1996 il.

OlMAZ

Gül açıb dinməsə ney könlüm səfraz olmaz
Ömrümə gəlsə xəzan gül çiçəkli yaz olmaz
Bağı güşanda daim sevdalı bülbül oxuyar
Könlü hər vaxt qanıyan kimsədə avaz olmaz
Tanrı xılq etdiyinə kəm baxıbsa binadan
Quş olar, quşlar üçün uçmağa pərvaz olmaz
Nadana bel bağlayıb çəkmə xilqətdə fəğan
Heş vədə xeyir-şərə sağ sola güdaz olmaz
Yaranışdan gözəlin canında sevda olmasa
Sonra öyrətmək ilə, ocanda eşqinaz olmaz
Könlü tufan bağlayıb daim qışdırsa hər kəsin
Gündüzü al şəfəqli, gecəsi bəyaz olmaz
Tacirə bu dünyada tufan gördüm hər zaman
Bu tufan içrə könül hər fəsildə sa z olmaz

6.XII.1996

YAZILIB

Ahu tək canlar alıb naz etmək qiza yazılıb
O məlahətli baxış hər göyçək üzə yazılıb
Ürəyin gizli sözü daim gözlərlə əks olar
Həm sevinc həmdə kədər insanda gözə yazılıb
Ürəyin söylədiyi gərək tuş gəlsn sözünə
Kimki insan deyil o ürəksiz, sözə yazılıb
Məhəbbətlə ayrılıq ta qədimdən bəllidir
Gündə tez-tez dəyişən fərmanlar təzə yazılıb
Bülbül avaz eləməz çiçəklər acmaz şaxtasa
Hər fəslin öz yeri var gül-çiçək yaza yazılıb
Ömür sürdüm dünyada haqq ədalət görmədim
Mərdi, namərdlə boğmaq hökmü haqsıza yazılıb
Tacirə, guya hər kəsin səmada bir ulduzu var
Necə ki, ömr edirik o ulduza yazılıb

10. XII. 1996 il

OXUYAN

Könlü bəslər xoş avaz birdə kaman, tar oxuyan
Hər məclisdə sevlər daim çahargah oxuyan
Nədən ehtiyat edir bilmirəm mən, o dil dodaq
Bir hünər göstərər o hər şeyi aşikar oxuyan
Deyirlər muğamatda sevinclə kədər oxunur
Ola tarla kamança, Sədi sənətkar oxuyan
Hər kəs, hər şeydən əzəl könlünün səsin eşidər
Hər fəslin öz nəğməkarı bülbüldə bahar oxuyan
Varıdır Nizami, Füzulikimi dahi dühalar
Könlü hər vaxt açılar böyük Şəhriyuar oxuyan
Ağıl çox kəsərlidir hər çəkidən ağır olur
Ömrü elmə sərf etsə hər bir kəs udar oxuyn
Tacirəyəm düşmüşəm böylə qəm dəryasına mən
Şad olmaz qəmli könül olsada dildar oxuyan

13.XII.1996

YATMIŞAM

Bilməm nə zamandan dəyişib gərdişi dövran , yatmışam
Demə buğdanı pula satıb hər insan yatmışam
Bundan əvvəl hamıda çadra ibadət var idi
İndi artıb nə qədər saxta müsəlman yatmışam
Kim yıxa kim yıxıla, daha baxmazlar şərinə
Demə artıq yenə də dəyişdi dövran yatmışam
Çox əziyyətlər çəkmişik tarix boyu hər zaman
Görməmiş gözlərimiz heç belə zindan yatmışam
Ermənilər nə iaman kinli düşmənlər idilər
Qoydu bağ baxçaları hər yanı viran yatmışam
Görəsən kmdi gülən, könlü daim gülşən olub
Gördüm röyada batıb al qana hər yan yatmışam
Tacirə bir ana tək övladı olduq vətənin
Azəri cənnətməkan, yerdi çıraqban yatmışam

16.XII.1996

ALDILAR

Neynirəm şövqilə mən mehmanı olum cahanın
Bu cahan içrə mənim növrəstə canım aldılar
Unuda bilməyirəm könlümü həsrət qəm alıb
Sanki bir incə gözəl nazlı həyanım aldılar
Hər gülün öz bülbülü, hər mahitabanın yarı
Mənimdə bir yari afəti, gülşanım aldılar
Mail oldu eşq əhli gözəl zülfə ,gözələ
Mən də vurğundum ona cismimdə canım aldılar
O günahkar gecənin çökdü qəmi gözlərimə
O gecə zindan ola şahi sultanım aldılar
Bilmirəm nədir bu hal yaşamaqmı yoxsa ölüm
Könlün ilham pərisi istəkli xanım aldilar
Tacirə axtarma onu bəlkədəö tapdın guman et
Onsuz olmaq nə lazım güllü rövşanım aldılar

10.IX.1996

YOLLAR

Bir şirin amalın, nurlu səhərin
Qaranlıq zülmətin, özüdür yollar
Bir insan ömrünün, şirin xəyalı
Bir yaşayan anın, gözüdü yollar
Bəzən çox hamardır, bəzən dolanbac
Bəzən də dillərin, sözüdür yollar
Kimini çox dərin xəyala salar
Kiminə torpağın üzüdü yollar
Könül demə bivəfadır bu dünya
Hər kəsin qoyduğu izidi yollar
Nəgözəl xəlq edib yaradan bizi
Beyin zəkasının yüzüdü yollar
Tacirə hər zaman görür yolları
Kimsənin bəxtinin düzüdü yollar

27. XII.1996

ÜRƏYİM

Bir sirli müəmmadır ta əzəl başdan ürəyim
Gah dönüb, yumşalar, o gah da ki, daşdan ürəyim
Gəl axıtma görməsin o qanlı leysanı gözüm
Sonra batar sulara boğular yaşdan ürəyim
Ta əzəldənki gözüm fəxrilə baxmaz cahana
Zənnelə bircə nazik asılan saçdan ürəyim
Sevdi Yusuf Züleyxa eşqi daim aşkar olub
Gizlincə dərdə düşüb bir kaman qaşdan ürəyim
Xeyli vaxtdır, görürəm xəlqimi üzgün davada
Yorulub bunca daha böylə savaşdan ürəyim
Bu dünyanın özünün sirli bir qanunları var
Çətinki baş çıxara bu cür dolaşan ürəyim
Tacirə, səni də dövran sınayıb saldı yaman
Saxla bu şerimizi, dedi yavaşdan ürəyim

3 .I.1997

* * *

Əzrail olur can dediyim canıma hərdən
Çünki belədir baxdım əgər düşsə nəzərdən
Olmaz o yaxın nə qərib dostki insana
Bir naqis ilə səs verəcək min cürə yerdən
Ey mələk donu geyib hər cana məlhəm diləyən
Bu dəva, dərman olar böhtan ilə min şərdən
Vəfasıza bağlanıb kim ucuz etsə ömrünü
Bir kəsməz xəncər olub düşər ağzı kəsərdən
İnsan oğlu həmişə sərvətlə, şöhrət istəmiş
Əsil insanlıq isə qiymətlidi, kövhərdən
Tacirə bu dünyada haqqa qiymət olmadı
Axirət, haqq evidir sevin, bu şad xəbərdən

5. II.1997

CAN ALAN

Aldı canımı ülfəti sevdada can alan
Böylə necə zalımdıki röyada can alan
Əqli kamalın hissilə məhvərini qırdı
Bağlandı mənə hər bağı səhrada, can alan
Arif oldum tanıdım hər baxışın mənasını
Söz də təsir eyləməz tutar havada can alan
Hər qərib məzarıda vətən deyib ağlayar
Hər kəs ki, vercək canı alar yuvada canalan
Qarışıb ürəyimdə qəm yükünə sevda qəmi
Dərdü hicranla daim qaldı davada can alan
Sevmışəm təkcə səni ey məhparə, gülər üzl
Çoxdu aləmdə gözəl həddən ziyadə can alan
Ey könül nazlı yarım hər baxışımdan ytanır
Tapmaram bunca daha böylə həyada , can alan

12. III.1997

DƏRDİMƏ

Dərd ilə qıldım mədəd dərmani pünhan dərdimə
Çün o dərdin dərmani olmaz ki nöqsan dərdimə
Söyləsən ahu zarım zirvədən qalmaz nişan
Gör necə səbəb olub o zalım insan dərdimə
Eşqidir bəlai dərd bu dərdə, dərman istəməm
Bu qeyri bəladır ki tapılmaz, həyan dərdimə
Görünərsə camalım zülfü pərişan gülərüz
Kim bilir daxilimi edərlər nöqsan dərdimə
O günki şux görünən gözlərə qondu kədərim
Qovuşdu bir əbədi dərdilə hicran dərdimə
Çox incə könlümikən buzlara döndü ürəyim
Eyləməz bunca əsər, yel ilə tufan dərdimə
Tacirə, biixtiyar canıma nifrət edirəm
Səndən ayrı ölməyir, tapıla dərman dərdimə .

21.III.1997

* * *

Bu güəş al şəfəqə qərq edər yer kürəsini
Nəsəbəbdən eşitməz qəmli könüllər səsini
Bir duyan duyğusuna möhtac olub düşünəcəklər
Demək o çoxdan alıb həyatda qəm kuzəsini
Nə mehirsalsam ona olsada dövran sıfalı
Sızlayan qəlbim ilə, unudar kef qəmzəsini
Eylə bir atəşiü dərd bürüyüb ahəstə canı
Bunca yayda üşüyər qışda cəkməz nəfəsini
Neynəyir al şəfəqin parlayan isti nurunu
Bir qərib durna kimi itirib öz dəstəsini
Nəücün dünya yavan kiminə yağlı tikədir
Demə hər kəs anadan içibmiş bəxt badəsini
Tacirə dünyanı şux insasnı, dərdli yaradan
Hər kəsi öldürəcək yaradacaq təzəsini.

23.III.1997

GÖZLƏRİN

Söylər sirrini dil deməsə qarə gözlərin
Həm öldürər o, həmdə edər çarə gözərin
Dünyünı gəzib zövq alası sözlərə bir bax
Ondan da şirindir ahu şikarə gözlərin
Razıyam eşqinə mən canimi qurban eliyəm
Salmaya bunca məni çox intizarə gözlərin
Dərd verib bir dəfəlik canımı eşqin aparıb
Canmı varki alacaq birdə dübarə gözlərin
Mey məclisidir halı pərişan eyliyən
Neçə meydən süzülür yenə xumarə gözlərin
Baxma ey gül gözünə göz dəyər aləmdə sənin
Dikilər nazlı pərim sonra əğyarə gözlərin
Tacirə dünya kimi vəfası yoxdur gözəlin
Dözmərəm bircə kərə baxsa kənarə gözlərin

21.III.1997

* * *

Namərd ucalıb göylərə dəysə başı inanma
Çoxdan ölüb o baxsada gözlər diri sanma
Yansa ürəyin xali olar fitnə - filandan
Bir naqisə bir də vəfasız sadiqə yanma
Səndə özünü göstər əzəldən nuri -pir tək
Qorxaqlığını həm qaba rəftarını danma
Elm mərifət lazım olur insana hərdəm
Lakin gədalıq eyləyib aləmdə utanma
Dünya əbədi nəşə evi bilməmiş olma
Bəxd ulduzun axtar soruşub gendə dolanma
Tale yaradıb qismətini ey dili qafil
Səndə inanıb sadəcə ömr eylə dayanma
Tacirə qəm otağın naleyi dərddən yaranıb
Gündə yüz yol üzülüb hər cəfa çəkməkdən usanma

29. IV.1997

ÖYRƏN

Uyma, gözəlin çeşmi xurafatını öyrən
Sevsən də onu əvvəl onun zatını öyrən
Böylə qoçaq ikən inanıb durma kənarda
Gəz pərdələri simləri hər qatını öyrən
Xeyrilə şərin vəhdətinə mehrinə bir bax
Ey qəmli könül dünyanın büsatını öyrən
Aşiq olanın hər gecə gündüzü başqadır
Çünki alışan canların həyatını öyrən
Öymə özünü dünya vərikən duracaqsan
Tanrı sənə bəxş etdiyi möhlatını öyrən
Etibar edib istədiyim təkcə anamdır
Dərdli ana könlündəki qəm çatını öyrən
Tacirə bu dünyaya etibarım çoxdan itib
İstər huri mələyi istər Əflatını öyrən

14.V.1997

* * *

Eşqinlə hər an naz edəsi çeşmi xumarım
Böylə gedər oldun niyə bəs sevgili yarım
Eylərdin əzəl könlü çıraqban nəfəsinlə
Bağlandı bütün bu dünya mülkündə bazarım
Yenə gəldikcə bahar oxlanır könlüm təzədən
Neçə dərddən doğulub cismidə əhval guzarım .
Yenə bülbül oxuyur çəməndə xoş nəğməsini
Mənim də ürəyimdə ötəcəkdir ahu zarım
Dolanım qoy başına min kərə gələn xəyalın
Olmazdı bunca mənim atəşi dərddən xavarım
Gəl öpüm saclarını ətrini çəkim ciyarə
Bəlkə onda sağala al qana dönmüş cigarım
Tacirə baxmaki mən sadəcə dövran edirəm
Yatır qəlbimdə hər an ahəstə bir intizarım

23.V.1997

BİR XƏYALIN İZİ İLƏ

Bir xəyalın izi ilə, gəzdim bütün dünyanı
Gözyaşımdan gilə-gilə sular tutdu hər yanı
Sonsuz duyğu, düşüncələr bir ümmansa ürəkdə
Kədər varsa yuva salar, edər bumbuz insanı
Bu dünyanın kədəridə, sevincidə göz yaşı
Necə-necə tarix boyu dərdli gördüm cahanı
Əsən külək uğuğldayıb bir səs kimi kecəndir
Bir iz qoyur duyan kəsə tərpədənməz nadanı
Bu əbədi kainatda dayanıqsız dünyada
Baxt gələndə soyuq daşa çevrilər insan canı
Pul əşrəfi, qızıl, gümüş bu dünyanın bəzəyi,
İnsanlıqdır insanların şah duyğusu sultanı
Ey Tacirə gileylisən bir xəyalın izində
Yerə, göyə vurğun kimi oldun onun heyranı

5.VI.1997

EY VƏTƏN

Bivəfa oldu sənə evladı dünyan, ey vətən
Gör necə xali olub min cürə insan, ey vətən
Bəslədin rişəsini xeyirlə verdin tamam
Sonradan pəhrələnib şər tutub hər yan, ey vətən
Bəs necə könlümü şad, eşqimi rəvan eyləyim
Etməyir bunca vəfa, bivəfa dövran, ey vətən
Qəlbimi açdım sənə, söylədim olmuşları
Eyləyər könlüm hər an daima üsyan, ey vətən
Her gesə sübhə qədər eşqinlə rəvac qılmışam
Səndədir tacidarım istəkli sultan, ey vətən
Hüsnünə vurğun olur göz açan hər kəski var
Versədə ömrün bada olurlar heyran, ey vətən
Ey Tacirə mail ol böylə gözəlliklər üçün
Hər kəs ilhamın ilə ömr eylər asan, ey vətən.

9. VI.1996

GÖRRƏM

Bir gün köc edib zülfi pərişanımı görrəm
Kölümdə gəzən afəti pünhanımı görrəm
Dövran unudar hər kəsi izsiz sona yetsə
Bir başqa şəkildə yaşayan canımı görrəm
Mənası yox imiş bu gözəl fani dünyanın
Bir gün gələcəık surəti nöqsanımı görrəm
Bilməm nə ücün asudə gəzirkən xəyal etməm
Vercək canımı min kərə rəhmanımı görrəm
Xöşbəxt yaşayıb ömr edən insan da qocalmaz
Ağlarsa könül daima hicranımı görrəm
Min il yaşayıb ömr eləsəmdə yenə doymam
Bir gün gələsi qorxulu mehmanımı görrəm
Tacirə ürəyinlə gəl belə bağlanma amandır
Dost tək vəfalı sən kimi Sultanımı görrəm

10.VI.1997

İKİLİK

Fəhmilə salsa nəzər duyular canda ikilik
Əyləşər çiynimizdə yeriyər yanda ikilik
Hər üzün astarı var xeyrilə şərin ilqarı
Hər gecə gündüz olar, qalar cahanda ikilik
Tuş gələr yaxşıya pis, ömr edər şirinlə acı
İsti soyuq səsləşər hökm edər qanda ikilik
Eşqi ülfəti ilə qızla oğlan bənd olar
Vəfasızlıqla etibar bu cür tufanda ikilik
Ömrü sona yetəni cənnət, cəhənnəm gözləyər
Kim şübhə edir buna böylə məqamda ikilik
Danışar vicdanla dil, cüt görərgözlər dünyada
Həm gerçək, həmdə xəyal aşikar, pünhanda ikilik
Tacirə kainatda canlı və cancız ikidir
Tapılmayar arasan tanrı nişan da ikilik

2. VI.1997

SƏNSİZ

Hər günüm oldu kədər, qüssə fəlakət sənsiz
Yoxdur əsla gumanım bir kərə taqət sənsiz
Hər nəfəs çəkdiyimi gör necə könlüm qınayır
Bir ömür zülmət olur yoxdu o halət sənsiz
Bir əsir oldu canım, canına and olsun inan
Tapmaram kimsədə bir sən kimi ülfət sənsiz
Hər gecə sübhə qədər tanrıdan ömür dilədim
Ölürəm sənin üçün min kərə xəlvət sənsiz
Hər yeni güllü bahar könlümü viran eyləyir
Hər bağa, baxçaya mən bəslədim nifrət sənsiz
Hər kəs ki bir peşəni özünə adət eləyir
Mən də qəm çəkməyimi eylədim adət sənsiz
Qəm Tacirəni gülüm, dağlayıb ağlatdı yaman
Ağlamq çün   dilədim tanrıdan möhlət sənsiz.

17.VI .1997

İNSANIN

Asudə gəzər çeşmeyi xəyalı insanın
İdrak bağının hər, hər sözün xiridarı insanın
Demə ləldir, daşa ki o cansız olur əlbət
Bəs neçün olammaz özü ləlü, mirvari insanın
Ruhu gözəlin qaydadı canı gözəl olsun
Həm qaşı gözü, həmdəki rəftarı insanın
Çoxdan tanınıb bivəfa dünya sual etmə
Bunca olacaqmı vəfalı ilqarı insanın
Bir candır özü işıqlı könlü günəş olmuş
İnsanlıqdır başının tacdarı insanın
Meyxanəyə gəlsə, ruhi candan uzaq olar
İkilikdən azad olar güzarı insanın
Tacirə, hər kəs üçün haqq ədalət bəllidir
Bir zaman başlanacaq sorğu bazarı, insanin .

19.VI. 1997.

XƏLQ EDƏN

Xəlq edəndir cani kim cismimdə, cani xəlq edən
Ondadır ixtiyarım dövri cahani xəlq edən
Kimverər canın kimə canı candan kim alar
Kimdi göydə ulduzu, böyük insanı xəlq edən
Gəzdikcə hüsnilə sən aləmə məhşur eylədin
O gözəl hüsnün ilə dövri dövranı xəlq edən
Mehmanoldu dünyaya yaranan hər kəski var
Yaradıb yaxşı-yaman qərib, mehmani xəlq edən
Bivəfa dövran sənə daim verməz muradı
Yatırar eyni qəbir, fəqir, sultanı xəlq edən
Məkkədə Məhəmmədi dünyada zahid bilmişəm
Xəlq edib ol zahidi kitab, quranı xəlq edən
Tacirə dünya qədər sevdiyin hər kəs ki var
Ondada gördüm həmən vermiş ,nişanı xəl edən

22.XI.1992.

İNDİ

Öz canıma bilməm niyə biganəyəm indi
İllərcə əsir olmuşam pərvanəyəm indi
Gül üzlümlə daim sevda dənizində üzərdim
Onsuz əbədi bir dəli divanəyəm indi
Kimdən diləsəm könlümə həmdəm daha gəlməz
Bağrı didilən güllərə nişanəyəm indi
Saqi mey ilə aşiqi məstanə eyləyər
Onsuzda onun dərdilə məstanəyəm indi
Pərvanə yanırkən şəmi hicrin alovunda
Yandıqca puc oldu bədənim şanəyəm indi
Tacirə dünya daim al günəşilə isnər
İsinməz qəmli könül demə rövşanəyəm indi

22.X.1992

BİLƏR

Can verən canana kim ol cani canan bilər
Gül gülün qədrini bilər insani ,insan bilər
Saqi mey ver dövr elə dövrünlə kecsin həyat
Çün sənin dövranını dövrilə dövran blər
Ləl yaqutdan don geyər şahlıq mülkü dünyada
Var dövlətlə ömr edər axrın sultan bilər
Eşqidən pöhrələnib hə xoş niyyət insana
Məhəbbətlə dil açan sevgini hər yan bilər
Dərd cəkər könlüm nədən hər yanı gülşad görmüşəm
Kim ki qəlbən ağlayar o kəslər hicran bilər
Ey Tacirə hicrilə sevdiyin çatmaz sənə
Yazdığın hər kəlmələr könlünü həyan bilər .

15.XI.1997

QAZANDIM

Təbiət anam ruhu təfəkkürü qazandım
Qurdum təzə bir dövranı möhürü qazandım
Gəzdikcə dolandım həyatın hər üzünü
Könlüm kimi cənnətü mələk huri qazandım
Yetişdi zaman ki paralar haqqı udur
Dörd yanına çək pərdəni tam bürü qazandım
Könlüm təzələnməz əbədi qəm kədər oldu
Axdıqca nə qəm al qanımız dürü qazandım
Getdi kecən əyyam yaranıb indi təzə
Könül sevəcək bir yeni dövürü qazandım
Tacirə azərimiz bizdən aldı gücünü
Birliklə uca zirvədəki yeri qazandım.

23.I.1998

VAR

Kimdə alışıb kimdə ki,yanmaq həvəsi var
Aləm bilir o kəslərin aləmdə səsi var
Aludəsə hər nöqtəni dərk etməyə insan
Demək ki onu kəşv eliyən ləl dənəsi var
Ahəstə dolan dövr eləmə başqa zamandır
Kmki ucalır bəlkə onun güclü kəsi var
Dünya, bütün aləmdə iki halda boy atmış
Cansız təbiət bir dəki insan nəfəsi var
Kainat alar al günəşin odlu nurundan
İnsana içıq nur verəsi göz didəsi var
Kimdən soruşub ömrünü yazdı ulu tanrı?
Kim zirvədə parlar kimdə enər yerdə nəsi var
Tacrə, qəzəllə de dərdü sirrini bu gecə
Kimi sevinclə gülür, kimin dərdli nəğməsi var.

14.II.1998

ANAMIN

Məni məyus elədi bu düvrü halı anamın
Yandırdı can evimi bütün əhvalı anamın
Hec vədə ummamışam bir kimsədən əhli vəfa
Umacaq kimsəm odu söndü vüsalı anamın
İstədim mənim ola öz anamın gül nəfəsi
Qaldı ancaq mənəsə bircə xəyalı anamın
Demədim möhtac olub dövrü cahanın şəninə
Tanrıdan bəxdi halı kəmdi həyalı anamın
Böylə mərd, böylə qoçaq, böylə gözəl insan olan
Niyə çəksin əzabı könlü səyalı anamı
Dəyişibdi əhvalım qoy bunu bilsin ürəyim
Çətin oldu mənə çox ölümü duyalı anamın
Tacirə bunca belə sən də viranə evisən
Ölüm istədim canın qəbrə qoyalı anamın

28. II.1995

BU GECƏ

Məni dillərdə qoyub könlümü aldın bu gecə
Eşqimi, istəyimi odlara saldın bu gecə
Bir kərə busə alıb, al yanağımdan ölərəm
Deməki röyadakı canılı xəyaldın bu gecə
Aşikar eyləmişəm eşqini aləmə tamam
Təkcə sən bilməyirsən bəs niyə laldın bu gecə
Hədiyyə eyləmişəm könlümü cismimlə sənə
Gör necə bərtəvərəm, ömrə vüsaldın bu gecə
Mən kimi eşqə vəfa atəşü dərddən qocalar
Başqa bir əğyarilə bəc niyə qaldın bu gecə
Tacirə ah sinəmi qəm kədər yandırdı mənim
Nazlı görkəmin ilə gör necə baldın,bu gecə

19.III.1998

GÖRÜRƏM

Könlümdə şölələnir atəşü hicrandan ocaq
Bəlkədə istədiyim canlı xəyaldır görürəm
Tapılarmı kimsədə sən kimi ülfəti kamal
Rast gəlib çoxlarına gör necə haldır görürəm
Lalənin bağrı qara var yanağında qoşa xal
Bunca duy əhvalımı ürəyimxaldır görürəm
Nə mənə aşikar et nə dəki məndən uzaq ol
Sirrini bilməyirəm dillərin laldır görürəm .
Ayüzün bənzədərəm göydəki səyyarələrə
Qaşların qövsü quzey yanağın aldır görürəm .
Sən neçə qərinəni dalbadal vurdunsa başa
Mən üçün bir təzə gül şəkərü baldır görürəm
Tacirə dünya oyun səndə oyunçu uduzan
Ömrümüz bir dəfəlik nə qalmaqaldır görürəm

19. III.1998

İLƏ

Gəldikcə bahar gül sulanır al qanım ilə
Bəh -bəh bu bahar xoş gəlibdir dövranım ilə
Çəksəm nəfəsi gül qoxuyar hər tərəf aləm
Ağlar ürəyim necə sevinsin canım lə
Çünki bu həyatda yaşamaq dan bezar oldum
Cənnətdə Gəzəm huri - mələklər yanım ilə
Tutmaz sözümü kimsə kasıb olsa güzarım
Gərəkdir ola çoxlu pulum ad sanım ilə
Donmuş ürəyim dərd alovunda oda yandı
Söndü işığı həm canımın ,rövşanım ilə
Mənası bir oldu mənə qış ilə baharım
Röyada görüşdüm bu gecə sultanım ilə
Tacirə gün gələcək məndə dünyadan köçəcəm
Məndən qalacaq bir neçə söz nişanım ilə

7.I V.1998

YARIM

Səni allah yetirib mən kimi bir canə yarım
Salıbdır o gözlərin gör necəsin qanə yarım
Xoş camalın can alır , bənzərin var göydə aya
Ürəyin pakdı sənin saf suya nişanə yarım
Bu bivəfa dünyada yaxşı ki də sən bar idin
Könlümün eşq evini eylədin şahanə yarım
Dünya varı könlümü ovutmayır birdəfəlik
Eşqidən könlüm olar kör necə divanə yarım
Tanrının işlərinə mətəl qalıb baş əymişəm
Abı -kövsər suyusan ,car olsun cahanə yarım
Tacirə ömr eylə ki tanrı möcüzəsi görüm
Yaranış hər nə ki var möcüzədir sanə yarım.

1.VIII. 2004

NEYLƏR

Daim bu könül eşqin ilə yanmış olarsa
Onda günəşin al şəfəqi könlümə neylər?
Dünyanı görüb dərk eləməkdə yaşar insan
Özü yıxılan ağlar özü bəs kimə neylər?
Zaman beləcə gərdişi dövranla gedirkən
Mizrab özünü öldürər aşikar simə neylər?
Tanrı yaradıb yer üzünü canlı və cansız
Ondan aralı bir xətər olsa demə neylər?
Azuqə sənin həm can ilə ruhunu bəslər
Həyat verici qüvvəsi vardır yemə neylər?
Dünya yaranışdan bu qərar qaydası vardır
Hər canlı canı həm yaradar, həm əmə neylər?
Tarix boyu hər kəs tamah üstə savaşıblar
Zilə ücalan bir dəfə enər bəmə neylər?
Tacirə görüb bu qoca dünyada məhəbbət
Umma vəfasızdan bunu sən istəmə neylər

18.V.2003

EYLƏDİN

Nə qədər xoş bəzənib əqlimi bihuş eylədin
Bu gözəlliklə mənim ürəyimi cuş eylədin
O qara gözlərini sevdim əzəldən sənin
Ömürlük göz yaşına sən məni yoldaş eylədin
Bu ömür yollarının birgə xəyalıylayam
Sən mənim gündüzümü hər gecəmi çaş eylədin
Səni sevmək həvəsi dünyaya bərabər olub
Qaçma məndən gözəlim cismimdə savaş eylədin
Bu necə eşqidirki könlümü yandırdı mənim
Yandı cismim bu oda könlümdə təlaş eylədin
Dünyanın var halına baxmaram əsla ölsəm
Baxışınla gör necə məni al qumaş eylədin
Tacirə məhəbbəti bilməz idi əzəldən
Gör necə qəfil gəlib özünə sirdaş eylədin

4.II.2003

CANINA

Bivəfa dünya üçün can vermə canan canına
O cana can verki sən can versin can canına
Boşdur fani dünyada eşqidən başqa nə var
Meysiz - məzəsiz xumar ol eşqilə hicran canına
Uyma dünya malına bir damla göz yaşıdır
Canın qədrin bilki sən olubdu mehman canına
Nə səbəbdən sığmıram dünya boyda dünyaya
Eşqidən qurumuşam mən bir xaniman canına
Əşrəfi mivarisən, huri qılmansan ey can
Eşqidən xali deyilsən olmazki nöqsan canına
Canlılar içrə canam, la məkanam sevgilim
Eşqin ilə olmuşam şah,sultan canına
Abı kövsərdir göz yaşın, dişlərin mirvaridir
Aşiq oldu gör neçə Arizi, Rizvan canına
Tacirə çoxdan bilir dünya gəldi gedərdi
Xaliq ömr bəxş etdi həzrəti Süleyman canına

12.IX.2002

SƏNİ GÖRDÜM

Sevindi yenə könlüm ey pərişanım səni gördüm
Duyduqca səni cana gəldi canım səni gördüm
Könlüm sığışa bilməyir öz köksümə hərdən
Coşdu yenə də dərdü əfğanım səni gördüm
Bir baxmaq ilə könlümü yandırdı məlalın
Odlu baxışındakı nişanım səni gördüm
Tacirə bilir hər gecə gündüz səni andım
Yatdım yuxuda bir gecə sultanım səni gördüm

EYLƏ

Cismim dözməz ayrılığa ey yar səbri qərar eylə
Qəbr evidir sənsiz həyat yatağımı məzar eylə
Gəzdim səni diyar-diyar oymaq-oymaq yer üzündə
Gəl ömrümə sevgin ilə hər tərəfi gülzar eylə
Uca boylum incə bellim gül camalın aldı məni
Bu eşqinin girdabına saldın ömrü qubar eylə
Həsrətəm hüsnün ücün abı kövsərdir göz yaşın
Xəstəyəm xeyli zaman göz yaşınla ilqar eylə
Gecə - gündüz bu yollra həsrət ilə baxdım naçar
Gəlişini əsən yeldən öz yarına xəvər eylə
Qoyma könlüm bu eşqidən bu sevgidən parcalansın
Taxt-tacına sahib olub mənidə tacidar eylə
Tacirə də vurğun olub təkcə sənə ey nazlı yar
Məcnun olub eşqimizi aləmə aşikar eylə

18.XI.2002

BİLMƏDİM

Dünya mənim gözümdə bir röyadır bilmədim,
Hər gecəm hər gündüzüm çün qovğadır bilmədim
Neylərsən hərdən könül bu dünyada kef cəkməyi,
Hər ləzzətü laləzar bir cidadır bilmədim
Məsti xumar olmağa bəs eylər dövrün qəmi,
Hər kədər naleyi ah bir rənadır bilmədim
Nə tövr ilə uymuşam bu dünyanın halətinə,
Mən kiçik şagird ikən o ustaddır bilmədim,
Sığarmı könlüm ona nahaqla dolmuş tamam,
Bu məkanda qalmağım boş xülyadı bilmədim,
Aldanma sərvinazım könlüm hec tutmaz qərar,
O cansız simuzəri aşinadır bilmadim.
Tacirə sınaq üçün gəlmişik dünyaya biz,
Gödüyün hər yaxşı , pis bir mənadır bilmədim

31.I.2002

SƏNSƏN

Könlüm ney ikən, bülbül ola, könlümə həmdəm gülü sənsən
Laləzar olsa könül tənha gülün bülbülü sənsən
Neynimki səni inssan edib xəlq eləmiş eşqimə yarəb
Könlümdə hər an səslənəcək musiqinin hər dili sənsən
Ayrı gəzsəndə gülüm var dövlətsən mən üçün
Həm nəfəs həmdə canım səsimin bəm zili sənsən
Kimsə bilməz halımi dünyada ömr etdikcə mən
Xəstə könlüm yaşayan hər ayı ,ili sənsən
Çıxmaz eşqin tüstüsü alışıb daim yanar
Sənsiz könlüm ney çalar kamanın teli sənsən
Buqoca dünya məni çoxdan alıbdı qoynuna
Günəş həyat verəndi şuası seli sənsən
Tacirə eşqilə sən dünyanı sev, dərk elə
Bu eşqin hər mayası toxunan yeli sənsən

2.II.2002

DƏRD İLƏ

Kamil insan dərk edər hər yaxşı -yaman dərd ilə,
Könlüm dərman eyləyər təbibdi dərdə dərd ilə.
Dünya başdan başa ki ləlü- gövhərdir ey könül,
Bəs niyə ağlar gözün zamanzaman dərd ilə.
Hər ləlü firuzələr aldı gözün şöləsin,
O mənim könlüm üçün boş xaniman dərd ilə,
Dünya varın neylərəm daima mayası yox,
Canlılar içrə bunu dərk edər insan dərdilə.
Ağlaram haqsızlığı gördükcə gülməz üzüm,
Gün gələr vədə çatar gəzərlər həyan dərd ilə,
Hər qara gecələrin bir nurlu gündüzü var,
Naqisin yanındada dərd çəkər rövşan dərd ilə.
Dünya eşqi ülfətdən bir hikmətdən yarandı,
Eşqi məhəbbət üçün vacibdi hicran dərdilə,
Dünya bir pəncərədir hər gələn baxıb gedər,
Onlarda dünya ücün olarlar mehman dərd ilə.
Tacirə zalımlığın nahaqqın həddi çatar,
Bir zaman bir yatacaq nökərlə sultan dərd ilə.

15.II.2002

GETMƏ GƏL

Həsrətin könlümü yandırdı getmə gəl
Dərdü fərağın cismimi sındırdı getmə gəl
Nə məlahətlə mənim könlümü sən fəth elədin
Camalın ayı, günəşi andırdı getmə gəl
Dodağın xəstə üçün dərmandır dilin şəkər
Lalə ruxun gülləri utandırır getmə gəl
Bir baxışnan canımı alma ey sərvinazım
Dəldi bağrım qanıma boyandırdı getmə gəl
Cismi tənindir sənin abı kövsər ey mələk
Nurun çıxdı aləmi inandırdı getmə gəl
Yardan ayrı ağlaram göz yaşım dərya olar
Göz yaşlarım dəryanı bulandırdı getmə gəl
Dərdə dərman etməyə eşq üçün olmaz kömək
Eşqi hicrin könlümü oyandırdı getmə gəl
Tacirə bivəfalar üçün ömr etdin nahaq
Bivəfa dünya səni inandırdı getmə gəl.

20.II.2002

OLMAQ İSTƏMƏM

Mən dünya mülkünün sultanı olmaq istəməm
Vəfasız dünyamızın insanı olmaq istəməm
Var dövlətin leş isə neyləsin cismim mənim
Bu leşin köpək kimi mehmanı olmaq istəməm
Ruhumdu canım mənim cismi cana can demə
Bu ruh ilə cismimin canı olmaq istəməm
Nahaq ilə yoğrulan çirkabdır dünya mənə
Satır küfr cəhalət alanı olmaq istəməm
Neeyniyirəm nahaq ilə bəslənən gül rənaları
Ləl ikən ləl vurğunun xaqanı olmaq istəməm
Xəzinədir insanın daxili haqdan gəəlib
Bir sərvətdir məkanım laməkan olmaq istəməm
Eşqidir bu dünyanın əbədi tacidarı
Mən onunla yaşaram, hicranı olaq istəməm
Eygülüzlüm səndədir abı kövsər simuzər
Bu cansız dəryaların qurbanı olmaq istəməm
Hüsnünə mail olub ay günəş səndən utanır
Ömürsüş laləzarın heyranı olmaq istəməm
Tacirə bu dünyadan bir gün köç eylər gedər
Bu vəfasız dünyanın süleymanı olmaq istəməm

4.II.2002

KİMİ

Səndən ayrı bu dünyada yaşayıram,yox kimi
Məhəbbətin dərdə salıb ürəyimi deşdimi?
Bilirəmki fani dünya etibarsız əbəsdir
Əriyirəm damla damla qırılıram çox kimi
Nurun ilə gözlərimi geniş acdım dünyaya
Elə qida vermisənki acmayıram tox kimi
Ulduz kimi parlayırsan ürəyimdə hər zaman
İlıq nəfəs xoş meh kimi üzərimdən əsdimi?
Damarımdan axdı qanın gəzdim eli obanı
Zaman-zaman bu ayrılıq aralığı kəsdimi?
İlham aldım təkcə səndən surətinlə oyandım
Yoxluğunu indiduydum dünya quru səsdimi?
Sənin üçün yaşamaqdan doymayıram dünyada
Bu sevgidən alışıram kimsə görməz tüstümü
Tacirənin xahişini sən son dəfə qəbul et
Əbədilik yataramsa, sən örtərsən üstümü

10.II.2002

MƏN

Danışa bilməyirəm lal ikmi oldum necə mən
Yandım eşqin oduna daima gündüz gecə mən
Küllü aləm alışar bircə dəfə ahimdən
Gör necə tab gətirir biçarə könlüm həmən
Dünyada hər zülmə hər əzaba tabım var
Təkc dözə bilməyirəm yoxluğuna əzəldən
Tacidar oldu könül eşdin ilə ey nazlı yar
Biixtiyar, xəstəhal könlümü almısan sən
Neynirəm dünya malın sərvətü laləzarı
Gəl ey varım ,dövlətim mənimçün dürdanəsən
Ağlaram eşqin ilə ovutamaz dünya məni
Taki yandım sən üçün könlümə bir danəsən
Xoşdur mənə eşq üçün çəkdiyim dərdü cəfa
Yandıqca hicrilə mən, bir dərman tapır bədən
Tacirə, bu dünyada gəldi gedərdi bunu bil
Eşqi əbədi olar tanrı verib əzəldən

5.III.2002

GETDİ

Yarım bu gecə könlümü can eylədi getdi
Axtardım onu hali pərişan eylədi getdi
Göz yaşım ilə vəslinə çata bilmədim ancaq
Şirin xəyəlı könlümü mehman eylədi getdi
Şəkər dililə hüsnü camalı canım aldı
Kimlə danışıb o kəsi rizvan eylədi getdi
Yarı sevərək könlümü verdim o mələyə
Ayrıldı o gecəki, onu sultan eylədi getdi
Eşqilə yanıb sevgi yolunda ölərəm mən
Yarımda mənə bu halı bəyan eylədi getdi
Bir şam kimi mən hər gecə gündüz oda yandım
O da bu halı cismimə nöqsan eylədi getdi
Ayrılıq üçün bunca canımda yox əlacım
Mehri səbanı könlümə həyan eylədi getdi
Tacirə məhəbbət nə qədər ülvüsə ancaq,
Ayrılıq onu, dərd ilə hisran eylədi getdi.

13.09.2011

KÖNLÜM

Qəm ilə etdin məni gör necə qəmxar könlüm,
Saldın eşqin oduna yanmışam aşkar könlüm.
Sirr deyilsə açginan səbəb nə gizlətməyə,
Rahat ollam qəm ilə eyləsə rəftar könlüm.
Haqqı nahaq əzməyə dünya adət eləmiş,
Nahaqq ilə oynayar mənlə bərabər könlüm.
Mənası yox mənüçün ovutmaz dünya məni,
Çün eşq ilə çırpınır daim tarmar könlüm,
Gərdişi - dövran məni saldı haldan-hala çox,
O səbədəndir ki, bəs qalıbdı naçar könlüm.
Sevinc şıltaq qız kimi qəmdi daim yoldaşım,
Onla duydu eşqimi mehri-tacidar könlüm.
Tacirə hər bir kəsin gözlər qəlb aynasıdır,
Üşütməz şaxta məni varsa laləzar könlüm.

6.11.2003.

VAR

Qəm çəkib könlüm dara, dərd qəmə üsyan eylərəm.
Hər qəmin öz nəşəsi, hər nəşənin qəmi var .
Dostsa bülbül qarğaya, daim könlü qaralar.
Tülkü aslan olsada, bu dövranın çəmi var.
Səbrilə dünya gəlib, səbri zaman dəriman.
Bu mehman ömrün yaşa, onunda birdəmi var.
Dövran ötüb keçəcək, adlar qalar dünyada.
Hər canlını yaradan, yaratmış bir yemi var.
Nəərz edim tanrıya, şükürilə ömür keçir.
Duyduğum hər mənanın, öz notu, öz simi var.
Tanrının qullarıyıq, hər yanda nişanı var.
Yerdə, göydə bəllidir, sudada bir gəmi var.
Tacirə məhbubuna, əzəldənaşiq olub.
Hər gecənn gündüzü, hər zilin bir bəmi var.

12.1.2012.

SÖYLƏRƏM

Haqq üçün dünyadayam, daima haqq söylərəm.
Bu nahaq dünyamıza, can verib haqq söylərəm.
Nahaqqilə çarpışan, bir ləlü -simuzərəm.
Tanrı vermiş eşqimi, sevib qabaq söylərəm.
Eşqi bəlailə gəl, al canımı ey səba .
Bu eşqi bəlanı mən, ömrümdə uşaq söylərəm.
Yandım atəşlərəki, könlümü abadeyləyim.
Yar gələr xəyalıma, hərdənbir qonaq söylərəm.
Bivəfa dünya məni,daim aldatmaq istəyir.
Onunla,könlüm ilə yaranıb nifaq söylərəm.
Ey, ayüzlü gözəlim, çoxların məftun elədin.
Deyəsən eşimizi,mən sənə nahaq söylərəm.
Sən mənim könlüm alıb, cismimi yalqız eylədin.
Bu acı ayrılığa,salıbsan duvaq söylərəm.
Zülfünün müşk ənbəri, cənnətə apatdı məni.
Qucağın hurimələk, lalədi yanaq söylərəm.
O qara gözlərinin, əsiri oldum məndə.
Hüsnün canlar alası, qönçədi dodaq söylərəm.
Tacirə vəfalı yar,axtarma çətin tapılar.
Sənin tək eşqi ilə, çağlayar bulaq söylərəm.

14.I. 2012.

* * *

Səhər-səhər, al geyinib.
Könlumü, yandırıb yaxan.
Açıq aşkar eyvana çıx.
Oğrun-oğrun yara baxan.
Əsir oldu, yanan ürək.
Bir üzünü göstər görək.
Geyinmisən, nə bər bəzək.
Saclarına, çiçək taxan.
Sən atlısan, mən piyada.
Məni saldın, yanar oda.
Möhtac qaldınm , bir imdada.
Canlar alıb, evlər yıxan.
Tacirə, neyləsin sənə.
Hey qacsanda, dönər yenə.
Gündə çıxar, gün üstünə.
Hər səhər, səmada çıxan.

16.I. 2012.

ELƏYƏR

Gecənin sirləri çox, məftun eyləyibdi məni .
Gündüzdən fərqli yuxu ,beynimə açkar eləyər.
Salıb öz örpəyini, ay camalını gizlədər.
Əzəmətli günəşə, baxmağını ar eləyər.
Ölsəndə bir dəfə öl qorxaq tək ölmə min dəfə.
Qorxaqlıq həm gözü kor ,həm qulağı kar eləyər.
Min il rəzil yaşama, bir gün azadömr elə sən.
İxtiyarsız hər nəfəs, alsan canı dar eləyər.
Bir ılıq isti nəfəs, eşq ilə çağlayan sular.
Bir həyat müjdəsidir, hər baxçabağ ,bar eləyər.
Qov qara fikirləri, daima eşqilə yaşa.
Eşqilə hər sənətin, səni hecdən var eləyər.
Hər gülər üzlü sənin ,könlünü aldatsa əgər.
Sirrini səndən alar, ömrü ahu zar eləyər.
Tanrıma baş əyirəm ,vurğun olmuşam sirinə.
Yamacları gül çiçək, uca dağı qar eyləyər.
Tacirə ilahinin, eşqi zəhərini içib.
Yatmayıb səhərədək, gündüzə xavar eləyər.

18.I.2012.

DÖNSÜN

Mən səbr eylədimki,damla gəlib ümmana dönsün.
Tanrı yaradıb, hərkəsiki ,insana dönsün.
İncə nur danəsi var, hər yaranışla ,canlıda.
Tanrıya şükr elə ki, bu eşqi varlıq cana dönsün.
Kim əqlə sahib olub, vari dövlət qazanıb.
Hər əqli kamilidə, qalib olub, sultana dönsün.
Ömrü ümidlə yaşa ,vicdan əqil əsiri ol.
Toxunmaz kimsə sənə, istər dünya, aslana dönsün.
Ayrılıq, həsrət odu cətin olub, ömrü qırar.
İstəməm ayrəı düşəm, bu dərdli könlüm, qana dönsün.
Puldu dərdlərə dəva, puldu dərdə dərman.
Pulki hökmünü verər, aslan olan, məstana dönsün.
Tacirə tənha gəlib, dünyaya, dost yoldaşı yox.
Ürəyiylə danışıb, yazırki qoy, dastana dönsün.

20.I.2012.

YARIM

Etdin mənə çox, dərdü zülümlər, belə yarım.
Aldın dəli könlü, özünə, can elə yarım.
Tökmə göz yaşlarını, damladan, ümman olmaz
Cismini, kör necə də, qurban edibsən, telə yarım.
Bu hicri dərd, tanrıdan, yadigar olub bizə.
Çəmənzarda həsrəti, verib, bülbülə yarım.
Məcnuni eşqi sənin, könlünü, viran eləyib.
Eşqidən qəm çəkirəm, bənzərəm, gülə yarım.
Eşqidir kainatın, mayəsi, tacidarı.
Yaraşar iki sevən, sonalar, gölə yarım.
Neynirəm sənsiz olan, boş dünyanı, istəməm
Sənsiz olan hər günüm, dönübdür, ilə yarım.
Ruhi cismim ayrılıb qovuşaydı, sənə kaş.
Yaradan ömrümüzü, bərabər, bölə yarım.
Tacirə, məhəbbətin, bəlai eşqi çətin.
Yaşa bu kainatda, eşqini, dilə yarım .

29 .XI.2002-ci il.

***

Nə zamandır könlümü, aldı bir ahu balası
Ömrümün tacidarı, axar suların, sonası.
Bir xəyal oldu mənə, o dilbərin cismi canı .
Çatarammı vəslinə, indidən, könlüm yanası.
Gör necə sevdim onu, hicrilə, daima şadam.
Sən ,amansız sultanım, mən də, onun füqarası.
Min kərə sevdikcə mən, artacaqdı nazu qəmin.
Hər kəs sevsə yarını, bəlli olar, nişanası.
Qədrini bil ömrünün, hər anın, simuzər olar.
Kim simuzər istəsə, olsun,məhəbbət sevdası.
Sevdiyim afət məni, dillərdə, dastan eylədi.
O qədər sevdim onu, oldum, bu eşqin ustası.
Məst olur, meyxoş olur, meysiz, sevda aşiqləri.
Baxçada bülbül gülün mən də, yarın pərvanası.
Gəl ay üzlü sevgilim, könlümü, şad eylə mənim.
Mən olum yanar günəş, güllər üstünün, yaləsi.
Taçırə,sağalmayan, dərdlərə dərmandı, bu eşq.
Gözləyir hər il səni, gəl ki ol, bahar müjdəsi.

20.VII.2010

YARATDIN

Tanrıma şükür edirəm, həm göyü, həm yiri yaratdın.
Yusif üzlü Samini, həm Yusifi, dürü yaratdın.
Həm ayı, həm günəşi, həm ulduzlu asimanı.
Həm gerçək aşikarı, acılmayan sirri yaratdın.
Canlılar icrə canam, laməkanam dünyada.
Məni bu əqlim ilə, fərqli edib, diri yaratdı .
Bu nə sirdir görəsən, böyükdür iki cahanın.
Ovuc boyda ürəyim, sığmaz ona, iri yaratdın.
Tanrıma aşiq olub, eşq alavunda yanıram.
Yerdə peyğəmbərimi, göydədə bir, huri yaratdın.
Həm qaranlıq gecəni,həmdə günəşli gündüzü.
Həmnahaqqı şərilə, həmdə haqqı, düri yaratdı.
Tacirə yaranmısan, bu nahaq dünyada yaşa.
Daima tanrına de, səni sevən, biri yaratdın.

1.I.2012.

AĞLAR

Gülşəndə gülün, çəksədə bülbül, nazın ağlar.
Bülbül,vəfəsiz çıxarsa gül, avazın ağlar.
Eyhaqq, sifətin dəryayi eşqdir, bunu bildik.
Canları alar, dövri -zimistan, yazın ağlar.
Könlümdə varikən belə eşq məvhəri qırsan.
Mizrab toxunar, bir necə simə sazın ağlar.
Bu qara tarpağımız, gör nə təvəzökar olub.
Özündən razı uçan, havada durna qazın ağlar.
Vəfasızdünya bizi, bir tövrilə məftun edib.
Nəqədər ömür sürsə, yenə də hər kəs, azın ağlar.
Bu dünyada yaşayan cox şeyi itirmiş olar.
İtirərsə ümidi, yas tutar, olmazın ağlar.
Tacirə çox alışar, haqq yolunda, aşiq olan.
Qurunun odunada, yaşda yanar, güdazın ağlar.

28.I.2012.

GECƏNIN

Surəti qarə saçındır, bürüyüb, gül camalı.
Könlüm istər çəkilə, bu intizarı, gecənin.
Şövqilə nur saçaraq, aləmə, boyandı günəş.
Zülməti qara ikən, azdı vüsalı, gecənin.
Eyb olar ay üzünə, görünsə, gecələr yarım.
Gəl günəş seyrinə dur, ağılı halı gecənin.
Yandırar eşqin odu, hər aşiqi ,sübhə qədər.
Bu eşq odunda sönüb, titrər, xəyalı gecənin.
Gündüzün könül coşan, gur şəfəqindən, ilham al.
Hüsnünə vurğun olan, qız tək, həyalı gecənin.
Hər kəsin bu dunyada, könlündə bir sevdası var.
Kimi gün vurğunudur, kim də, səyalı gecənin.
Demə könlüm yuxudur, söylədiyim, söz də mənim.
Ayrılmaz hissəsidir, gündüz röyalı gecənin.
Tacirə, bu dünyanın, sirrini bilmək olmaz.
O qədər aləmi var, bircə boyalı, gecənin.

ETDİN

Sevgili canım olub, canını məndən uzaq etdin.
Bu necə ömürdüki məni bu ömrə yasaq etdin.
Daima can evini hər gecə-gündüz gəzirəm.
Röyada gül camalı, bu dərdli könlə, qonaq etdin.
Bir ürəkdə iki can, ömür eləyib, xeyli zaman.
Bu ömür karvanını, gör necə məndən, qabaq etdin.
Dərdilə, ahu zarilə, göz yaşlarım, leysan olar.
Hər gecəm gündüz üçün, gül camalını, duvaq etdin.
Bü fani dünya ücün, ancaq ömür eylə, gözəlim.
Tələsmə getməyə sən demə bu ömürü nahaq etdin.
Neynimki dünya evi haqla-nahaq oylağıdır.
Guya ki sən dünyada dərdlə nahaqqı alaq etdi
Tacirə, tanrı ikiliklə qurub, yer üzünü
Bu sənə aid deyil, söyləməki sən nifaq etdin.

6.II.2008

***

Ey dost yenə görümki səni, qon, bu xəyal eyvanına
Aşiqin alma canın, taki gəlim, mən yanına.
Gül üzündən duvağı, qaldır ki, güllü yaz görüm.
Yenə hopmuş bu canım, həm damarına, qanına.
Xəbərim yox ki mənim, başqa bir əğyar ilə sən.
Bu sadə dərdli könül, niyə yandı ,hicranına.
Tanrı eşqiilə bizi, hər çür, imtahanə cəkir.
Hər gün sevdikcə səni, xələl gəlməz ad-sanına.
Səni aləmdə sevən, minlərilə aşiq var.
Təkçə mən çarəsizəm, çevrilmişəm, qurbanına.
Öldürür hər baxışın, gözlərin, aldı canımı.
Bir ölüm hökmü verki, əməl edim, fərmanına.
Tacirə xəyaldasan, sevgili, dostun yox imiş.
Bu dastanlar yazılıb, hər zamanın, dövranına.

9 IV.2009-cu il.

HİCRAN

Eşqilə gəlib, könlümü, pərvaz elə Hicran,
Ömrün qışını, sevki məni, yaz elə Hicran.
Sevdim, o qara gözlərini, özüm unutdum,
Alma canımı, sadəcə gəl naz elə Hicran.
Dərdim varikən , eşqilə, canım ələ gəlməz,
Əl tut ki mənə , sən çağır ,avaz elə Hicran.
Nəfəsin yaz cicəyi, bir huri, qılmandı çanın,
Belə qüdrətli ikən, gecəni, bəyaz elə Hicran.
Sən kimi yarı sevəndən, kəsilibdir ,qərarım ,
Ya məni sevki yaşat yadaki, güdaz elə Hicran.
Bülbüləm, güllü çəmənzara gedib, gül gəzərəm,
Gəl, mənim xətrimə sən hər, gülü solmaz elə Hicran.
Könlümün baxcasını, sən gələli, şən görürəm,
Gəl qocaq ol, bu yeri, sərvinaz elə Hicran.
Aşiqəm dərd çəkərəm, bu qoça dünyada təkəm.
Göydə tanrı köməyim, yerdədə, qorxmaz elə Hicran,
Tacirə sevgisini, sözlər ilə, catdıracaq .
Məni sev həmişə sən, hər sözü, almaz elə Hicran.

15.V.2007

ETDİ MƏNİ

O yarı istərəmki, atəşü çan etdi məni,
Sevdikçə sevdim onu, gözü, giryan etdi məni.
Görmüşəm birçə dəfə xəttü - xalı, canım alıb,
Aldı səbri qərarım, eşqi, hiçran etdi məni .
Dedimki qaş gözünü, oynadıb, alma çanımı.
O mələk baxışlının, hüsnü, rəvan etdi məni.
Dəlisov gənçdim, asudə, gəzirkən özümə.
Saldı eşq atəşinə, o mehriban, etdi məni.
Gördükçə ay üzlünü, şöləsi, yandırır çanı.
Cıxdı çismimdə ruhum, sanki, üryan etdi məni.
Sevdikçə dilbərimi, könlüdən, bağlandım ona.
Bu eşqi bəxtəvərim, mahitaban, etdi məni .
Gör neçə hiçrilə mən, eşqi, ahu zar cəkirəm.
Bu yarım eşqi ilə, şahi sultan, etdi məni.
Tacirə, bivəfadır, sevmə gözəllər uzaq ol .
Neynimki dünya kimi, atdı, ənan etdi məni.

10.III.2010

SEVGİM

Səninlə mənim, könlümü, meyxoş elə sevgim.
Narazı olubsan, neçə getdi, yelə sevgim.
Tanrı yaradıb, eşqi, danışmaqla bilinməz.
Aşiq edəçək, sən kimi yari, belə sevgim.
Xöşbəxtdir o da, hər geçə gündüz ,sənin ilə.
Baxıb bu hala, döndü ürəkdə, selə sevgim.
Məçnun kimiyəm, hiçrilə cəkim, nazını mən.
Zavallı çanim, gör nə cəkir, kim bilə sevgim.
Fərhada dağı, külünkilə, yardıran odur.
Bağda gül ücün, nəğmə dedi, bülbülə sevgim .
Sev kainatı, güllü cəmən, seyrinə çıx sən .
Qoy dönsün laləzara, çiçəyə, gülə sevgim.
Bir anım, həll eləyər, olumla ölüm işini.
Çəkəcək həsrət ilə, aylarla, ilə sevgim.
Hüsnünün, vurğunu oldum ,dana bilməm gözəlim.
Vaxt gələr, ömür keçər, daima qalxar zilə sevgim.
Çavanlıq ömrü yaşa, həyatının, ləzzətin al.
Qocalar, yaş çoxalar, düşməz bir də ələ sevgim.
Bu həyatdır yaşanır, həm şirindir, həmdə acı.
Kimsini xöşbəxt edər, kimsinidə tələ sevgim.
Tacirə yaz ki qala, ürəyinin nəğməsi.
Oxunar tez yayılar, düşməz birdə, ələ sevgim.

18.VI.2010

BƏRİ BAX

Gəl mənə naz eyləmə ey gülüxəndan bəri -bax
Alma bu canımı sən afətü- canan bəri -bax
Neçə min nazlı mələk içrə gözəllər gözüsən
Arzumu istəyimi gizlicə qanan bəri -bax
Üzünün şöləsindən ay, günəş çıxsa utanar
Məndən uzaq dolanıb divanə sanan bəri -bax
Aşiqi məst eləyir oşəhla gözlərin sənin .
Yaratmış çox afətlər zəmanə dovran bəri -bax
Razi ol birgə içək bu gecə piyaləmizi
İşarə etdim sənə gizlicə pünhan bəri-bax
İnadla könlümü sən böylə bəlayi-üşqidə
Yandırıb kül eyləmə odlara yanan bəri-bax
Başqa sevənləri sən gəl nəzərindən uzaq et
Ömürlük olum sənə divanə inan bəri-bax
Tacirə bu sevdadan birdəfəlik gəl uzaq ol.
Zəmanə çox yetirib eşqini danan bəri-bax

15.IX.-1993.

QƏRARSIZ

Həsrətlə baxıb könlümü qan etmə qərarsız
Alma canımı sevgili yar getmə qərarsız
Bilməm necə ki, bunca məni bəlaya saldın
Eşq ilə baxıb ölməyimə yetmə qərarsız
Nə olaydı gülüm saçlarıma bir gül olaydın
Ancaq ki, çəmən gülləri ilə bitmə qərarsız
Bir bülbül tək gəzərəm öz gülümü çəməndə
Gizlicə naz eləyib bir dəfəlik itmə qərarsız
Gecə gündüz həsrətin şam tək əritdi canımı
Qarşıma çıxanda sən kölgə kimi ötmə qərarsız
Tacirə bir bəladır eşqə mübtəla olmaq
Bir baxışnan gözəlim könlümü lal etmə qərarsız

04.03.1994

AFƏT

Dəydin gözümə, başqa cürə, dün gecə afət,
Olmazmı qulaq asmayasan, hər sözə afət.
Dünya malına vurğun olub, özünü unutma,
Gördükcə günü, gəlməyəsən pis gözə, afət.
Alçaqla uca, çətin olar, ortada gəz sən,
Dönmə, kiminsə ağzında, gəzən sözə afət .
Çoxları dost tanışa ,sirrini verib, uduzub,
Dağ dağdan ayrı düşər, bız gələrik ,üzə afət.
Zəmanə xarablaşıb, vəfası, yoxdur, gözəlin,
Neynim ki vurulmuşam, qaşlara, gözə afət.
Sənə olan istəyim, həyatımın, mənasıdır,
Baxmaki çoxdy gözəl, çıxıbdı, dizə afət.
Yaşa ki mənası olsun, ömrün yaşayasan,
Qoy baxım bu dünyada, qoyduğun, izə afət.
Xəstəhal oldu könül, dərdü cəfa çəkməyimə,
Kaş gəlib dərman edəydi, bu gecə bizə afət.
Xəyalım məcnun olub, düşsə baği səhralara,
Gah gəzib dağı daşı, gahda getdi düzə afət.
Tacirə, sevki niyə, yaşamağı dərk edəsən,
Kaş sevə qanadlana, hər bir yanı gəzə afət.

17.IV.2009

SƏNİN OLSUN

Al könlümü ki, sevgili yarın, sənin olsun,
Sevki yarını, güllü baharın, sənin olsun.
Dəyişib dövri çahan, hər yanda ,artıb bivəfa,
Ey könül , eşqin ilə, şad ol, gülzarın ,sənin olsun.
Gündə minlərlə cavan, eşqini, bəyan eləyir,
Yaşamaq xatirinə, sevgi bazarı, sənin olsun.
Dəf edib qarşilaram, hər cətni, eşqim ilə,
Sevgisiz könül solar, gültək xavarın olsun.
Neylərəm bu dünyanı, könlumdə, sevgi yoxdursa
Sevgi sonsuz asiman, axar suların sənin olsun.
Bir quru sadə ömür, dəyərmi, eşqi hicrinə.
Sevki eşqi hicrinin, tazə nubarı, sənin olsun.
Tacirə, yaxın dostun, könlünə bağlan həmişə
Ordakı eşqi sultan, taçidarın sənin olsun .

20.V.2010

NAZ EDƏRSƏN

Sevdim səni mən, sevgili yarım, naz edərsən.
Görüdüm boyunu, tazə nübarım, naz edərsən.
Gizlincə baxıb, cismidə mənim, canım aldın.
Alma canımı, güllü baharım, naz edəsən.
Kimdən alaram, səndəki o, mehri ülfəti.
Sənsən mənim ilhamım, tacidarıdarım ,naz edərsən.
Xəbərsizikən, bu qoca dünyada, eşqidən.
Gəl eşqi məhəbbətim, ilqarım, naz edərsən.
Gülüçün nalə çəkən qəfəsdə bülbül kimiyəm
Sən isə, ətirli gül, laləzarım, naz edərsən.
Sənin eşqinlə yaşar, gör nə qədər, aşiq var.
Kimi gizli, kimi aşikar, naz edərsən.
Tanrı, bəxş eləyibdir, bu hüsnü mənanı sənə.
Kim biganə olar, hüsnü füsünkar, naz edərsən.
Tacirə, coxdan sevir, qəlbdən ay üzlü yarı.
Baş əyir, göydə ulduzlar, naz edərsən.

12.X.2010

***

Gördüm bu gün o, sevgili yarın, gül üzünü.
Həm, qələm qaşlarını, həm də, o gözəl gözünü.
Dedim: ey canlar alan, dön mənə bax, bircə kərə.
Acığı tutdu mənə, heç eşitmədi, sözümü.
Yarımın, ayrılığı, könlümü qanatdı mənim.
Bu dərdin, dərmanıdır, təkcə çağırın özünü.
Məcnunam, səhralara düşmüşəm, ahu zar ilə.
Gəzirəm sevgilimi, yadaki, qalmış izini.
Dərmanım, ahlar olub, nalə edirkən gecələr.
Hər gecəm, təngə gəlib, söyləyir sözün düzünü .
Vəfasız olma gülüm, eşqimi, əyləncə bilib.
Deyəsən adət edibsiz, siz atırsız yüzünü.
Kipriyin xəncər, olub qaşların, yaydır gözəlim .
Hər baxış, qan axıdır, aşiqin qırır dizini.
Tacirə, öldürəcək, ayrılığı aşiqini.
Gərəkdir, hər kəski tuta, bu zamanın nəbzini

6.VI.2009-cu il .

ETMİŞƏM

Bivəfa, yarım üçün, canımı, qurban etmişəm.
Dərdilə ömür sürüb, eşqimi, pünhan etmişəm.
Kim gülüb, ömr eləyib, bivəfa aləmdə gülüm.
Görmədim, bircə dəfə, gözümü giryan etmişəm.
Bu şəhər içrə yaşar, sevgilim, asan görünər.
Dünyaca uzaq kimi, könlümü, hicran etmişəm.
Kimi ,simuzər ilə, dövlətü varı, qazanar.
Yarımı şah evimə, ömürlük sultan etmişəm.
Xəyalım, yer üzünü, hər gecə gündüz arayar.
Könlümü hər qapıya, hər evə mehman etmişəm.
Görürəm surətini, hər gecə - gündüz ,yarımın.
O səbəbdən baxdığım, hər yanı, rövşan etmişəm.
Tacirə, bu dünyamız, hər cür gözəllə dolur.
Axtarıb, mən taparam, o yarı, nişan etmişəm.

6.I V.2010

***

İş üçün gəldim ora, sevdim, o məhi cəmalı.
O gözəl gözlərini, həmdə, əqlilə kamalı .
Ona, baxdıqca baxıb, eşqi, fəraqın duydum.
Könlümü, aldı mənim, üzdəki, qoşa hilalı.
O yarın, eşitmişəm, çoxluca, aşiqləri var.
Məndə, sevdim şəkəri, gül cəmallı, füsünkarı
Neyləyim, bircədəfə,baxmaq ilə vurulmuşam.
Aşiqəm, sevdim onu, anlayıram Şəhriyarı.
Gör necə, məftun edibdirki məni ax bu zalım.
Olmayır səbri qərar, cismidə, rahatlıqda barı.
Baxma könlüm alışar, bir dəfəlik, yox olaram.
Qoy sevim əzizləyim, bax o gözəl, tacidarı.
Ona tay tapmayıram, bəlkədə, mələkdi yarım.
Fəxr edir, özü ilə, yaman çoxdu iftixarı.
Səni gördüm, gözəlim, baxçada güllər coldü.
Şəninə nəğmə qoşub, gördüm, üzdəki məlalı.
Belə zalımlıq edib, öldürmə, aşiqləri sən.
Ey canı, nərgizi reyhan, dodağı şəkər ballı.
Tacirə, bəlkə bu gün, könlünə qərar verəsən?
Söylədi, neyləyim ki, məndə deyil ixtiyarı .

10.V.2009

ÇƏKİRSƏN

Könlüm, niyə ki, mən fəqiri, darə çəkirsən.
Məndən aralı, qan tökərək, qarə çəkirsən.
Can ki sıxılar, gərdişi, dövranla uyuşmaz.
Gördüm ki neçə, ax vay edib, yarə çəkirsən.
Düşdün, bu dəli dalğalı, dəryadə buladın.
Qurtarmaq üçün, əlləri, divarə çəkirsən .
İstərdin ola, bülbülü, gülşən də güzarın.
Əfsus ki bilib, sən canı, kənarə çəkirsən.
Niyə haqqın yolunu, bağlayıb, nahaqqilə şər ?
Nədi cəm ölçü kimi, hər şeyi, dinarə çəkirsən.
Könlüm istər şənlənəm, meyxoş olam ,dünyadan.
Mən ki dərddən nəşəli, səndəki ,baharə çəkirsən.
Gün gözəl, dünya qəşəng, ta əzəldən yaranıb .
İstərəm, qəmdən qurtulam, qəm dübarə çəkirsən.
Tacirə, pərvanələr gücsüzdür, şəm yandırar.
Hər sözün, qüvvəti var ki, xavarə cəkirsən.

20.I.2009

EŞİTDİM

Xocalı şəhəri, mənim, cənnət məkanımdır.
Kim qıydı ona, naleyi, fəryadın eşitdim.
Ahzarı gələn, bir necə, ölkəni bilirdim.
Fəryadlar içində, o gecə, adın eşitdim.
Saz- söz sənəti, musiqinin, mərkəzi Şuşa.
Derlər alınıb, o gözəl, ustadın eşitdim .
Köksün, lalaya, nərgizi reyhana bürünmüş.
Cənnət bağıkən, yetmədi, muradın eşitdim .
San ki, görünür, bu yerdə, kimsə yaşamayıb.
Uçan, quşunda, qırıblar, qanadının eşitdim.
İşğalcı erməni, soyqırımı etdi, sizi aldı.
Cənnət Şuşada, toy qurdu, büsadın eşitdim .
Tarixdə bələ, facięni, kimsə görməyib .
Qanla düşəcək, tarixə, həyatın eşitdim .
Bilməm yaradan, vəhşiliyi, qəbul edərmi.
Onlar bu işin, ustası imiş, zatın eşitdim .
Tacirə, namərd olma ki sən, min dəfə ölmə.
Bir ömr elədim, gör necə sir, qatın eşitdim .

28.02.2007

QƏRARSIZ

Nədən könlüm yenədə bivəfa sevdadə qərarsız.
O kəs daim ağlayar yaşarmı dünyadə qərarsız.
Gözlərim gündüz məni görüb idarə eyləyir.
Əqlim gecə-gündüz, həm dəki röyadə qərarsız .
Mey ver dərdilə yanan əqlimi hərdəm nizam etsin .
Məsd edər eşqi səni sanmaki badədə qərarsız.
Əqli kamil olmağı hər insan evladı sevər.
Elmi dərk etmək üçün, zəhmət var - davadə qərarsız.
Gəzmişəm ölkələri sevinclə başdan başa mən .
Yaşamaqçün qalmaram daima yuvadə qərarsız .
Tacirə fikirlərin isidər aləmi daim.
Lakin günəşdi yanan həmişə səmadə qərarsız .

15.XII.2010

SƏNİN

Səbrilə mən olaram eşqi fəraqında sənin.
Səbrilə axtararam, ollam sorağında sənin.
Tikana səbr eləyib gül nəhayət ətir saçar.
Pərvanəyəm yanaram şəmtək çırağında sənin.
Yaşaram ruhum ilə, cismi canla şərikliyəm.
İddian vardı yenə dünya qonağında sənin.
Tanrının surətini daima aşkar görmərəm.
Yaradıb cismini ki, eşqi duvağında sənin.
Gecə - gündüz səbrilə çox can atar qovuşmağa.
Eşqini haq yolunun gördüm qırağında sənin.
İlahi eşqi üçün ruhi canımı verərəm.
Kaş olaydım allahınqul tək ayağında sənin.
Bəsləmə canını ki ,min nazu nemətlə gülüm.
Ruhə qida ver ki, olsun dayağında sənin.
Tacirə eylə yaşa, eylə ömr et ki hər an.
Görməyim vücudunu, tanrı qınağında sənin .

22.I.2011

MƏNİ

Şəhla gözlərin gülüm, gəl deyib aldatdı məni.
 Qoparıb bu könlümü cahanda oynatdı məni.
O qara zülfün əsiri olalı könlüm açılmz.
Axtardım dlbərimi tapmadım, ağlatdı məni.
Dedim ey nazlı pəri qəsdini gəl söylə mənə.
Unudub dostluğunu bir zəvvara satdı məni.
Yalvarıb tanrıya mən bənövşə oldum saçına.
O qansız görüb bunu tez qoparıb atdı məni.
Ağlaram vəfasızın böylə qəddar zillətinə.
Qaşlarından kamanı süzdürüb qanatdı məni.
Gül camalın işığı aləmi qərq etdi nura.
Bir baxışla yandırıb torpaqlara qanatdı məni.
Tacirə, məndə məcnun oldum o şuxun oduna
O da bir Leyli kimi dustaq edib çatdı məni.

27.I.1995

GÖRÜM

Xəyalım apar məni sevdalı gülşəni görüm.
Ömrümün xoş çağını o xöşbəxt vətəni görüm.
Neyləyim - neyləyim ki çərxi dönüb bu fələyin.
Yurduma eylədi qan qoy ölüb itəni görüm.
Bu dərdə neylər ürək salma gəl xəyala məni.
Baxıram dərk edirəm keçmişə ötəni görüm.
Bir ulu keçmişimin tarixidir bu gördüyüm.
Alovu qəlb isidən arzuya yetəni görüm.
Vətənin həsrətidə qəlbimi göynətdi mənim.
Ölmərəm , bircə kərə ey vətən gəl səni görüm.
Bu xəyal karvanımın görüm qırılsın qatarı.
İstərəm gözlərimlə gül çiçək bitəni görüm.
Arxayın olma Tacirə uyma xəyal uyqusuna.
Ayılıb hər yana baxım ətrafdakı çəni görüm.

28.I.1995

ÖLƏNLƏR

Başımı dik tuturam, atəşi dövrandı ölənlər.
Sorma kimdi, nəcidi bir nəcib insandı ölənlər.
Öldürülənlə, ölənin fərqi yoxdur qanana.
Sanma cansız əşyadı, ömürlük bir candı ölənlər.
Tanrı bəxşiş eləmiş, insanı dünyaya ocaq.
Bu odun istisi oldu əbədi yandı ölənlər .
Dünyada hər kəs üçün ömürdən qiymətli nə var.
Versə bu ömrü bada deməkki xaqandı ölənlər.
Dünya gözəldir oxudum, son nəfəsində ölənin.
Ömrünü verdi bizə kitabı bağlandı ölənlər.
Daim yadda qalacaq ən şirin neməti verən.
Günəşdi, aydı əbədi sonsuz asimandı, ölənlər .
Tacirə ilham alaq böylə qəhrəmanlardan biz.
Könlümə xatirədə əvəzsiz həyandı, ölənlər.

14.II.1996

GÖRMÜŞƏM

Bu gün mən sevgilimi hali pərişan görmüşəm.
Baxmışam gözlərinə gizlincə hicran görmüşəm.
Bilmlrəm yatmış idim yoxsa ki gercəkmi ola.
Ya k i bir huri mələk yadaki ceyran görmüşəm.
Belə rəna gözəlin şux boyu aldatdı məni.
Bunca çox gözəllərin yolunda əfğan görmüşəm.
Ay üzü şöləlénir , qaşlara ayparə deyim.
Sanki bir insan deyil mən huri qılman görmüşəm.
Belə bir sevgili yar hər kimin olsa unudar.
Dünyanı həm özünü, mən mahi taban, görmüşəm .
Qoy çəkim nazını mən sevgili afət yenə də.
Ammaki sən sarıdan qətlimə fərman görmüşəm.
Nəzər etsən mənə sən eşqidə Məcnun kimiyəm.
Aşiqi öldürücək sənin tək sultan görmüşəm.
Tacirə hər bir elin aşiqi şeydası olar.
Sevgiyə layiq olan Azəribayıcan görmüşəm .

26.I.1995

NEYLƏDİM

Gözlərim yolda qalıb gəlmədi yarə neylədim,
Həsrətdən kül olmuşam mən bəxti qarə, neylədim.
Aşiqi məst elədin işvəli ceyran balası,
Yadıma düşər hər an o məh cəmalə neylədim.
Lalə - rüxun şöləsi yayılıb aləmdə dilə,
Min çəmən içrə gözəl belə gülzarə neylədim.
Baxışın nizə kimi qəlbimi ahəstə deşər,
Mən ki onun quluyam, bəs mən avarə neylədim.
Məni divanə edib sənin o şəhla gözlərin,
Olmuşam məcnuna tay gəl ey məhparə neylədim.
Tacirə, bircə bileydim bu səbəbin sirini,
Razıyam sonra ölüm mən, o dildarə neyləyim.

18.V.1994

YOX

Get görünmə gözümə ey canalan mənası yox,
Sənsiz bu cahanamülkündə mənim könlümün bir dünyası yox.
Qəsdin nədir ey zalım, canımı salmaqmı oda,
Dilsiz körpədi bu könlüm dinməyəcək fitvası yox.
Bəs niyə tərk elədin məni bəlai eşqidə,
O gündən yatmayıram gözlərimin röyası yox.
Eşqi duydum gözəlim yanaram pərvanə kimi,
Gəzsəndə bu dünyanı, bu dərdin bir çarəsi yox .
Geçə - gündüz yar üçün ağlayıram səbri qərar,
Pərişandır əhvalım, gözlərimin qarəsi yox.
Salma gəl xatirəmi bu gün yadıma gözəlim,
Təkcə könlüm qanayar, özkə başqa yarəsi yox.
Tacirə, bir zamanlar, köç eyləsəm bu dünyadan .
Ölərkən ağlayaram , ürəyimin parəsi yox.

01.02.1994

ƏLƏ GƏLMƏZ

Axtarma cahanda vəfalı bir yarım olsun.
Böylə vəfalı sevkili bir yar ələ gəlməz.
Ey gözləri şəhla, saçları ənbər qoxulu.
Qalmaz bu gözəllik belə dildar ələ gəlməz.
Deyirlər ki əbədi bir axirət dünyası var.
Bu dünyanın vəfası olubdur aşkar ələ gəlməz.
Dövrümün qəm kədəri bunca könlümə neyləyər.
Ucalıb qəm dağından könlümdə qəmxarə ələ kəlməz.
Bel bağlama dövrün bu gözəllik dəminə sən.
Bu fani dünyada yox vəfa, lqar, ələ gəlməz .
Olsada hər bir kəsin könlündə ucalmaq odu.
Yüksək ucalıq olmasa, vüqar, ələ gəlməz.

26.VI.1994

BİLMƏZ

Könlündə hər an qəm, kədər olan gülə bilməz.
Qəmdən bu könül mülkünə bir dəm girə bilməz.
Tanrı hamıya yazı, qədər bəxş eləmişdir,
Arzuya çətindir ucala, bir zilə, bilməz.
Doymaz bu həyatdan, nə qədər, yaşasa insan.
Aylar dolanıb, çatsada hər an, ilə bilməz .
Sevəndə könül, sevgini, oğlan edər aşikar.
Adətdi gözəllər, bunu ala, dilə bilməz.
Allah buyuryb verməsə hec bir kəsə fərman.
Min-min bəhanə gəlsədə insan ölə bilməz.
Könlüm bu qədər yansan əgər məhv olacaqsan.
Bir də yenidən gəlsə hər insan ələ bilməz.
Kim deyir bu dünyada daimi insan qalacaqdır.
Cənnətdə qalar burda olar mənzilə bilməz.
Tacirə könlüm, bir dəfəlik, sındırılıbsa .
Göz yaşım axar, əllərim onu, silə bilməz.

27.VI.1994

GECƏNİN

Yarımın gözləri tək rəngi qaradır gecənin.
Utanır al şəfəqdən bağrı yaradır gecənin.
Boylanır asimandan ulduzları ,ayı ona.
Açılar hər səhərim, ömrü paradır gecənin.
Səhərdən, axşamadək dustaq olur o günəşə.
Həsrətli intizarı dərdə çaradır gecənin.
Görməkçün gül üzünü o al səhərin həmişə.
Cəkəcək ahu - zarı, ömrü bəladır gecənin.
Bununçün qara geyim, qara libas istəmiş o.
Bu ağır dərdə canı bir mübtəladır gecənin.
Tacirə, məqsədinə çatmayır aşiq nə edim.
Yatıb qalıb yuxuya, adı röyadır gecənin.

19.VII.1994

ARAMIZDA

Bilmirəm ey könül bu nə məhəbbət.
Bu necə ülfətdi, tən aramızda.
Sevincli günümdə kədər görürəm.
Enişli - yoxuşlu gen aramızda.
Buyruq da verirsən ötəri his tək.
Düşür ortalığa cən aramızda.
Sənsiz danışmaram, sənsiz dinmərəm.
Qoy keçsin ömrümüz şən aramızda .

20.VII.1994

GEDİB

Sormayın nə üçün qaralıb halım .
Yetişdi qocalıq dövranım gedib.
Şeytandı, iblisdi, bu dünya nədir?
Ağlaram gül kimi zamanım gedib .
Gözümdə qanlı yaş, qəlbimdə kədər.
Günahsız necə min oğlanım gedib.
Sanki yetim qalıb millət carəsiz.
Dəyişib ruzigar, soltanım gedib.
Alındı şəhərlər dağıldı evlər.
Qızıl yüklü dəvəm, karvanım gedib.
Lalə yanaq qızım, istəkli gəlnim.
Südəmər körpəmlə cavanım gedib.
Neyləsin-neyləsin bu dərdə loğman.
Ürək necə vurar al qanım gedib
Tacirə axtarma həmdəmim hanı
Yox cəsədin üstə bu canım gedib .

21.VII.1994

KİMİDİR

Yandı atəşdə könül, dövrü zəmanə kimidir,
Odlanır eşq oduna sanki pərvanə kimidir.
Eyləyib bağrımı qan o kaman əbru nə edim,
O səbəbdəndə könül indi divanə kimidir.
Nə olar bir yanasan səndə mənim tək odlara,
Görürəm sənəmləri könül sultanə kimidir.
Bir baxışnan canımı necə alırsan gözəlim,
Sənin ki baxışların incə dürdanə kimidir.
Bilmirəm afətmisən, yoxsa huri qılmanmısan,
Çıxmısan bu könlümə əcəb ceyranə kimidir.
Tacirə, ehtiyat et düşmə sənəmlər toruna,
Baxma gəl surətinə necə məstanə kimidir.

15.IX.1994

NƏZƏRİM

Baxıram ətrafıma titrəyib qalır nəzərim.
Dəyşib ruzigarımız gözümdən salır nəzərim.
Görürım hər tərəfdə sultan olub hərə özü.
O səbəbdən dəmənim böylə alcalır nəzərim.
Bir parca kağızdımı həll eliyən taleləri.
Düşündükcə bunları necə ucalır nəzərim?
Elə bir dövr çatıb dil deyıni ürək demir.
Alınan şəhərləri görüb, sustalır nəzərim.
Dözürük ruzikaımın böylə qəddar zillətinə.
Görürəm dərk edirəm cox donub qalır nəzərim.
Əlacsız millətimin piştaxtasıdır son ümidi.
Qanunsuz ticarəti hər yanda alır nəzərim.
Tacirə yox ümidin dözməkdən savayı sənin.
Gəl mənim həmdəmim ol dərddən qocalır nəzərim.

22.IX.1994

OLMAZ

Deyirlər çətindir sevda həsrəti.
Bu yolda mənimtək intizar olmaz.
Sən Leyli deyilsən, məndəki Məcnun.
Eşqimiz belə tez aşikar olmaz .
Könlümü baxışın dustaq eylədi.
Gözlərin tək gözlər cadugər olmaz.
Aşiqi salmalısan sən dərdü-sərə
Fəxr edirsən belə ixtiyar olmaz.
Mən pərvanə olub odda yanırkən.
Sən oda qızınsan düzilqar olmaz.
Eşqidə mahirsən bir ovcu kimi .
Görürəm , şkarın lk nübar olmaz.
Tacirə bu dərdə ürək neyləsin.
Tüstülənər könül can yanar olmaz.

9.X.1994

HEÇ VAXT

Düysamda dəva, eyləmədim dövrana heç vaxt.
Minlərlə kədərdən ağlayan insana heç vaxt.
Çünki yox olub könlümün aləmdə vüsalı.
Sanki başdan donub o çatmayacaq həyanə heç vaxt.
Bunnan belə çox axtaracam könlü sevəni.
Etibar eyləmərəm mən nə ona, nə sana heç vaxt.
Bilməm bu necə dövri zamandır dolanıbdır.
Zülmilə çatammaz başqa bir, dövrana heç vaxt.
Ey nazlı pəri saxtadı nazla dediyin söz.
İnana bilməyirəm sənində öz dünyana heç vaxt.
Gəncikən yandı könül atəşi odlara qalandı.
Baxmaram nə bir xana, nə dəki sultana heç vaxt.
Tacirə, səndə ki şad olmadın aləmdə kədərdən.
Şad etsəm də güləmməz, gözlərim, min cana, heç vaxt.

1.VI.1996

SIRTIQ

Aləm qarışıb meydan oxur hər yana sırtıq.
Gah insan olur, gahda dönür şeytana sırtıq.
İşdə özünü göstərər arif bilən oğlan.
Bəd-bəd danışar ortada, yanda gülən oğlan.
Aləm qarışıb meydana, oxur hər yana sırtıq.
Gah insan olur, gahda dönür şeytana sırtıq.
Tini -bazarı kəsdrir hər gün, səhər, axşam.
Kimdənki xeyir görsə əgər olur canha - can.
Tay tuşa nökər tək baxacaq rəisə sultan,
Aləm qarışıb meydan oxur hər yana sırtıq,
Gah insan olur, gahda şeytana sırtıq.
Yağlı tikələr axtarır hər vaxt itiribmiş,
Dövranda bu cür gör necə yaltaq yetiribmiş.
Bəzən çox udub, bəzən də gözdən gətiribmiş
Aləm qarışıb meydan oxur hər yana sırtıq.
Gah insan olur, gahda dönür şeytana sırtıq.
Min-min donu var hər bəzənəndə təzələnməz.
Miliyon əməlin üstünü örtər çözələnməz .
İşlərini pünhan tutar hec vaxt süzələnməz.
Aləm qarışıb meydan oxur hər yana sırtıq.
Gah insan olur, gah da dönür şeytan olur sırtıq.
Hərdən qoşular millətə dost tək olar əlbir.
Məqsəd buduki sözləri yığıb edə xəlbir.

Sonrada məktub yazacaq ananım bir-bir.
Aləm qarışıb meydan oxur hər yana sırtıq.
Gah insan olur , ganda dönür şeytana sırtıq.
İnsan cildində olur onlar demə insan.
Bar dövlətə çoxdan satıb insanlığı asan.
Şirin dilini bayraq edib özünə həyan.
Aləm qarışıb meydan oxur hər yana sırtıq.
Gah insan olur gahda, dönür şeytana sırtıq.
Tacirə - ayıl insanı axtar əməlində.
Aldanma ona üzərsən sırtıq xəzəlində.
Tutsanda onun heç nə subut olmaz əlində.
Aləm qarışıb meydan oxur hər yana sırtıq .
Gah insan olur, gahda dönür şeytana sırtıq.

25.IV.1996

ETDİYİ

Eşqidəndir   könlümün böylə pərvaz etdiyi,
Eşqidir gül, rənaların aşiqə naz etdiyi.
Eşqin ahı olmasa xarı bülbül olmazdı,
Çəmənzarda bülbülün daim avaz etdiyi.
Aləmdə eşq olmasa, təbiətdə ağlayar.
O səbəbdəndir həmən hər qışı, yaz etdiyi.
Gözəlim eşqin əsiri olur hər nazlı Züleyxa,
Məni də Yusif edər hər könlü bəyaz etdiyi.
Eşq düşsə ürəyə gülüm, meysizdə kecər,
Məsti xumar eyləyər könlü sərəfraz etdiyi.
Eşqə vurğun olanın aləmdə bir çarəsi yox,
Ömrü versə qurtarar bu dərddən güdaz etdiyi.
Nə səbəbdən Tacirə aşiqi qəmxar olmusan,
Çəkdirər istirabı könlümə muraz etdiyi .

25.IV.1996

***

Ey könül, sən can ilə, bixəbər oldun dünyadan.
Qıldın, eşqi sevdanı, xəbərsizdin aşinadan.
Etibar etmə canı, bunca, başqa bir yada.
Həmdəm ol, can evinə, həm, aşikar royadan.
Cümlə cahan mülkünü, haqsızlıq, tutmuş tamam.
Ağır dərdən çarəsiz, yatmışlar, kim oyadan?
Hər sənəti kamilin, bir arifi, ustadı var.
Qızarar, al yanaqlar, gözəlliklə həyadan.
Kim deyir, məhəbbəti, mehri ülfəti atginən.
Min sifət alıb hərdəm, kimsəyə, yalvarmaki can.
Ey könül, gəl ömrünü, qüssə-qəmə həsr eləmə.
Bu, o fani dünyadı ki, ancaq olurlar mehman.
Kimsəylə dost olmağa, əsla ehtiyat eylərəm.
Çox çətin, yaxşısını, taparam, əsli insan.
Naqisin ,haqsızların, artıbdır bunca sayı.
Tutmaz onu yer üzü, həmdə ki, göydəki asiman.
Var, ölkəmdə səfalı, ürək açan mənzərələr.
Vardır, eşqi məhəbbət ,insanda vardır mehriban.
Dünyada, ömür payın, hər kəs, bir dəfə alacaq.
Tanrı verər xoş günü ,yada, qaranlıq zindan.
Tacirə, qəmlənməki, könlün pərişan olmasın.
Gün gələr, haqq ucalar, hər tərəf olar rövşan.

16.10.2007-ci il

YUVA

Yenə, qondu nəzərim, köhnə bir aləmdə yuva,
Necə gülüm, sevinim, könlüm salıb qəmdə yuva.
Öz xəyal atı ilə, hər yanı gəzdikcə ruhum,
Bədənim, yerdə qurub, ruhum uçan dəmdə yuva.
Unuda bilməyirəm, hüsnü, pərişanımı mən,
Könlüm, əzəl binadan, qurub o sənəmdə yuva.
Bütün aləm sevinir, küllü, ixtiyarım ola,
Yenə, qurram özümə, mən qaranlıq çəndə yuva,
Eşqi, məcnun eləyib, sevgili aşiqlərini.
Baxcada, bülbülə bax, salıbdı çəməndə yuva,
Ağlaram, arzulayıb, sən kimicananımı mən .
Yardan, ayrı qalaram, cismim qurar gendə yuva.
Tacirə, bivəfalar toruna düşdü, yanacaq.
Bu dünya, mənim deyil, kaş quraydım səndə yuva.

17.02.2010.

İSTƏMƏ

Bu dünyada heç vədə bir kimsədən can istəmə.
Sevsədə aşiq səni verməz ol pünhan istəmə.
Duysan eşqin ləzzətin şəkər olsa dövran sənə.
Bunnan belə olmaz yenə bir artıq imkan istəmə .
Tanrı verdyinə razı ol olma naümüd.
Çünki bəxtin belədir afətsə hər yan istəmə.
Mən də sevdim   cahanı, dedim gözəldir günəşi.
Aldanma çoxları tək bitəcək dünyan istəmə,
Qalacaqdır dünyada hər kəsə ancaq etdiyi .
Çalış ömrün şən ola ağlayıb fəğan istəmə.
Ömrü keflə başa vur demə son gündə heyif.
Bəsdir könlün xoş ola heçvədə sultan istəmə.
Tacirə bu dünyanın işləri başdan belədi.
Sev təmiz qar yağışı çisginli duman istəmə.

5.I.1996

***

Gözlərin sürmələyib qaşlara naz eyləməsin .
Hurilər içrə gəlir ey gözəlim nazlı səsin.
Yetirib Azəri torpağı belə canları çox.
Artıqca say hesabı yurdu gözəllər bəzəsin.
Şair oğlu sənidə döndərib yoldan pərilər.
Bunca artdı deyəsən şerə sənətə həvəsin.
Qınamazdım gözəlim səndəki o xoş camalı.
Naz qəmzənlə səni bəs necə aşıq diləsin.
Məhəbbətdən yonulub hər şirin ömrün əzəli.
Xoşdur aşiqlər üçün çəksə onun naləsin.
Tanrı biz aşiqləri çox saldı çətin bir dərdə.
Həmişə çəkməliyik nazlı gözəllər qəmzəsin.
Tacirə xəlqm üçün, yaşa xidmət et vətənə.
Hər kəski sevməz onu görməyəcək müjdəsin .

20.I.1996

QEYRİ

Şad olmaz düşkün olar, könlüm anadan qeyri.
Könlümə həmdəm olan yoxdu səbadan qeyrişi.
Stəyim bir vətənim, birdə əziz anam üçün.
Eylədim cana cəfa bircə dəvadan qeyri.
Ummadım canım üçün təkcə gözəllik nurunu.
Sınadım hər yolu mən bunca duvadan qeyri.
Gəzmişəm mən cahanın qarış-qarış hər yerini.
Şirin olmaz hər kəsə hər nə yuvadan qeyri.
Birgə olmaq xəlqimin, ümdə birinci şərtidir.
Olmasa görməyəcək ülfət bəladan qeyri.
Şair səndə nəğmə qoş Azərbaycanım ücün.
Eylə yaz, eylə de ki, olsun binadan qeyri.
Tacirə haq yoludur istədiyim təkcə mənim.
Arzumdur enməz ola səslər ucadan qeyri.

25.I.1996

BUNU SORMA

Niyə çaşdı beynim fikrim dolaşdı, bunu sorma.
Niyə yandı ürəyim gözlərim yaşdı sorma.
Dəmadəm damla-damla yandı bəşər nur üçün.
Yurdumun bəxdi halı əzəldən daşdı bunu sorma.
Azəri toroağının hər qarış sərvəti qızıl .
Bəs niyə ömür günü böylə savaşdı bunu sorma.
Görmüşəm doğru sızün, gün kimi düşsə üzərə.
Bu sözə qurban olub kəsilən başdı bunu sorma.
Vüqarı zirvədəki qar kimi ağdır saçının.
Göstərən dərdlərini ağarmış saçdı bunu sorma.
Xəlqimin iradəsi valeh edib dir cahanı.
Görəsən bəs nə üçün səbrimiz daşdı bunu sorma.
Dünyanı dərk edəcək fikirlər birsə ürəkdə.
Sədləri birnəfəsə bəs necə aşdı bunu sorma.
Qarışıq salma Tacirə, işləri ayırd ələ sən.
Ama əyri görünən kamandı, başqadı bunu sorma .

29.I.1996

YARIM

Könlüm hər an səni yad eyləyər sevgili yarım.
Sən sən mənim ilham verici tazə nübarım.
Eşqinlə gəzirkən od alar çöllü zimistan.
Sənsiz dönəcək buzlara atəşli baharım.
Həsrətin canım alıb könlümü viran eləyir.
Yenə axıb sel olur dideyi giryan da sularım.
Çəmənzarda güllərə bənzərin vardır gözəlim.
Bülbül təki ağlaram ycalar ahu zarım.
Neynimki dövran səni bir daha yetirməyəcək.
Çəkdirmə qəm yükünü, ey könül ü intizarım.
Sevda qəmi çəkməyə əzəldən könlün öyrənib.
Gəl ey mehri sultanım, başlarda tacidarım.
Tacirə ömr keçir, gün kicir, eşqi yaşayır.
Bir gün səndə sevinib deyərsənki gəldi yarım .

20.IV.2009

OLMUŞAM

Aşiq oldum oyara taki, peşiman olmuşam.
Bu necə sevdadıki, mən ki, yarımcan olmuşam.
Bəxtiyarəm eşqidə, taleyim arxamca gülür.
Xəlq edən xəlq eləyib, fərqliyəm pünhan olmuşam.
Tanrınən izni ilə pərvanə ollam şəmimə.
Yadaki mələk olam, neynim ki insan olmuşam.
Gün keçər, ömür kecər, hər tazə dövran dəyişər.
Bu eşqi sevgim ilə indidə tərlan olmuşam.
Sevinin əqli xəyal, cismitək sədlərdə deyil.
Gündə yüz yol gedərik, yarıma mehman olmuşam.
Dedilər o, gül yarın başqa bir aşiqləri var.
Dedimki, yalan olar, amma pərişan olmuşam .
O yara sevgim üçün, daima minnətdar olum.
Könlümü eşqə salıb, eşqilə sultan olmuşam.
Bivəfa aşiqlərin vəfası dünya kimidir.
Eşqimə çatmamışam dillərdə dastan olmuşam .
Tacirə, yer üzünü, tanrı eşqidən yaradıb.
Mənə ehsandı bu, eşq çün mahitaban olmuşam .

27.IV.20

BƏNZƏYİR

Mən sevən dilbərin qaşları hilala bənzəyir.
Üzü aynada gözəl, huri -camala bənzəyir.
Dodağı qönçə dəhan, boyu sərvi xuraman.
Ağzı şəkkəri nabat yanağı lala bənzəyir.
Saçının tağlarını hər görən aşiq üzülər.
Eşqi həsrətdən axar, göz yaş sulara bənzəyir .
Kaş gələ nazlı yarım, biz görüşəydik bu geçə.
Ürəyim qovur məni, sanki xavara bənzəyir.
O qara gözlərinin şöləsi yandırdı məni.
Hərbaxış canlar alan Rüstəmizala bənzəyir.
Müşkü-ənbər qoxuyur, sacların ey sevgili yar.
Zənn etdimki yaz gəlib, ətri bahara bənzəyir.
Dünyada çoxdu gözəl, sevgili nazlı pərilər.
Mənim öz sevdiciyim tək tacidara bənzəyir.
Tacirə sevgi ilə dünyamız abad olacaq.
Eşqilə söylədiyim Şəhriyara bənzəyir.

2.V.2010

CANIM

Ey könül bunca belə qəm çəkməli dövrandı canım.
Oldum haqqın yuvası nahaqq ilə yandı canım.
Hökm edib ay ilinə bir sıra qanunları var.
Ondan ali yaşadım gör neçə bir candı canım.
Əzəl başdan vurğunam dünya sanki bir tamaşa.
Yaxşını həm də pisi dərk eləyib qandı canım.
Məhəbbətdən ürəyim şam kimi daim əriyər.
Sanki cismimdə günəş atəş olub sandı canım.
Əsil insan odurki insanlığa hörmət edə.
Təbiət yetişdirib, dünyada mehmandı canım.
Bu yerdə pullu-pulsuz fərqi vardır insanların.
Qəbr evində şahlara yoldaşam, sultandı canım.
Yaranış tanrımızın sehirli möcüzəsidir.
Allahın varlığına, sübutdu, nişandı canım.
İnsan oğlu dünyaya çoxda mübtəla olma.
Vəfalıdır dedilirər, fitvadır inandı canım.
Yaşanan hər zamanın, hər bir anın hökmünə bax.
Ölüm yada olma tuş gələcək andı canım.
Tacirə yaxşı bax ki, cismin bu yerdən gedəcək.
Günahım var qorxuram, büsbütün nöqsandı canım.

19.II.2008

GƏLDİ

Yarandıq Tanrının sevgisi ilə,
Ruhumuz axırda mizana gəldi.
Bu dünya yer verib haqsız əzəldən,
Yaşadıq canımız cəzana gəldi.
Dünyanın işləri mənsiz keçərmiş,
Bəs niyə bu canım cahana gəldi.
Çəkirəm aləmin dərdi, sərini,
Qanmazın eyibi qanana gəldi.
Ömür var gileyli, ömür var şəndi,
Hər yaranış, ölüm bir ana gəldi.
Məhəbbət gözəllik sevinc gətirir,
Onun da axırı divana gəldi.
Tanrı bəxş eyləmiş yer-göy əşrəfi,
Bu bəxşiş aradım insana gəldi.
Bəs niyə tamaha şöhrətə uyduz,
Qiyamət Allahdan nişana gəldi.
Dünyanı sevənlər dünya dedilər,
İman istəyənlər imana gəldi.
Duyduqca aləmi könlüm dərindən,
Çaxnaşıb beyinim tufana gəldi.
Tacirə bu yerdə yoxdu pənahım,
Ümidim göylərdə bir sana gəldi.

***

Könlüm hər an səni yad eyliyər, sevgili yarım.
Sənsən mənim ilham verici, tazə nübarım.
Eşqinlə gəzirkən, od olar çöllü zimistan.
Sənsiz dönəcək buzlara, atəşli baharım .
Həsrətin canım alıb, könlümü viran eliyər.
Yenə axıb sel olur, dideyi giryanda sularım.
Çəmənzarda, güllərə bənzərin bardır, gözəlim.
Bülbül tək ağlayıram, ucalar ahu-zarım.
Neynimki, dövran səni bir daha yetirməyəcək .
Çəkdirmə qəm yükünü, ey könlü intizarım .
Sevda qəmi çəkməyə əzəldən könlüm öyrəşib.
Gəl ey mehri sultanım, başlarda tacidarım.
Tacirə ömr keçir, gün keçir eşqi yaşayır.
Bir gün sən də sevinib, deyərsən ki gəldi yarım .

20.IV.2009

EYLƏMİŞƏM

Vəsli hicrində yanan, könlümü, tab eyləmişəm.
O qara gözlərinə, cismi, xitab eyləmişəm .
Çöllü səhrada gəzən aşiqi zar oldum inan.
Həmi cismi, həmi könlü, bunca xarab eyləmişəm.
Yandırar məhv eləyər bir baxışın aləmi
Ol səbəbdəndir ki mən, hüsnə, niqab eyləmişəm.
Kipriyin qatarından, ox kimi, sancıldı mana.
Tökdü çiyər qanımı, al iç, cavab eyləmişəm.
Hicri - fəqanın, çəkməkdən, könlüm adət eyləmiş.
Sən zülüm etmədəsən, sevib, cavab eyləmişəm.
Qönçə tər, açmaz olur, gül camalın gördükdə.
Hüsnünün baxçasına, könlü, qonaq eyləmişəm.
Tacirə, əsiri oldun, bu gözəl sərvinazın.
Yanağı laləyə mən, telini, yasaq eyləmişəm.

25.I.2009

BU KÖNLÜM

Eşqinlə daim, məsti xumar oldu, bu könlum.
Meydən aralı biixtiyar oldu, bu könlüm.
Gizlincə sevib, eşqimi, pünhan eylərdim.
Dildən - dilə düşdü, aşikar, oldu bu könlüm.
Divanə kimi, ağlayıb, səhralara düşdüm.
Həsrət çəkərək, qəm intizar, oldu bu könlüm.
Çəkdikcə sənin, eşqi fəraqın, mən ucaldım.
Hüsnü şövqilə, tacidar, oldu bu könlüm.
Ey yarım, sənin o qəmzənə, dözərmi cahan?
Aşiqə rəhm eləki, ta biqərar, oldu bu könlüm.
Baxdıqça, güllər üçün, bülbüllər, fəğan eyləyər.
Sevgili yarım üçün, ahu-zar,oldu bu könlüm .
Tacirə, meyilə, ney, şövqü, səda verəcək .
Eşqinlə, daima məstəm, füsunkar oldu bu könlüm .

25.I. 2009

NEYLİM

Quşdum yaz ayı, baxçada qondum, gülə neylim.
Səbri qərarım, ta kəsilib, yar bilə neylim.
Gördükcə səni, şairə döndü, dəli könlüm.
Qorxdum ki düşəm, xalq arasında, dilə neylim.
Eşqin cavabın, həsrətü, hicranını duydum.
Gəlməzsə əgər, ayda keçər, həm ilə neylim.
Günlər keçəcək, səndə məni, çox gəzəcəkssən.
Onda oxu öz nəğməni, dön, bülbülə neylim.
Minlərlə qəzəlxan, eləyib, eşqi tərənnüm.
Hər dövrün, öz dastanı var, düşməz ələ neylim.
Könlüm budanıb, sındırılıb, eşq yolunda.
Nahaq ilə şər, dağ çəkib başdan, elə neylim.
Göz gördü, könül sevdi səni, eşq unudulmaz.
Alçaldım o gün, eşqi gətirdim, dilə neylim.
Tacirə, alış yanki, görüm, sən yaşayırsan.
Yanmaqda qalırkən, keçirir, gur selə neynim.

25.IV.2009

EY SƏNƏM

Tanrı bu hüsn ilə səni, xəlq eləyidir, ey sənəm.
Səni, öz ülfəti - nurinə bələyibdir, ey sənəm.
Başqa afətlərdən seçilirsən fərqin nədirki?
Səni cismim, həmdəki könlüm, diləyibdir ey sənəm.
Baxdıqca, sənə ruhu, bədəndən qoparırsan.
Bir, mənalı baxış, könlü, ələyibdir ey sənəm.
Zülfü, pərişanın üçün, könlümü dustaq etmişəm.
Yarışarmı hüsnünlə, güllər, eyibdir ey sənəm.
Mən ki məcnun deyiləm, səndə ki leyli, gözəlim.
Gəzmişəm səhraları, ilan mələyibdir, ey sənəm.
O qara gözlərinlə, qaşların, aldı canımı.
Hurilər qarşısında, başın, gül ələyibdir ey sənəm.
Tacirə, hər bir gülün, öz bülbülü şeydası var.
Səni də, gül kimi könlüm iləyibdir, ey sənəm.

31.X.2008

GETMƏ GƏL

Səbri qərar etməyə, yox məndə taqət, getmə gəl.
Gözlərim gördü yenə, ey uca qamət, getmə gəl .
Uydum bəlayi eşqinə, yandım, hicr ilə sərbəsər ,
Çatmaqçün öz yarıma, almışam möhlət , getmə gəl.
Eşqin üçün yanmağım, könlümə, dərman olub ,
Tanrı verib bu qəmi, içmişəm şərbət , getmə gəl.
Hər baxışın, könlümün, viran etdi bağını ,
Qalmayıb cismimdə ta, bunca bir halət , getmə gəl.
Uyma namərd sözünə, qoyma ağlar, bülbülü ,
Sən ey çəmənlər gülü, bağlayaq ülfət ,getmə gəl !
Sən ilə, dünya mənə, uldlzlu asimandır,
Sən dünyanın nurusan, mən üçün sərvət getmə gəl.
Tacirə, bu bəlaya, çoxları düçar olub ,
Tanrı bu eşqi mənə, veribdi nemət, getmə gəl .

14.IX.2010

YOX

Sevmə bifəfa yarı, dünya kimi vəfası yox .
Əgərki, sevsən onu, bilki , onun səfası yox .
Rəzil ömr yaşasam, yaxşıdır, bunca mənə ,
Bu həyat yaxşıdırki, böylə eşqdən, cəfası yox.
O kəs ömr aləmində, başdan başa, xoşbəxtdir,
Nə bir ahu zarı var, nə də, binəvası yox.
Girmə eşq aləminə, heyifsən, əqlin çaşar,
Eşqidə tək kəslərin, dərd verən, bivəfası yox.
Dünya əzəl binadan, yalanlarla, yüklənib ,
Lakin onu sevirlər, heyif, aşinası yox .
Eşqi mehmandırki bəs, döyməz, bir ev qapısı,
O elə kamildirki, əzəldən, ustası yox .
Kimki mübtəla olub, bu dərdə, dərman eyləməz,
Ya düşər eşq oduna, ya da ki, davası yox .
Hər kəs ömr aləmində, növbahar, fəslin yaşayar,
Olmaz ki hər bir kəsin, ömründə, sevdası yox.
Tacirə, ömr eylədi, dərdilə şən dünyada .
Nə bir dostu, sevgilisi, nə də ki rənası yox .

20.VII.2006

GÖZƏLDİR

Mən sevən yarın, həm hüsnü həm əxlaqı gözəldir.
O yara heyranamki, boy buxunu ,buxağı gözəldir.
Bu gözəl təbiəti, seyr etməkdən, doymayıram.
Eşqi - hicrilə yanan, qəm dustağı gözəldir.
Vurğun oldum, yarımın, qaş gözünə əzəldən.
Dodaqları yaqutdur, həm yanağı gözəldir.
Bülbül kimi, ağlaram, gül dərdilə hər zaman.
O gül baharın özü, həm də, bağı gözəldir.
Seyr etdim, yaxşı yaman, hər nə ki var dünyada.
Hər şey cütdür, qarası, həm də ağı gözəldir.
Sözündə, qüvvəsi, var qılınc kimi kəsərlidir.
Çox söz, mənasız olar, növbaharı gözəldir.
Dünyada, sevgi böyük, bir qüvvədir, ucadır .
Hər şeyin, saf ülvisi, tacidarı gözəldir .
Tacirə, mehman ola ,bircə günlük yarına .
Eşq üçün, yanan könlün, ahuzarı gözəldir .

15.III.2000

***

Sevgilim, sənsizəm mən, sənlə günəş ay kimi
Sənsiz, bir dəryayamki, axıb gedən çay kimi .
Gözlərinin qarası, bir zülmət, gecədirmi ?
Üzün nurlu çiraqdır, qaşlarındır, yay kimi.
Neynimki, bircə dəfə, alammadım qadanı.
Bənzərin var çiçəyə, camalın gün,ay kimi.
Kəl ey mehri sultanlım, bivəfa, dünyadır bu.
Eşqimlə, etmə məni, aləmdə rüsvay kimi.
Nə səndən dönə bildim, nə öldüm bu dünyada.
Eşqin dərd tək yığıldı, qəlbimdə, saray kimi .
Tacidarısan mənim, başımın, ey lalə rux.
Bir sevda eşqisənki, könlümdə, haray kimi.
Tacirə, eşqilə yan, yoxdur, səni bir duyan.
O gündən ki ayrıyam, mən səndən, il ay kimi.

18.IV.2001

QALDI

Əsmər gülümü, aldılar məndən, elə qaldı.
Gəlmək dilədim, arzuladım, söz, dilə qaldı.
Viranə könül, dərdilə, təzdən, can olubdur.
Ruh ilə canım, halsız olub, mənzilə qaldı.
Hər kim binədən, öz kökünü, torpağa sancıb.
Kökləri zəif, hər alaq otlar, selə qaldı.
Cismin yenədə, asimana, çatsada başı.
Möhtacdı daim, bir qarın üçün, ələ qaldı.
Dövri zamanın, hər bir anın, hökmünə bir bax.
Ömrüm keçəçək ,gör necə aylar, ilə qaldı.
Ömür yolunu, pis ilə yaxşı başa, vurdum.
Bir gün gələcək, xatirə məndən, külə qaldı.
Mehmanı olub, bu qoca dünyada, yaşarlar.
Kimi bəm ilə , kiminin ömrü, zilə qaldı .
İman dilədim, haqq ilə, dünyanı arardım .
Neynimki həyat, acı ruzgara, yelə qaldı .
Tacirə, nəsihətlə yazanlar, sayı mindir .
Millət yenədə, cahil olublar, belə qaldı .

29.XII.2009

GƏRƏK

Cismi tənha olanın, qəlbidə, ilqarı gərək.
Onla dostluq etməyə, əhdi,vəfadarı gərək.
Binəva könlünə sən, ahuzarı, yükləmə ki.
Bu dərdə dözmək ücün, onun etibarı gərək.
Ey vətən evladı sən, daim, ucalmaq istəsən.
Könlümün sənin üçün, olsun, tacidarı gərək.
Cismini yandıracaq, eşq atəşi, olsa sənin.
Bu hicri ayrılığa, könlün, intizarı gərək .
Eşq üçün, hər sevənin, bir sevdalı yarı olur.
Xarı - bülbül, oxuya , baxça laləzarı gərək.
Tanrı sevinclə kədəri, hər kəs üçün, birgə verib.
Hansı aşkar olacaq ,onun, səbəbkarı gərək.
Tacirə, yaşamaq çün, hər şey aydın olmalıdır .
Ən əvvəl, könlün üçün, sirrin aşikarı gərək.

16.IX.2006

EY YAR

Mən ki səni bu qədər, bivəfa bilməzdim ey yar.
Dərd ilə, həsrət ilə hicrinə, ölməzdim ey yar.
Gecələr, ahım odu, qırsa könül şüşəsini.
Gündüzün nur şəfəqini, fəxr ilə, bölməzdim ey yar.
Neyləyim ki yarı mənə, tanrı veribdir, mən üçün.
Bivəfa, yarım üçün, bir kərə, gülməzdim ey yar.
Eşqini doğru sanıb, sevgi yolunda, yanaram.
Bilsəm ki sənsiz ollam , dünyaya gəlməzdim , ey yar.
Ağlaram, sənin üçün, dideyi giryanım axar.
Köksü təşnəsiz edən, çeşməni, silməzdim ey yar.
Tacirə, neçün səni, başa düşən tapılmayır .
Hər kəsin ürəyini, qəlbini, bilməzdim   ey yar .

12.X.2010

***

Gəldi gözlərin önünə, yarımın o, cismi - canı.
Kaş olaydı bu gecə, qəlb evimin, mehmanı.
Unudardım kədəri, sevib, əzizlərdim onu.
Tutardım əllərindən, biz gəzərdik, asimanı.
Sevgilim, bəxş elemiş, eşqi səltənəti mənə.
Bu gözəl mükafata, mən verərəm, dünyanı.
Təbiət, hər canlını, ana kimi bəsləyibdir.
Olarmı, heç bərabər, yer üzünün insanı ?
Ayrılıq ,ölüm çətin dərddi zillətdi cana.
O tutub ürəkləri, yeri,göyü cahanı.
Yarımı, mən taparam, çoxdursa dünyadə gözəl.
Vardır, könlümdə onun, bircə - bircə nişanı.
Bəxtəvər oldu canım, mənki sevdim, allahımı.
Bu sevən könlümündə, demək, vardı bir həyanı.
Gör necə varlıyamki, məhəbbətim, aşıb daşır.
Bir kasıb ömr edirəm, ürək görür, şöhrət şanı.
Tacirə, daima haqq ,düzlük axtarıb, dünyada.
Sevməyib nə günahı, nə nahaqqı, yalanı.

22.VIII.2009

QANAYIR

Bivəfa, çəkmə mənim könlümü darə qanayır.
Eşqi həsrəti çəkib, olubdu yarə qanayır.
Səbri qərarım ola, məhbubu, afətdə gələ.
Görüncə gül yanağı, edəmməz, çarə qanayır.
O qara gözlərinin, şöləsi, yandırdı məni.
Baxma ey afətü-can, baxma, dübarə qanayır.
Vəfasız dünyanıda, sevdik ,sənəmlər kimi biz.
Ürəyim dözməyir ol, bu tərs bazarə, qanayır.
Dünyanın yazılmamış, ömür sürən, qanunu var .
Baxıram ,at oynadan, şər ixtiyarə, qanayır.
Gəzirəm, asudə mən, haqq ədalət yolçusuyam .
Bircə anda yeyəcək, nahaq, naharə qanayır .
Arzularla yaşayıb, ömrü başa, vurmadayam.
Xəyalım, gedir qışa, gahda baharə, qanayır.
Sən demə, bu dünyada, haqqı gəzənlər cox imiş.
Haqqı üçün, dönüb daşa,ürək divarə ,qanayır.
Tacirə, nalə çəkib, ağlasa, kimlər düzələr.
Bir ürək, bir çay olub, dönüb sularə, qanayır.

10.III.2010

DOLAN GƏL

Yarəbbi məni, sən kimi güzarə, gül etdi.
Gül yarpağısan, tər gülü, qönçanə dolan gəl.
Olarmı mənim, başqa, güllüzarlarla meylim.
Səndən aralı, ağlaram, əfqanə dolan gəl.
Axar suların, şövqü-fəraqi, könül açar.
Göz yaşım isə, könlü zimistanə, dolan gəl.
Qalmaz mənə bu, aşiqi sevdada, gözəllik.
Könlümdə yarə, olubdu, mehmanə dolan gəl.
Ey mehri səba, toxunma, könlüm qubar eylər!
Yarım mən üçün, bir gecə, röyanə dolan gəl.
Könlümə sığar, bu qoca dünya, əməlilə.
Sığmaz dəli könlüm, vəfasız, dünyanə dolan gəl.
Sevdikcə səni, könlümü, eşqin əsir etdi.
Saldın məni çox, həsrətü, hicranə dolan gəl.
Tacirə könül, eşqisiz olsa, quru daşdır.
Sevir ürəyin, fəxrilə, şahanə dolan gəl.

27.III.2010

***

Gün çıxar, cümlə cahan, şöleyi nura boyanar.
Qaranlıqlar qaçılar, insanlar, qalxıb oyanar.
Can verər hər canlıya, daima, tanrı mehrilə.
Tanrı verməssə könül, gərdişi dövran dayanar.
Eşqidəndir açılar, hər laləzar, tazə nübar.
Eşq ilə qəm çəkərəm, hər aşiqin, könlü yanar.
Qəlbində qüssə kədər, könlü, viran etmədədir.
Huri qılman olmağa ,eşqilə ,insan inanar.
Hər dövrün, hər zamanın, öz hökmü ,öz qanunu var.
Bunca dövranda bu gün ,öz qəarın, hökm sanar.
Düşsə könlüm fitvaya, qəm yükünü, çəkməkdədir.
Ol səbəbdəndir ki bu, hər yaxşı yamanı qanar.
Aşiqi, çəksən dara, naleyi eşqin söylər.
Sən demə bivəfalar, dar gündə, eşqini danar.
Tacirə, bu gərdişə, çərxi dövrana, mat qalma.
İnsan oğlu bir zaman, hər dövri, zamanı anar.

8.I.2009

GÖZƏL

Təbiət al geyinib ayda gözəl, gündə gözəl.
Gəl mənə ülfət elə, ayda gözəl, gündə gözəl.
Yenə, oynatdı qaşın, sadı məni səhralara.
Görmüşəm, sən kimi afət, vardı hər tayda gözəl.
Bu necə məxluq idi, ruhu canı, vardır onun .
Küllü aləm qocalır, qışda gözəl, yayda gözəl.
Gəl öpüm gözəl səni, çıx sinəm üstə, bəri bax.
Baxışın, şimşək olub, axdı gedən cayda gözəl.
Zalım olma, bu qədər, alma mənim canımı sən.
Əsirin oldum, o gündən, daha nə fayda gözəl.
Bunca, çox könlü qırıqlar da gəlib, məlhəmisən.
Ola bilərmi mənə, növbə çata, sayda gözəl.
Niyə zalımlıq edib, sən susayırsan, qanıma.
Sən, ölüm hökmü veribsən, məndə nə hayda gözəl.
Tacirə, qəlbimi qırdı, mənim o bivəfa yar.
Mən ürək təxtimə qoydum, səni, sarayda gözəl .

4.02.2009

ETMƏ

Varın varikən, bivəfa dünyda, qəm etmə.
Eşq qəmi gözəl, heç vədə, günlərlə qəm etmə.
Tanrı yaradıb, dərdilə sevinc, qoşa gəldi.
Ömr eyləki gül, ağlayıb, gözləri nəm etmə.
Yarın nazını, hər gecə gündüz ,çəkərəm mən.
Sən də naz edib, aşiqə daim, sitəm etmə.
Ömür gödək ikən, bu qoca, fani dünyada .
Gün gör ki yaşa, hər gedən üçün, matəm etmə.
Narazı olub, mən kimi, aşiqi unutma .
Bənövşə kimi, kaş, yaxanız da bitəm etmə.
Solsam çiçəyəm, gün kimi, göydə saçaram mən.
Əsən küləyəm, hər səhər axşam ,ötəm etmə.
Dünya böyük oldu, səni, hər yanda itirsəm.
Təkcə adımı, bir dəfə çəksən, yetəm etmə.
Könlüm sevəcək, aşiqini, sevgili yarım.
Bəlkə çatacam,o vüsala, söhbətəm etmə.
Tacirə, bu söz xirdarına, daha girişmə.
Eşitdim, özüm barədəki , sərvətəm etmə.

29.02.2007

EY YAR

Nə üçün gözlərimi, yolda qoyursan, ey yar.
Yoxsaki eşqimizi, sadə sayırsan, ey yar.
O qara gözlərinin, əsiri, oldum məndə.
Nə səbəbdən məni sən, çox qınayırsan, ey yar.
Sənin ilə bu qoca, dünyada, xoşbəxtəm ki.
Könlümü, eşqi-hicrinlə, talayırsan ey yar.
Boş dünyanın sevinci, əzabdır, yaxın durma.
Bəs ki,bəlai eşqimi, nə sayırsan ey yar.
Xəyalındır gözümün, mehmanı, axşam səhər.
Xəyali eşq içrə məni, sınayırsan ,ey yar.
Eşqin üçün, könlümü, sədparə etdimki mən.
Canı candan almağa, qoymayırsan, ey yar .
Tacirə, bu dünyada, dərdü eşqdir varım.
Bu ləlü - gövhər üçün, ağlayırsan, ey yar.

16.II.2002

QƏRİBƏM

Ağlaram qərib kimi öz otağımda qəribəm.
Pənahım yoxdu mənim, yar yatağında qəribəm.
Mən sevən sevdalı yar, başqa bir əğyarı sevir.
Sevmədiyim yar ilə, qəm otağında qəribəm.
Olsa da gülzarımız çıxim çəmən seyrinə mən.
Gəzmişəm qarış-qarış yar sorağında qəribəm.
Möhnətdən nə vədədir saralıbdır şux camalım.
Baxıram öz özümə, ayna qabağında qəribəm.
Həsrətin dərmanıdır mey gətirin mey içərəm.
Yarımla keçirdiyim, kef damağında qəribəm.
Tacirə, şahzadə tək mən bəzəkliydim o zaman.
Beli qurşaqlı qılınc, xəncər, yarasğında qəribəm.

11.II.1994

AĞLARAM

Mən azad bir quş idim bilməz idim eşq nədir .
Bir baxışınan canımı aldı o zalım, ağlaram.
Süzdürüb qaş gözünü eşqini anlatdı mənə,
Yalvarıb söyləyərəm qadanı alım, ağlaram.
Bu qara bəxtimədə yar yazılıb əzəldən,
Yarıma yetişməsəm bəxti vüsalım ağlaram.
Nə olaydı qönçə kimi yar yaxasından asılam,
Yarımın gül nəfəsin duyub, cəlalım, ağlaram.
Geçə-gündüz həsrətdən şam tək əridi bədənim,
Bədənim tək əridi əqli kamalım, ağlaram.
Mən onun gül üzünün görüşünə getmək üçün,
Baxıram üz -gözümə solub, camalına, ağlaram.
Bəsniyə sevdin məni ey mahitaban gülər üz,
Dilim gəlməz mən sənə deyəm əğyarim ,ağlaram.
Tacirə bir bəladır eşqə mübtəla olmaq,
Əlacım yoxdu mənim sənlə xəyalım, ağlaram.

15.III.1994

BAĞLIDIR

Başım çox ucalıb göylərə dəysə,
Könlüm bir incəlik telə bağlıdır.
Bülbül nalə çəkib göz yaşı töksə,
Bülbülün naləsi gülə bağlıdır.
Gedəni yolundan əyləyən odur,
İki sevən könlü qoylayan odur.
Hər kəsi azdırıb toylayan odur,
Dünyada ünsiyyət dilə bağlıdır.
Yolunu görmədim salam vermədi,
Halını soruşdum məni görmədi,
Dostluğu pozuldu uzun sürmədi,
Dostluqda hörmət də pula bağlıdır.
Qol gücü əqlilə tamlanır həmən,
Ölən kəs doğulur yenə təzədən,
El gücü oynadar dağı yerindən,
Suyun da qüdrəti selə bağlıdır.
Şikayət eyləmə həftədən, aydan,
Qəlbi tutqun olar lal sular çaydan,
Ölməklə azalmaz bir insan saydan,
Hər günün xətası ilə bağlıdır.
Bir qarını doydurarmı min vədə,
Dil danışa, ayaq hər yana gedə,
Dişlərdə ağızda olanı didə,
Ağıza gedəndə ələ bağlıdır.
Nə namusdan, nə ismətdən demə gəl,
Namərdin loxmasın ölsən yemə gəl,
Canlısansa gündə üç yol yemə gəl.
Hər vuran baltalar belə bağlıdır,
Tacirə, bu dünya gəldi-gedərdi,
Demə ki, yaşamaq, ömür hədərdi,
Hər bir insan ömrü yazı qədərdi,
Gələn də, gedən də yelə bağlıdır.

1.X.2012

YARIM

Gizlincə gəlib könlümü şad eylədi yarım.
Eşqilə yanan sevgimi, yad eylədi yarım.
Dünya malını görsə də, gözlər mən usandım.
Öz eşqi ilə şöhrəti - ad eylədi yarım.
Sevdim bu mahalda o gözəl sərv qaməti
Uçdum uca göylərdə, qanad eylədi yarım.
Cismim dadası hər nəki vardır, yenə puçdur.
Eşqilə mənim ağzımı dad eyləir yarım.
Viranə olubdur ahuzardan dəli könlüm.
Gəldi, bu viran könlüm, abad eylədi yarım.
Könlüm alışıb yansada, dünya yenə puçdur.
Hər yanda durub könlü büsat yarım.
Tacirə, bu eşq kamil edibdir sevənləri.
Eşqilə yanıb gör necə dad eylədi yarım.

20.XI.2008

KÖMƏK DUR

Yarım, gəl iman eşqinə bir yarə kömək dur
Çəkdilər məni gör necə sədparə kömək dur
Bir səba yeli, qoy sənə, əhvalımı versin
Göz yaşın ilə, gözləri xumarə, kömək dur
Eşqinlə gəlib, hər nazu qəmzəmi, çəkirkən
Sevdikcə səni, bu ömrü baharə, kömək dur
Bir busə verib, al yanağından, məni xoş et
Sanki dayanıb, əllərim divarə, kəmək dur .
Könlüm, didilib, sındırılıb eşqi yolunda
Çəkmə özünü, heç vədə kənarə, kömək dur
Eşqinlə hər an, dəryada, qəvvas təki üzsəm
Səndə özünü, atginən sularə, kömək dur .
Səni sevirəm, dünyada, ey ləlü-gövhərim
Sən ol, mənim nazlı yarım, məhparə, kömək dur
Tacirə sənə, eşq üçün, əllərin açarmı?
Sən eşq lə gəl, əhdilə, ilqarə, kömək dur

17. I.2008

NƏ FAYDA

Nisgilliyəm, etibarsız dünyada.
Ellər məni xoşbəxt sansa, nə fayda.
Ayrılmışam vətənimdən, elimdən.
Ürək daim bunu ansa, nə fayda.
Zatı xarab olur, qəlbi nadanın.
Əsil nəcabətin dansa, nə fayda.
Əvəldən öyrənib, bilməyən hər kəs.
Sonradan ayılıb qansa, nə fayda.
Əzəldən yanmayan bəxt ulduzlarım.
Sonralar alışıb yansa, nə fayda.
İnsanlıqdır yer üzünün sultanı.
İnsan olmayan kəs xansa, nə fayda.

25. XII.1992

DÜŞƏR

Dilbərim, çox gümanki eşqimiz nöqsanə, düşər.
Səni sevmək havası, aləmdə hər yanə, düşər.
Elə baxma gözəlim, gözlərin yandırdı məni.
Alarsan bu canımı, o gözələrin qanə, düşər.
Saçların tağı mənim könlümü yandırıb, yaxar.
Kipriyinin oxları sancılar bu canə düşər.
İnsaf eylə gözəlim gəl alma bu canımı sən.
Səni gördüyüm gündən bu qollarım yanə düşər.
Eşq odunda yanıram sevdim o gözəl yarı mən.
Fikrim dolaşar hər yanı əqlim hər gumanə düşər.
Saqi mey ver bu gecə könlüm mey içmək istəyir.
Məsti xumar gözlərim zülfi, pərişanə düşər.
Naz ilə qaş-gözilə könlümü ovsunlamısan.
Bu oyun ey mələyim qorxuram röyanə düşər.
Bu zülmlə gözəlim bəs nə xəyal eyləmisən.
Qorxmursanmı yarının qəlbinə bir şanə düşər.
Neçə ildir eşqidə Məcnunu Leylaya tayam.
Bu məcnunluq havası aləmdə adsanə düşər.
Özgə sevənləri heç bir anda görməz gözlərim.
Çünki bu gözlər hər zaman öz mahitabanə düşər .
Tacirə kimkin eşqi avarə sayır dünyada.
O özü eşq oduna dideyi giryanə düşər.

6.III.1993

KÖNLÜMƏ

Sən ey gözəl mələyim, çəkmə divanə könlümə.
Çox çəkmişəm qəmi mən düşübdü şanə könlümə.
Gəzmişəm diyar-diyar el obanın hər yerini.
Yatmayır bunca mənim böylə zəmanə könlümə.
Şeyda bülbül oxusa güllər üçün çəməndə.
Xoş gələr bu nəğmələr mənim güldanə könlümə.
Mən məhəbbət aləminin bir sərgərdan yolçusuyam.
Eşqində qoy kül olum baxma fəğanə könlümə
Ey boyu bəstə gözü şəhla sevgili yar.
Hakim oldun bu geçə, sən bu sultanə könlümə.
Ey mənim şux mələyim mən məhəbbət aşiqiyəm.
Bu məcnunluq peşəsi salıb qımxanə könlümə.
Səndə mən tək eşqidə hər dəm alovlanma gülüm.
Gəlmə bu eşqim üçün hər imtahanə könlümə.
Tacirə, baxma sevgi çətin, bəlasa eşqidə.
Düşər bu eşqin bəlası alışıb yanə könlümə.

9.VII.1993

DÜŞƏN

Bilmirəm heç bu nədir, ser sənət vurğunuyam.
Qiymətsiz olar hər an böylə zəmanaya düşən.
Həyatda hər insanınn müqəddəs bir arzusu var.
Hər zülmə qadir olar bu böyük sevdayə düşən.
Məhəbbət hər insanın ömür - həyat cövhəridir.
Muradına yetişər böylə bir cəfayə düşən.
Ucalarmı hər zaman məhəbbətsiz könlü olan?
Fəxr eliyər həmişə ad sanı dünyaya düşən.
Eşq aləmi necədə bir sehirli aləmmiş.
Bu yolda dərdə düşən, gözləri Leylaya düşən.
Məhəbbət hislərimin ən ülvisi, alisidir.
Dərdinə dərman edər hər zaman cəfaya düşən.
Tacirə, hər bir adam böylə bəlayi eşqidə.
Tapacaqdır özünü, surəti aynaya düşəndə.

16.VIII.1993

KÖNÜL NEYLƏSİN

Nyə məni imtahanə çəkirsən.
Eşqisiz ilhamı könül neyləsin.
Sevği üzərində qurulub cahan.
Sevgisiz insanı könül neyləsin.
Pərişan ürəyi duya bilməsə.
Qəlbi daş xaqanı könül neyləsin.
Dalğalanır dəniz kükrəyir ləpə.
Qarışan dünyanı könül neyləsin.
Həyat çəkdi bu könlümü çarmıxa.
Dəyişən dövranı könül neyləsin.
Düşür ürəyimə aləmin yükü.
Alışıb yananı könül neyləsin.
Tacirə gəl tanı hər bir insanı.
Özünü dananı könül neyləsin.

9.X.1993

OLMAZ

Çəksəmdə sənin dərdini hər an bilən olmaz,
Ağlar gözünə etmə zülüm bir silən olmaz.
Həsrəti şirin olsada eşqə düşən anlar,
Hər kəs ki düşə böylə bəlaya gülən olmaz.
Eşqimdə çanan, tərslik edib yox demə neylim,
Ondan da çətin bağrımı həsrət dələn olmaz.
Sən mehman olub hansı yara sir verəcəksən,
Xəstə canıma dərman olub bir gələn olmaz.
Bəxtiyardır öz aşiqinə həmdəm olan kəs.
Min-min səfalı guşədə hər dincələn olmaz.
Tacirə, söyləməki sevgidə olmaz çətin aşrım.
Bəlkə bu qədər böylə çətin bir bilən olmaz .

10.V.1994

BAXIŞIN

Dilbərim bu canımı salıbdı qanə baxışın.
Baxanda öz yarıma döndərər yanə baxışın.
Sanasan sanki bir ox tuşlanıb könlüm başına.
Vurğunu olar hər kəs belə dürdanə baxışın.
Baxışın mənasını dərk elıyər eşqi qanan.
Sarsıdar aşiqini bunça divanə baxışın.
Yarımın xəyalıdır hər geçə-gündüz xəyalım.
Gəlmərəm mən özümə düşməsə canə baxışın.
Bilirəm aşiqimi , hər kəsə salmaz nəzərin.
Söyləyər sevgisini , mən tək oğlanə baxışın.
Kim deyər fitnədir o sevgili yarın nəzəri.
İsidir bu könlümü o aşiqanə baxışın.
Tacirə, mən bilirəm bu afətlərin dilini .
Baxmasan sevgili yar döndərər yanə baxışın .

26.VI.1994 il

DÜNYADI

Başına döndüyüm ay vətən oğlu,
Çoxda bel bağlama yalan dünyadı.
Haqqaqandal berir nahaqqa qanad,
Əsirdən əsirə qalan dünyadı.
Yaşamaq çün gələn hər bir ihsanı,
Həyat burğanına salan dünyadı.
Insandır göyün yerin əşrəfi ,
İlhamını ondan alan dünyadı.
Gədaya zülmətdı şaha cənnətdi,
Oduna yanana yaman dünyadı.
Keçər qərinələr, ötər çox illər,
Olub keçənləri danan dünyadı.
Tacirə inanma nadan sözünə,
Bu dünya əzəldən yalan dünyadı.

20.IX.1993

EY GÖZƏL

Baxışın qan eylədi könlümü ey qönçə dəhan.
Mənə məftun olalı yox qərarım afətücan.
Etibarın bumudur ey sevdalı nazlı mələk.
Çəməndə güllər üçün bülbüldə çəkər çox fəğan.
Gəl ey nazlı gözəlim aşiqinə bir nəzər et.
Bunca qıymam sənə mən özgə bir əğyari nadan.
Çoxdu cahanda sənin tək nazlı-qəmzəli gözəl.
Olmaz heç biri mənə öz yarım tək məni qanan.
Sənsiz bu çəmən seyrinə çıxmam gözəlim.
Tək səninlə sevinər bu qəmli könlümdə çahan.
Oynatma o qaş gözlərini tez duyar əğyar.
Məstanə bir baxışın kifayət eylər mənə pünhan.
Yarəb yarımın həsrətəm aləmdə üzünə.
Meysiz məzəsiz məst olum onun xəyalından.
Məni divanə edib, halıma güldün gözəlim.
Olmaz sənin tək belə zalım, belə insan .
Tacirə eşqin üçün canımı dustaq etmişəm.
Mən ona bir qul olum o da mənə bir sultan.

31.I.1994

MƏNİ

Oxusun şerimi qoy qəzəlxanlar.
Sənətdə bir naşı sansınlar məni.
Hər sətrimin bir döyünən nəbzi var.
Onu oxusunlar qansınlar məni.
Dünya vəfasızdır biz gəldi-gedər.
İstərəm həmişə ansınlar məni.

7. X .1993

YAVAŞ - YAVAŞ

Qınamadım nə yoldaşı nə yarı.
Olur ömrüm-günüm tən yavaş-yavaş.
Bir dəm sevinmədim, bir dəm gülmədim.
Düşür saçlarıma dən yavaş-yavaş.
Bilmirım nə ümğçün nədəndir məndən.
Qismətim də gəzir gən yavaş-yavaş.
Anam bu dünyada vətənim kimi.
Dərman ol dərdimə sən yavaş-yavaş.

7. X.1993

TƏK

Gözəlim qamətinə gizlicə məftun olalı.
Əhvalım yaxşı deyil dövri zaman tək .
Hicrində hər zaman, şəm tək əridim.
Yandı bağrım pərvanələr yanan tək.
Divanəyəm zülmün nədir ey zalım.
Verdin mənə bu halımı qanan tək.
Tapılmaz heç zaman dilbərim kimi.
Gəzsəndə dünyanı böylə canan tək.
Gözəlim gözlərinin vurğunu tək mən deyiləm.
Etmə gəl eşqimdə məcnun sanan tək.
Zülfünün əsiri olmuşam məndə.
Xəyalım məsd edir səni anan tək.
Sərvi boylu şəhla gözlü gözəlim.
Razı ol yaşayaq biz firavan tək.
Gündə yüz yol razıyam qurbanın olum.
Əmr elə öz quluna xaqan tək.
Tacirə, sənəmlərin eşqi etibatsız olur.
Olmaz bu dünyada səni danan tək.

8. X.1993

NEYLİM

Könlüm əbədi qalmayacaq, dünyada heç nə,
Barı görüşək, bircə kərə, yar ilə neylim.
Gül bağçada, gül bülbülə, bülbül gülə həsrət,
Yandıq gecələr eşq oduna, xar ilə neylim.
Həsrətü çəkib, könlümü qan eyləmişəm mən,
Yarım keçirir günlərin, əğyar ilə neylim.
O sərvi boylu, uca qamətli gözəldən,
Gözlərimə dəymiş bircə cüt nar ilə neylim.
Sevgi oduna min dəfə ölmək nə yamandır,
Böylə vəfasız sevgili dildar ilə neylim.
Oldu günahkar bir baxışı aldı könlümü,
Bunnnan belə mən əhdə kəsilqar ilə neylim.
Tacirə, bu qədər nalə çəkib, eyləmə fəryad,
Eşqim yayılıb hər yana aşkar ilə, neylim.

10.04.1995.

NƏ EDİM

Sevgili yar olalı sönməyir atəş nə edim.
Yaş ötüb baş ağarıb dönməyir atəş nə edim.
Dedim ey gül azad et könlümü artıq qocalıb.
Dedi həsrətdə qalıb ölməyir atəş ne edim.
Görürəm tanrı mənə göstərdi zalım üzünü.
Qəlbimin qəm kədərin bilməyir arəş ne edim.
Tacirə sevgi qəmi çəkmə sənə çətin olar.
Ağlayıb söylədi ki bölməyir atəş nə edim.

15.IV.2009

NƏ EDİM

Qara gözlərin məni ovlayıb atdı nə edim.
Əhdimi, ilqarımı yadlara satdı nə edim.
Könlümü n dərdi səri küllü aləmi oyadar.
Qara bəxdim nə üçün kor olub yatdı nə edim.
Təki mən tənə çəkim sən kmi yarə xoş ola.
Bivəfadır bu yarım odlara atdı nə edm.
Gəzdikcə əğyar lə bir kölgə ollam yoluna.
Bunu da çox görüb o qolumu çatdı nə edim.
Saqi mey ver bu geçə halım pərişandı mənim.
Ayrılıq dərdi məni meydən oyatdı nə edim.
Sənki böylə vəfasız olmaz idin əhli yara.
Kim bizi ayrı salıb könlü qanatdı nə edim.
Tacirə bunca qeyr yarı sevmərəm mən özüm.
Kor olmuş qismətimə ayrılıq çatdı nə edim.

10.III.1995

KİMİYƏM

Bütün aləm sevinir mən qəlbi pünhan kimiyəm.
Dərd əlindən üzülübdü könlüm hicran kimiyəm.
Niyə hicran kədəri təkcə bu könlüm çəkəcək.
Çünki qəmxar evinə bir böyük sultan kimiyəm.
Könlümə doldu yaman tənhalıq zəhmət qoxusu.
Qoymaram zalım olum məndə bir insan kimiyəm.
Çəkmişəm dövrü cəfa düşdüm uğursuz həyata.
Bütün aləm dəyişən min cürə dövran kimiyəm .
İstərəm həmdəm ola könlümə bir kimsə gələ.
Sevinəm məndə deyəm bir könlü rövşan kimiyəm.
Tacirə könlüm o gündən ki , mənim qəmə düşüb.
Yaşasamda dünyada gör necə pünhan kimiyəm.

26.VII.1995

VƏTƏNİM

Torpağına, suyuna,
Borcluyam doğma Vətən.
Azərbaycan deyəndə,
Dağ oynayır yerindən.
Üçrəngli bayrağınla,
Məğrur yaşa Vətənim.
Qəhrəman oğlum, qızım,
Sənlə qoşa Vətənim.
Sinən cəngi meydanı,
Səsin tutub dünyanı.
Qara qızıl məkanı,
Aşıb-daşa Vətənim.
Doxsanbir oktyabr,
Hər il bərq vurub yanır,
Müstəqillik qazanır,
Ellə qoşa Vətənim.
Bayrağın dalğalanır,
Könlüm fərəhlə yanır,
Üfüqlərdən boylanır,
Coşa-coşa Vətənim.
Şam kimi ömürlük yan,
Pərvanə olsun cahan,
Anamın anasısan,
Dəymə daşa Vətənim.
Alaram qisasını,
Namərdin tut yasını,
Geyin toy libasını,
Yaşa-yaşa Vətənim.
Torpağına, suyuna,
Borcluyam doğma Vətən.
Azərbaycan deyəndə,
Dağ oynayır yerindən.

18.X.2012

ARZULARI KİM DANAR

Könül qanı axar gözdən yaş al qana boyanar.
Addım-addım çəksə hicran ürək dözməz dayanar.
Ürək var ki, bir duyğusuz, məhəbbətsiz daş olar.
Ürək də var məhəbbəti eşqi əyləncə sanar.
Ayırmayın gül baxçada bülbülləri gülündən.
Bu həsrətə bu hicrana bülbüllər dözməz yanar.
İsitsədə günəş nuru yer üzünü əzəldən.
Könül evi ayrılıqdan həstətdən yenə donar.
Qarışdırma könülləri uyğun gəlməz heç zaman.
Yansa ürək al yanaqlar göz yaşından islanar.
Hər arzunun, hər istəyin öz gizlincə səsi bar.
Hər kəs onu çox gözləyər bəzən xatırlar, anar.
Tacirə, düşsə istəyim ayaqlara bir zaman.
Can oduna isinməyən arzuları kim danar.

6.IV.2010

DƏRDİMƏ

Dərd ilə qıldım mədəd, dərmanı pünhan dərdimə.
Çün o dərdin dırmanı olmazki nöqsan dərdimə.
Söyləsəm ahu zarım zurvədən qalmaz nişan.
Gör neçə səbəb olub o zalım insan dərdimə.
Görünərsə camalım zülfi pərişan gülər üz .
Kim bilir daxilimi edərlər nöqsan dərdimə.

18.III.200-

YALVARIM

Gözəl səhər-səhər çıxdın qarşıma,
İcazə ver qələm qaşa yalvarım.
Ətrafında sıx düzülüb kirpiyin,
Şəhla gözlər bir tamaşa yalvarım.
Boyun sürahidir gərdanın mina.
Sədəf dişlərindit səf-səf dayana.
Eşqin ürəyimi edib virana,
Şirindir ləblərin qoşa yalvarım.
Kəlağayın örtüb ziyah telini,
Gümüş kəmər incə tutub belini.
Billur sinə ağ biləkli əlini,
Gördüm ürək gələr çüşa yalvarım.
Asta yeri üzür məni məlalın,
Şəmsi qəmər kimi cahi cəlalın.
Zənaxdan üstündə var qara xalın,
Baxışında xoş tamaşa yalvarım.
Tacirə vurğundur əzəldən sənə,
Gözəl çıxıbsanmı qarşıma yenə,
Bu eşqilə məni etdin divanə,
Fələyin qurduğu işə yalvarım.

14.VIII.1999.

DEYİŞMƏ

Dedilər: Sevgili yar qonaq gəlir,
Dedim: Bu gəlişin qurbanıyam mən.
Dedilər: Bu yolda boran qar olar,
Dedim: Elə çovğun nişanıyam mən.
Dedilər: Bu yolda ürək üzülür.
Nə cana qayıdır, nə can qayıdır.
Dedim: Əsil sevgi elə özüdür
Nəsildən nəsilə insan qayıdır.
Dedilər: A zalım nədir xəyalın.
Yoxsa divanəmi oldun bu gecə
Dedim: Məcnunuyam sevgili yarın,
Onu görmək üçün soldum bu gecə.
Dedilər: Unudub əhdi ilqarı
Verdiyi vədəni dandı o dilbər.
Deim: Görüşərik quruca barı.
Bəlkədə eşqimi qandı o dilbər.
Dedilər: Tacirə görüş çətindir.
Həsrətlə məhəbbət qarışan günü
Dedim: Haqq hessabı qiyamətindir.
Halalla haramın yarışan günü.

18.VIII.1999.

YAXŞIDIR

Heç zaman düşünmə dünya sirrini.
Sadə ömr et de ki canım yaxşıdır.
Haqqı məğlub edən nahaq dünyada.
Qəmdən uzaq bir məkanım yaxşıdır.
Dünyanın işlərin böylə ki gördüm.
Gücüm çatan hər gumanım yaxşıdır.
Gəzirəm dövrümü asimanlar içində.
Adı bilinməyən, bir zamanım yaxşıdır .
Dedim ey qardaşlar imana gəlin.
Hər zülümdən din - imanım yaxşıdır .
Heç kəs söyləməzki könlü açıqsa .
Zülmətli gecələr çən dumanım yaxşıdır.
Yaşa könül bu bivəfa dünyada .
Bu dünyadan bədgumanım yaxşıdır.
Tacirə, gəl bu dünyanı tanı sən .
Şər tamaha göz yumanım yaxşıdır .

7.VI.1993

TANINIR

Çalışma nəzərdən salasan məni.
Yaxşı insan rəftarından tanınar.
Dünya çəmənləri öysədə özün.
Gözəl çəmən gülzarında tanınar.
Eşqə vəfalısa iki sevən yar,
Vəfa onun ilqarından tanınar.
Qəlbi gözəl gəzirsənsə dünyada,
Bu gözəlin camalından tanınar.
Alim isə insan sanıb bıldyin.
İnsan onun kamalından tanınar.
Hər kişinin öz namusu qeyrəti,
Onu sevən dildarından tanınar.
Qartal başqa quşdan ucasa əgər
Bu da onun vüqarından tanınar.

26.III.1994

XEYİR VƏ ŞƏR

Xeyirdir ataya-anaya hörmət.
Onlara bəslənən sonsuz mənəbbət.
Xeyirdir zəhmətlə arzuya çatmaq.
O ağır günlərin daşını atmaq.
Əgər inam ilə bağlansa dostluq.
İnsana tuş gələr həmişə bolluq.
Xeyirdir məhəbbət, xeyirdir hörmət.
Lakin xeyir deyil bəslənən nifrət.
Şərin hər bir yolu haqsızlıq olur.
İnam doğruluq bunla boğulur.

4.VI.1990

OLA BİLMƏZ

Mənasız eşqidən, vəfasız yardan.
Sevdalı könlümə yar ola bilməz.
Hərcai danışıb, hərcai gülmə.
Doğru söhbət eldə, ar ola bilməz.
Həyatda hər bir kəs şam tək yanmasa.
Ömür çiçəyində bar ola bilməz.
Bu dərdli ürəyim slğmaz dünyaya.
Ona sığar dünya dar ola blməz.
Tacirə, sızlayıb dərdi danışma.
Saxla xəlvət, aşikar ola bilməz.

31.IV.1994

MƏNİM

İstərəm qoy sorağım çatsın o dilbərə mənim.
Görməyər ay üzünü gözlərim bir kərə mənim.
Nə mənə baxmayır ay, nə ulduzlar əl eləyir.
Nəgöydə yoxdu yerim, nə gümanım yerə mənim.
Haqq üçün al canımı düzlüyə vardır qərarım.
Onunçun darə çəkər, ruhi cismim hərə mənim.
O qara gözlərinin həsrəti aldı canımı.
Bir xəyal dostum olub hər aşırım bərə mənim.
Vurğun oldum o uca tanrını dərk etdim inan.
Könlümü məftun edib, yaratdığı sirə mənim.
Mən sığa bilməyirəm, bu boyda dünyayə gülüm.
İki dünya könlümə möcüzədir girə mənim.
Dəyişib zəmanəmiz yerin göyün əşrəfi pul.
Məətəl qalıb gözlərim əqildə zəncirə mənim.
Bütün aləm sevinir inkişaf eyləyir zaman.
Lakin gözlər kor olub canımda var birə mənim.
Tacirə hər bir anın hər zamanın sonu yetər.
Yumşalar düzdə çökər, dönmüş cismim şirə mənim.

Qoşmalar

OLDUN YENƏ HEYDƏR OLDUN

Milyon-milyon ürəklərdə,
Əbədilik məişəl oldun.
Ölməzliyə doğru getdin,
Öldun yenə Heydər oldun.
Gəzdin bütün bu cahanı
Rusiyanı həm İranı.
Hindistanı, Pakistanı
Ölməz vətənpərvər oldun.
Oldun yenə Heydər oldun.
Qolimuza qüvvət oldun
Dilimizə şərvət oldun.
Elimizə sərvət oldun.
Nə qocaldın, nə də soldun
Öldun yenə Heydər oldun.
Uca tanrım sevdi bizi.
Islam etdi dinimizi.
Səni pay eylədi özü.
Niyə bizdən gedər oldun?
Öldun yenə Heydər oldun.
Sənsiz sevinərmi ürək
Tarixə tək gəldin kömək
Bu dünyanı etdin çiçək.
Başlarda tac sərvər oldun
Öldun yenə Heydər oldun.
Tacirə günahlar edər
On beş dekabırı didər.
Hamı bu dünyadan gedər.
Sənsə ər oğlu ər oldun
Yenə ölməz Heydər oğlu.

VII. 2003

MƏN YOLUNDA ÖLƏRƏM

Yollarına baxıram,
Yorur yollar gözümü.
Sevirəm söyləyirəm,
Eşitmirsən sözümü.
Kaş bircə dəfə gülüm,
Görə bilsəm üzünü.
Özümü xoşbəxt sanıb,
Mən yolunda ölərəm.
Xəyal kimi düşüncə,
Düzülüb incə incə.
Sən insafa gəlincə,
Göz yaşımı silərəm.
Özümü xoşbəxt sanıb,
Mən yolunda ölərəm.
Kaş ağlayım, kaş gülüm,
Səni görüm sevgilim.
Görüm mal olsun dilim,
İncitmişəm bilərəm
Özümü xoşbəxt sanıb,
Mən yolunda ölərəm.
Tacirə həsrət yaman,
Alışıb odlara yan.
Heçnə dəyişməz zaman,
Bir yuxuna gələrəm.
Özümü xoşbəxt sanıb,
Mən yolunda ölərəm.

21.X. 2000

DÜNYA

Bir yandan boşalıb, bir yandan dolan,
Sirli xəzinəli qocaman dünya.
Üstündə min dərdin dərmanı olan,
Açılar sirlərin nə zaman dünya.
Əgər çəkilərsə ərşə yuxumuz,
Səni günahkarmı sanaram dünya.
Tarixdi zamandı bizim qorxumuz,
Onun atəşindən yanaram dünya.
Kimiyə ağır yük kimiyə zindan,
Kiminə bir quru həyatdı dünya.
Kiminin ömrünü bitirmiş zaman,
Kimiyə bir toydu büsatdı dünya.
Ömür yollarında büdrəyib qalan,
Arzusu istəyi qırılıb solan.
Doğma vətənindən didərgin olan,
Insana əzablı həyatdı dünya.
Kimisi varlıdır kimisi kasıb,
Kimisi tanrının gözündən qaçıb.
Kimi zəfərləri zəfərlə açıb,
Kimiyə bir qırıq qanaddı dünya.

10.VII.1992

AĞLAMA XOCALIM, AĞLAMA DAHA

Qaranlıq gecənin bağrını dələn,
Düşmən atəşilə üzbəüz gələn.
Bütün zülümləri gözüylə görən,
Ağlama Xocalım , ağlama daha.
O gözəl Şuşamız əllə satıldı,
Şirin yuxumuza zəhər qatıldı.
Göyçək qız gəlinlər çölə atıldı,
Ağlama Xocalım, ağlama daha.
Görürəm yaralar sızlayır yaman,
Köksün nalə çəkib gözləyir aman.
Niyə qarə çəkdi ömrünə zaman,
Ağlama Xocalım, ağlama daha.
Üstündə bitərdi min cürə nemət,
Əzilən xalqıma yaraşmaz zillət.
Eləbil qucağın olmuşdu cənnət.
Ağlama Xocalım , ağlama daha.
Gözəllik vurğunu olar baxanlar,
Hüsnünə göz dikib su tək axanlar.
Alar cəzasını ölüm yaxanlar,
Ağlama Xocalım, ağlama daha.
Əzilən xalqımın zilləti böyük,
Ömürlük puç oldu, zülməti, böyük.
Yəqin aramızda olubdu dönük,
Ağlama Xocalım, ağlama daha.
Azərbaycanımın gözü səniydin,
O, sazlı söhbətli sözü səniydin.
Tanıdım xalqımı özü səniydin,
Ağlama Xocalım, ağlama daha.

19.IV.1992

VƏTƏNİMƏ VƏTƏNDAŞAM

Xalqın dərdin bilərəmsə,
Azadlığı dilərimsə,
Ədavəti silərəmsə,
Vətənimə vətəndaşam.
Çətinlikdə olsamda mən,
Bir gül kimi solsamda mən,
Bulud təki dolsamda mən,
Vətənimə vətəndaşam.
Itirsəmdə mən gözümü,
Qana boyaram üzümü,
Qurbanda verərəm özümü,
Vətənimə vətəndaşam.
Vətən mənim qeyrətimdi,
Duz çörəyim sərvətimdir.
Namusumdu, niyyətimdi,
Vətənimə vətəndaşam.
Yalvarıram vətən sana,
Alacağam qanı-qana.
Qurban olum bu dünyana,
Vətənimə vətəndaşam.
Bu vətənim Azərimdir,
Ölkələrin gözəlidir.
Bütövlüyü əzəlidir,
Vətənimə vətəndaşam.
Tacirə dözməz dağına,
Diz çökdürərəm yağına.
And içirəm bayrağına
Vətənimə vətəndaşam.

3.XII.1992

ŞƏHİDLƏR

1990-cu ildə Bakıda baş vermiş 20 yanvar hadisəsinin VI il dönümünə həsr edirəm.

O gecə çəkildi gözümdən yuxu,
Uyudu şəhidlər qan göllərində.
O gecə yayıldı kükrüldü qoxu,
Bəd niyyətlər gördüm əməllərində.
Qaranlıq zülmətdə mən aram-aram,
Eşitdim pulemyot qaqqıltısını.
Şaxtalı qış günü qan verdi yaram,
Iyirmi yanvarın tutdum yasını.
O gecə haqlıda haqqını dandı,
Işıqa qərq oldu sonsuz asiman.
Od tutdu insanlar alışdı yandı,
Tarix ağlayacaq buna hər zaman.
Yandı ürəklərdə sonsuz arzular,
Iki sevgilinin məhəbbətidə.
Yandı qoca cavan körpə quzular,
Düşmən beyninin xoş niyyətidə,
Müqəssir kimi oldu kimdi dünyada,
Öləndə gileyli öldürəndə.
Sən ey qoca tarix özün et aşkar,
Bəzən tülkülərdə düşər kəməndə,
Bu qoca dünyanın iztirabları,
Şəhid qanı ilə yuyulacaqdır.
Düşünən beyinlər sönən ürəklər,
Nə vaxtsa bir zaman ayılacaqdır.
Tacirə şahid ol şəhid qanına ,
Bu qan tarixlərə yayılacaqdır.
Onu axıdanın onu tökənin,
Dərd evi dərindən qazılacaqdır.

17.I.1996

QOYMARAM TORPAĞIM TALANSIN MƏNİM

Vətənin ahından olmuşam xəstə,
Ovuda bilməyir, məni bir kəsdə.
Əzrail can verdim, məndən can istə,
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın mənim.
Həmişə ağlaram, dərdli kaman tək,
Yanaram vətənim odda yanan tək.
Bir yolunu azmış, çaşqın zaman tək,
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara calansın məmim.
Neçə fırtına var, hələ yolumda,
Igidlər şəhiddi, sağım-solumda.
Vətən qeyrəti var, mənim qolumda
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın məmim.
Vətənsiz çörək, su, haramdır mənə,
Dərd verən könlümdə, yaramır mənə.
Namusu tapdansın saramdır mənə,
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın məmim.
Baxsa bu, torpağa daşda ağlayar,
Quruyar gözlərdə yaşda ağlayar.
Baharda ağlayar qışda ağlayar,
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın məmim.
Bilmirəm günahkar, kimi edim mən,
Azğın düşmənlərə qardaş dedim mən.
Çörək əvəzinə zəhər yedim mən,

Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın məmim.
Lənət olsun bu torpağa satana,
Millətini alqanına qatana.
Düşmənlərin yalmanına yatana,
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın məmim.
Qaragöz oğlu uqurban dedilər
Kaş ki, mənim görməyəydi gözüm heç,
Ya vətəndən, ya canından ölüb keç,
Vətən candı, can vətəndi, birini seç,
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın məmim.
Kim deyirki, ötəri hiss olacaq,
Çöküb yaddaşlarda möhkəm qalacaq.
Xalqın qisasını millət alacaq.
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın məmim.
Gülyanaq qızları didib yedilər,
Onlar qardaş deyil düşmən idilər.
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın mənim.
Eşid Azərbaycan eşit ey vətən,
Sənindir şəhidlər, sənindir itən.
Keçmişsən bu günsən, xoş gələcəksən
Qoymaram torpağım talansın mənim,
Vətənim odlara qalansın mənim.

4.I.2012

KƏDƏRDƏN KÖVRƏLİB AĞLAYARAM MƏN

Buz bulaqlar qaldı viran bu yerdə,
Bir kimsədən yoxdu aman bu yerdə.
Qara deyib dövran, zaman bu yedə,
Kədərdən kövrəlib ağlayaram mən.

Xalqın ürəyini dərd alıb gedir,
Budur başqa yerdə yurd salıb gedir.
Babaların yurdu boş qalıb gedir,
Kədərdən kövrəlib ağlayaram mən.

Şəhidlərin cərgəsinə baxanda,
Günahsız al-qanlar su tək axanda.
Atəşin şöləsi kölgə çaxanda.
Kədərdən kövrəlib ağlayaram mən.

Düşsə düşmən gülləsinə dözmərəm,
Yaralının naləsinə dözmərəm.
Ana deyən son səsinə dözmərəm,
Kədərdən kövrəlib ağlayaram mən.

Qardaş deyib çağıraram elləri,
Yağır üstümüzə güllə elləri.
Düzüb qəbirlərə qərənfilləri,
Kədərdən kövrəlib ağlayaram mən.

Çağırıram can qardaşımı ürəkdən,
Ürək dostum, sirdaçımı ürəkdən.
Axıdaram göz yaşımı ürəkdən,
Kədərdən kövrəlib ağlayaram mən.

Nəvaxt düzələcək dünyanın sonu,
Təbiət geyindi qərənfil donu.
Gözlərəm xoş günü illər uzunu,
Kədərdən kövrəlib ağlayaram mən.

Vətən sənin dağlarına qurbanam,
Bərəkətli bağlarına qurbanam.
O gözəllik çağlarına qurbanam,
Kədərdən kövrəlib ağlayaram mən.

10.XII.2011

ÖMÜR UCUZ OLAR, MƏNASIZLAŞAR

Bu fani dünyada kəsəndə baxdım,
Külək hər tərəfə əsəndə baxdım.
Məndən gen dolanıb küsəndə baxdım,
Ömür yüz olar, mənasızlaşar.
Ölüm varsa qaşla göz arasında,
Fərq yoxsa əyriyıə düz arasında.
Hər kəski, solarsa söz arasında,
Ömür yüz olar, mənasızlaşar.
Nə qədərki, həyat olsa oyuncaq,
Nə qədərki, dünya belə qalacaq,
Nə qədərki, insan qisas alacaq,
Ömür yüz olar, mənasızlaşar.
Əgər qalsa həyatımın bir anı,
Onu verrəm düzəlməyə dünyanı.
İnsan azıb dəstəkləsə yalanı
Ömür yüz olar, mənasızlaşar.

9.X.2011

KİMİ

Bu könlüm həmişə qan olar mənim,
Lalənin bağrına nişanə kimi,
Al-qana bulansa çölüm-çəmənim,
Dağılar ürəyim viranə kimi.
Göylərə səs salıb qardaş davası,
Çıxıb ürəklərdən dostluğ sevdası.
Azəri xalqımın belə dünyası,
Çəkəcək de hansı dövranə kimi.
Günahkar eylədim ili, ayıda,
Payızı, qışıda, yazı, yayıda.
Başı qarlı dağı, axan çayıda,
Zəmanə görmədim, zəmanə.
Haqsız ölümlıri, haqsız davanı,
Dağılan evləri, uçan yuvanı.
Kökündən dəyişən belə dövranı,
Görüb xalqım olar, divanə kimi.
Tacirə qorxarmı hər yad sözündən,
Hər vaxt kin tökülər namərd gözündən.
Eşitsin düşmənim, getsin özündən,
Sözümü deyerəm mərdanə kimi.

16.X.2011

AĞLARAM

Həsrət qaldım bir alagöz dilbərə
Kəsildi taqətim naçar ağlaram
Tor qurmuşam tülək tərlan tutmağa
Hürgüdərlər ovum qaçar ağlaram.
Mənim yarım bənzəməyir heç kəsə,
Günəş kimi şölə saçar ağlaram.
Bu dərdə neyləsin loğmanın əli
Olmuşam bir dərdə düçar ağlaram
Məcnun kimi oldum, Leyli həvəsli,
Könlümün yuvası uçar, ağlaram.

MƏNİM OLA

Dünya boyda qəlb ovutdum,
Qırılmaya mənin ola.
Uçdum eşqin küləyində,
Taya-taya mənim ola.
Dağ-dərələr nərgizli çol.
Ayna bulaq sonalı göl.
Nəğmə deyən bülbüllə-gül,
Bu dünyaya mənim ola.
Iki gəncin xoş ülfəti,
Sevgi dolu məhəbbəti.
Bir-birinə sədaqəti,
Gəlməz saya mənim ola.
Qardaşdı sevinclə kədər,
Vermə ömrü yelə hədər.
Tacirə yaranan gedər,
Günə-aya mənim ola.

31.XII.1998

OLMAYAR

Baxışlar söz tutub danışan zaman,
Dilin danışmağa sözü olmayar.
Qəlbə hakim kəsiləndə məhəbbət,
Kor olar aşiqin gözü olmayar.
Etibarlı olsan yanar məhəbbət,
Vəfasızlıq görüb donar məhəbbət.
Pultək alıb satsan sınar məhəbbət,
Birdə qayıtmağa üzü olmayar.
Qorxutmaz eşqimi nə boran, nə qış,
Ona təsir etməz nə qar, nə yağış.
Qonar ürəklərə o bircə baxış,
Elə çıxıb gedər üzü olmayar.
Tacirə eşqimdə yanılmısan mən,
Məhəbbət kiminə dost, kiminə düşmən.
Göz yaşı içində üzümə gülən,
Könlümdə yaşayar özü olmayar.

8.XII.1997

MƏN GÜNAHKAR DEYİLƏM

Həyatından küsürsən,
Mən günahkar deyiləm.
Dostluğunu üzürsən,
Mən günahkar deyiləm.
Barışdıq keçən gecə,
Bəs küsürsən indicə.
Günah tapırsan necə?
Mən günahkar deyiləm.
Bir işin olsa əgər,
Sevinərsən əlbə əl.
Bu kor bəxtim mürgülər,
Mən günahkar deyiləm.
Tacirə sevir səni,
Anan qısqanır məni.
Günahkar qismətimi,
Mən günahkar deyiləm.

15.IV. 1999.

MƏN SƏNİ SEVİRƏM DÜNYALAR QƏDƏR

Mən səni sevirəm, dünyalar qədər,
Bəlkə dünyan səni sevməz mən kimi.
Mən səni sevirəm, dünyalar qədər,
Sənsən, ürəyimin yalqız hakimi.
Unutmaq asanmı bəs necə dözüm?
Məni yalqız qoyma amandı gülüm.
İstəsən eşqimi kəs dilim-dilim,
İstəsən atarsan kədəri qəmi,
Sənsən, ürəyimin yalqız hakimi.
Necə oğurlayım səndən eşqimi,
Bu sevgi, bu hicran bir vüsal dəmi.
Ayrılıq əlində könlüm təşnəmi,
Didib tapdalayır həsrət sinəmi,
Sənsən, ürəyimin yalqız hakimi.
Tacirə dərdilə vurular naxış,
Sevinərrmi könül bahar olsa qış?
Ürək yenə sevir artıq qocalmış,
Sevirəm sevgilim, sənlə sevgimi,
Sənsən, ürəyimin yalqız hakimi.

25.V.1999

KİMİNƏ

Çərxi fələk necə canlar yaratdın,
Dərdi qəmi paylamısan kiminə.
Kimisinə qədər verib yaşatdın,
Kimisini möhtac etdin kiminə.
Nə zalıma nə fəqirə baxmadın,
Qaniçəni bir yandırıb, yaxmadın.
Qisasını qiyamətə saxladın,
Toy tutarsan ölüb getcə kiminə.
Sanlı günü, sanlı ayı, yaratdın.
Əsən yeli, axan çayı yaratdın.
Gecə-gündüz iki tayı yaratdın,
Qüdrətindən pay verərsən kiminə.
Tacirəni, salma nəzərdən barı,
Pozma sənlə dostluğunu ilqarı.
Bu dünyadan çox gileyli olalı,
Ona etmə etdiyini kiminə.

13.VII.1999.

NECƏDİR

Bir ürəkdə qüssə kədər sevinc var,
Bu ürəyin şah damarı necədir?
Necə dözsün sitəmlərə dərdlərə,
Can verici tacidarı neçədir?
Yoldaş oldun əyriyədə düzədə.
Rast gəlmişəm hər misildə sözədə.
Geyim kimi dil görmüşəm bəzədə,
Hər bir kəsin öz rəftarı neçədir?
Ay başıma, gün başıma dolanar,
Ömür keçər, gözlərimiz sulanar.
Əməlimiz üst-üstünə qalanar,
Axır gündə son bazarı neçədir?
Tanrı verib, camalına gözəllik.
Olmayasan təbiətilə şərik.
Vaxt gələcək bu dünyadan köçərik,
Kimin daim gülüzarı neçədir?
Tacirə, çox sınayıbdı bəxtini,
Namərd tutmaz axıracan taxtını.
Hər kəsə bəllidir qiyamət günü,
Tanrı verib öz qərarı neçədir?

BİLEYDİM

Məndən irəlidə bir karvan gedir,
O gedən karvana çata bileydim.
Işıqlı günlərim çoxalsın deyə,
Gecəni gündüzə qata bileydim.
Çərxi dəyişibdi dövrü zamanın,
Içir al qanını insan insanın.
Döyüşə girməyə mən bu dünyanın,
Qaçan köhlənini tuta bileydim.
Vətəndən ayrıca yanar bu ürək,
Intiqam hissiylə yaşayım gərək.
Sakit yaşayınca qürbətdə xan tək,
Vətəndə haraya çata bileydim.
İlhamım atını çapsın hər yana,
Sözlərim məlhəm tək yayılsın cana.
Sözün qiymətini verə zəmanə,
Sözü sərrafına "sata" bileydim.
Vətən dönə-dönə batdı al qana,
Insan qala bilməz buna biganə,
Etdi günahkarlar xalqı viranə,
Niyə sovuşmadı xata bileydim.

8.XII.2011

VƏZİFƏ

Səfalı ömürdü, səfasız olmaz,
Gəlişi -gedişi cəfasız olmaz.
Min bir oyunu var, havasız olmaz,
Yayılar yağ kimi cana vəzifə.
Yeriyəni göydə uçan, quş eylər,
Canlını döndərib dilsiz daş eylər.
Istəsə dolunu töküb boş eylər,
Qismət olmaz hər insana vəzifə.
Vardı neçə partiyalı dövlətim,
Aramızda qalıb malım sərvətim.
Pozulub ilqarım, düşüb ülfətim,
Qol qanaddı ada sana vəzifə.
Ağac dəyər aramızda millətə,
Ömrümüz donubdur dərdə zillətə.
Ümüdümüz qalır bircə dövlətə,
Heyif girir dondan dona vəzifə.
Yenə fırlanacaq dünya təkəri,
Dəyişməz səmtini Araz, Həkəri.
Olduq bir vaxt ağaların nökəri,
Yenə keçib "bəyə", "xana" vəzifə.

2.XIX.2011

ALIŞDI

Yar qadasın ürəyimə salıbdır,
Dözdü dil dodağım könlüm alışdı.
Bu dərdə neyləsin loğmanın əli,
Gülzarda bülbülsüz gülüm alışdı.
Dedim gözəl dayan qadanı alım.
Dedi söhbət üçün sənlə yox halım.
Dedim mail etdin mını a zalım.
Yandı ağzımdakı dilim alışdı.
Gülgəz bədən abı-xara yaraşır,
Ağ buxaya xallar qara yaraşır.
Süzgün gözlər xoş camala yaraşır.
Istədim oxşayam əlim alışdı.
Zülfü qoşa tökülübdü gərdana,
Cığasını ayırıbdı hər yana
Verilib gözəllik haqdan bu cana.
Baxışdan üst-başım, telim alışdı.
Tacirə görübdür nabatı balı,
Eşqindən ölübdür, başı havalı,
Onu heyran etdi yarın camalı,
Kəsildi taqətim belim alışdı.

15.VII.1999

GÖZƏL

Göydən gəlib, behişit qızı,
Gözəllərin tayına bax.
Bizim elin sonasıdır,dəstəsi var sayğına bax.
Bir can alan gözləri var,
Göz üstündə yayına bax
Gözəlsən gül iman eylə, al
Al əlinə ayına, bax.
Gülə-gülə gəlsən bizə, bir gecə mehmanə gözəl.
Zənbur kimi karvan çəkib,
Zülfüdür qapqarə gözəl.
Vurğunam şirin dilinə,
Dərd veribsən yarə gözəl.
Səni görən gündən bəri,
Olmuşam avərə gözəl.
Gözüm düşdü dəhanında,
Tazə-tazə narə gözəl.
Şirin baldan mey ver mənə,
Aşıq gəlsin canə gözəl
Sevda qəmi bağrım dələr.
Dəyişmə əğyarə məni.
Yar bağında bir bülbüləm
Niyə satdın xarə məni.
Dirilim yar qucağında,
Öldürsün dübarə məni.
Bu dərdin yoxdur dərmanı,
Tapmayacaq çarə məni.
Al bağrımı kabab eylə,
Qoy olsun nişanə gözəl.
Qəddi qamət mina gərdan,

Gətiribdi dilə məni..
Baxışların tülək tərlan,
Saldı əldən-ələ məni.
Məcnun oldum eşq əlindən
Gülün ömrü gödək olar,
Bənzədibdi gülə məni.
Tanrı verib məhəbbəti,
Xoş sözü insanə gözəl.
Tacirə də tərif yazar,
Siz tək sonatar cəminə.
Qurban edərəm canımı,
Sizi verən kərəminə,
Süz əlində badə gətir
Dəm ver aşiqlik dilinə.
Çal könlümün çal sazını,
Toxunma sarı siminə,
Ovudaq məcmis əhtini,
Danışaq dastanə gözəl.

12.VIII.1999

İKİMİZİN ARAMIZDA

Ülvi hiss var bir incəlik,
Ikimizin aramızda.
Sevgi yolunda ölərik,
Ikimizin aramızda.
Nə sən danış nədəki mən,
Eşqim sonsuz yerim çəmən,
Bitsin nərgizlə yasəmən,
İkimizin aramızda.
Neynirəm dövləti varı,
Səni verib mənə tanrı.
Bir dəfə gəl görüm barı,
Ikimizin aramızda.
Tacirə dərd dərman olar.
Açılan gül tezcə solar.
Bu eşqimiz gizli qalar
Ikimizin aramızda.

18.II.2002

YAŞA DÜNYADA

Fırlanıb yaşayır yaşadır dünya,
Sükut ölümdürmü sükut daşdımı.
Deyəsən ağlayır vüqarlı qaya,
Onun gözlərindən axan yaşdımı.
Bəzən bir insanlıq pərdəsi altda,
Iblisin şeytanın min oyunu var.
Qananlar alışıb yanar dünyada,
Qanmazlar milçəktək taca qonanlar.
Milyonlarla aylı ulduzlu səma,
Şüur dınizinin çimir gölündə,
Sən də, bir dərya ol dərin ol amma,
Sinəgər fırtına tufan gələndə
Bilmirəm nə üçün nədəndir ancaq,
Yaxşılar tez köçüb gedir dünyadan.
Bütün ömrü boyu çatsada ocaq,
Gedəndə buz olub ayrılır ondan.
Tacirə yaşama kədərli qəmli,
Dünya etibarsız insan köçəndi.
Gələndə, gedəndə, gözləri nəmli,
Bu qoca kainat daima şəndi.

24.III.1998.

YEDDİDİR

O nədirki yeddi qatdan yarandı,
Üzündə düzülüb saçı yeddidir.
Yeddi gecə yeddi gündüz həftədir,
Al günəşin ağ şüası yeddidir.
Yerdə göydə yeddi qatdan düzülüb,
Yeddi sınaq saydır göydən süzülüb.
Sədəfli saz yeddi kökdən üzülüb,
Yeddi gözəl yaraşığı yeddidir.
Insana ruh verən can verən təkdir,
Allah qarşısında yeddi mələkdi.
Elm üçün yeddi kitab köməkdir,
Hər kəlmənin dolaşığı yeddidir.
Tacirə çox görüb yeddi ulduz ay,
Yeddi otaq yeddi qardaş bir saray.
Dörd pəridə yellənəndə kəlağay,
Hər örtəyin son işığı yeddidi.

20.II.2001

KƏNARDAN - KƏNARDAN

Aylar illər bir tamaşa,
Baxdım kənardan-kənardan.
Nə gözəldir ömür, yaşa,
Baxdım kənardan-kənardan.
Ülfət edib gecə-gündüz,
Barışmayar əyriylə düz.
Dərd veribdi haqsız bir söz,
Yaxdım kənardan-kənardan.
Bel bağladım namərdlərə,
Ömür verdim əsən yelə.
Bir çayamkı çatdın selə,
Axdım kənardan-kənarə.
Tacirə qəm yuvasıdır,
Könlü cənnət havasıdır,
Bir məhəbbət sevdasıdır,
Çaxdım kənardan-kənardan.

30.VII.1999.

CAVANLIĞIM

Niyə məndən ayrı düşdün,
Üzü gülər cavanlığım.
Yaş artıqca xəyalımdan,
Gəlib gedər cavanlığım.
Mən atlıyam sən piyada,
Keçən günü salma yada.
Bir də olarsan dünyada,
Qalmaz kədər cavanlığım.
Bala-bala, qıyma - qıyma,
Ömür gedir ondan doyma.
Bir dərd vardı sinəm doyma,
Yazı qədər cavanlığım.
Dünya gözəl bir tamaşa,
Kədər sevincilə qoşa.
Hər bir insan dolsa yaşa,
Cana sinər cavanlığım.
Bel bükülüb diz əsəndə,
Sözün arxasın kəsəndə.
Tez-tez hamıdan küsəndə.
Qanlar edər cavanlığım.
Tacirə yaş gilləlendi,
Ömür xəlbir tək əsəndi.
Hər bir şey gəlib gedəndi,
Ruhi sidər cavanlğım.

31.V.2011

OLSUN

Gözəl sənlə, səhər axşam görüşək,
Küzə al çiyninə bulaq ad olsun.
Gəzək təbiətin güllü qoynunu,
Ceyranlı cüyürlü yaşıl ad olsun.
Xoşdur ana yurdun gülü çiçəyi,
Bahar fəsli nərgiz lalə ləçəyi.
Sənin məhəbbətin səhər küləyi,
Əsəndə könülə, gözə ad olsun.
Qohum gördüm ülfətindən qaçaram,
Yad görmüşəm ürəyimi açaram.
Qürbət eldə bir dərmansız naçaram,
Vətənim, ağızda, dildə dad olsun.
Tacirə dolanar, gözəl, başına,
Mina gərdanına qələm qaşına.
Bimürvət, biinsaf baxmaz yaşına,
Istər qohum olsun istər yad olsun.

14.II.1999.

ETİBARSIZ GƏZƏRSƏNMİ

Gülüm məndən inciyirsən,
Ayrılığa dözərsənmi?
Günahım çoxdur deyirsən,
Tapanmıram gəzərsənmi?
Bir bülbüləm çəmənzarda,
Hey ötürəm ilk baharda.
Bənövşəyəm yerim darda,
Əl uzadıb üzərsənmi?
Nə yamandır hicran odu,
Taleyin qisməti budu.
Namərddə aranı vurdu,
Ömrü dərdlə bəzərsənmi.
Tacirə dözməz bu dağa,
Adət edib ağlamağa.
Ürəyimi dağlamağa
Etibarsız gəzərsənmi?

8.IV.1999

BİLMƏZ

Yüz namərd yığıla haqqın yolunu,
Baltalaya bilməz heç kəsə bilməz.
Rüzgarın küləyi əsirsə əgər,
Xahişlə minnətlə o əsə bilməz.
Ağlayan ağlayar sevinən gülər,
Payı ölüm olan yıxılıb ölər.
Hamı hesab günü hesabın bilər.
Hər kəs nə inciməz nə küsə bilməz.
Həyat kimə acı kimə şirindir.
Kiminə sadədir kimə dərindir.
Kimə yanan təndir , kimə sərindir.
Girərmi kim- kimlə heç bəsə bilməz.
Bu dünyaya dəyməz gözünün yaşı
Tanrımız alimdir bəndələr naşı
Bu torpaq yemişdir gör neçə başı
Hər şeydən qarışar səs - səsə bilməz.

2. II. 2009-cu il

***

Bir yaşı sevmişən on dörd yaşında,
Qələmi əlində əqli başlnda.
Bu nə möcüzədir ax bu yaşında,
Ömür qocalığa gedir çata-çat,
Sevəndə mat qalıb, seviləndə mat.
Dünyanın işləri tərsə fırlana,
Cavanlıq günlərim durub dayana.
Mənim yatmış bəxtim onda oyana,
Qurula hər yanda bir toylu büsat.
Sevəndə mat qalıb seviləndə mat.
Tanrının işləri bilinməz hər an.
Qocanı bir anda eyləyər cavan.
Nəyə qadir olub, bilməyir insan
Bir "ol" hökmü ilə yaranıb həyat
Sevəndə mat qalıb seviləndə mat.
Nədir ürəyimi sıxan intizar.
Məni rahat qoymur açılan bazar.
Dünyanın əzəldən qanunları var.
Eşqinə uçuram, taxıb qol qanad.
Sevəndə mat qalıb seviləndə mat.
Ömür fani insan gəldi gedərdi
Haqq yoluna gəlcən demə hədərdir.
Həyatımız başdan yazı qədərdir.
Zamana baxıram bir sirli satım.
Sevəndə mat qalıb seviləndə mat.

Dünya eşq üstündə bərqarar oldu.
Bu dünya boşaldı, bu dünya doldu.
Ömür yollarıda çox çətin yordu.
Çaır mənzilinə dörd namı hər at
Sevəndə mat qalıb sevilləndə mat.
Necəki fürsətdir vur ömür başa
Baxma gözlərindən tökülən yaşa
Bil ki dönəciyik bir zaman daşa
Sevgidən parladı gözümdə həyat
Sevəndə mat qalıb sevilləndə mat.
Tacirə həm qalxıb endim həyatda.
Eşqimin oduna sindim həyatda
Bir ovuc torpağa döndüm həyatda.
Son gündə tanrıdan istədim imdad.
Sevəndə mat qalıb sevilləndə mat.

10.VIII.2001

GÜNAH ONUN ÖZÜNDƏDİR

Kimki ömürü versə bada,
Gün görməsə bu dünyada.
Doğmasını satsa yada
Günah onun özündədir.
Duyammasa kef damağı.
Olmasa canının sağı
Ən xoş günü olsa acı
Günah onun özündədir.
Aldanarsa şirin dilə
Tez uyarsa fitnə-felə
Gəncliyini versə yelə
Günah onun özündədir.
Çoxu baxıb pəncərəyə
Ömrü salsa dağ dərəyə
Dönsə həyat xatirəyə
Günah onun özündədir.
Düz qurmasa həyatını
Sirrin açmasa qatını
Hər kəs unutsa zatını
Günah onun özündədir.
Fikirləri düz olmasa
Ömür artıb yüz olmasa
Düz görməyə göz olmasa
Günah onun özündədir.

Min nemətdən dadammasa
Ölçüb addım atammasa
Bu dünyada udammasa
Günah onun özündədir.
Tez minsə ölüm atına
Çatmasa kef busatına
Qəsd eyləsə həyatına
Günah onun özündədir.
Tacirə tutmuş yükünü
Düşün hər an ömürü günü
Seçsə bəxdin dönügünü
Günah onun özündədir.

21.II.-96.

DOSTLUQ

Dostluq bər bəzəkdə geyimdə deyil,
O zərli paltarda əynində deyil.
Dostluq ürəklərin nazik telidir.
Qırılsa yox olar səhər yelidir.
Dostluqla açılır hər çətin düyün.
Məhəbbət körpüsü yaranar bir gün.
Dostluq olmasaydı dünyada əgər.
Dağda gül bitməzdi bağda laləzar.
Dostluqdu xalqları qardaş eyləyən,
Oğlanla qızları sirdaş eyləyən,
O ülvi məhəbbət yaranır ondan,
Məhəbbət uzaqdır min cürə dondan.
Onun ülviliyi elə özüdür
Çirklənsə bulanar çeşmə gölüdür.

15.IV.1992

BƏNÖVŞƏ

Niyə məlul-məlul mənə baxırsan,
Qaralıb ömrümün bəxdin bənövşə.
Səndəmi qəlbimi oda yaxırsan?
Çevrirlib könlümün təxti bənövşə.
Sıxılır ürəyim, dözmür qamətim,
Artır günü-gündən dərdim zillətim.
Hər sözü dərd etmək olur adətim,
Töküldü al qanım axdı bənövşə
Ömür karvanından keçə bilmədim,
Yaxşını yamandan seçə bilmədim.
Eşqin badəsini içə bilmədim,
Bu zülmdə mənə haxdı bənövşə.
Bir quş tək dünyada gəzmək istədim,
Bütün zülmlərə dözmək istədim.
Dərib saçlarıma düzmək istədim,
Könlümü yandırıb yaxxdı bənövşə.
Mənim vətənimin çoxdu sərvəti,
Yayılıb hər yana şanı, şöhrəti.
Yaz gəldi, qurtardı ömrün möhləti,
Baxdımki, heç yanda yoxdu bənövşə.

3.XIX.2011

YOLLAR

Bir şirin amalın nurlu səhərin,
Qaranlıq zülmətin özüdü yollar.
Bir insan ömrünün şirin xəyalı,
Bir yaşayan anın gözüdü yollar.
Bəzən çox hamardır, bəzən dolanbaç,
Bəzəndə dillərin sözüdü yollar.
Kimini çox dərin xəyala salar,
Kiminə torpağın üzüdü yollar.
Könül demə bivəfadı bu dünya,
Hər kəsin qoyduğu izidi yollar.
Nə gözəl xəlq edib yaradan bizi,
Beyin zəkasının üzdüyü yollar.
Tacirə hər zaman görür yolları.
Kimsənin bəxtinin düzüydü yollar.

27.XII.1996.

GEDƏR

Ədəbdən ərkandan payın olmasa,
Ömür mənasızlar zay olub gedər.
Bir gözün ağlasa, bir gözün gülsə
Həyatın bir quru hay olub gedər.
Namərdin naqisin zatı olmayar.
Ömür pillə-pillə qatı olmayar.
Könül sındıralar çatı olmayar.
Yaxşı pislə gəzsə tay olub gedər.
Fikirlər çılpaqdır, sözlər köynəyi
Ruh bədənin, bədən ruhun köməyi.
Söz ağızdan çıxsa yarar küləyi
Bir daha qayıtmaz, yay olub gedər.
Gərək insan baş binədən yarıya.
Məlhəm olmaz üst-üstündən yarıya.
Necə bölüm bir ürəyi yarıya.
Bölünsə hər bir can, bay olub gedər.
Tacira daşdandır dünyanın varı,
Dərdimin bir olur qışı baharı.
Hər yaranan gedir ölümə sarı.
Etiraz səsləri çay olub gedər.

10.II.2000

NƏ FAYDA

Əqlinin gözünə ziyan dəyməsin,
Kəllə gözlərindən elə nə fayda.
Bülbül nalə etsə çiçəklər üstə,
Sevgisi yoxdursa gülə nə fayda.
Əqlilə ürəklər birsə dünyada.
Danışan dodağa dilə nə fayda
Nə qədər doğrular danışsa ağız,
Pisliyə öyrənmiş ələ nə fayda.
Tanrının iznilə əssədə külək,
Min dəfə yalvarsan yelə nə fayda.
Sapı özümüzdən olan baltalar,
Kəsərdən həm düşə ölə nə fayda.
Qisməti qardaşdan gizlədib yeyən,
Məşər ayağında bölə nə fayda.
Əgər ağlayırsa sinəmdə ürək,
Axan göz yaşını silə nə fayda.
Qocalıq haqlsa qaməti bir gün,
Cavanam desəndə belə nə fayda.
Tacirə həmişə sadəlik istər,
Sən onu qaldırsan zilə nə fayda.

31.I.2011

EYLƏYƏRMİŞ

Bir bədəndə iki canı görmüşəm,
Ikiyə bir ürək bəs eyləyərmiş.
Tanrı yaradışı qoşa yaradıb,
Ölümlə qalımı dəs eyləyərmiş.
Ürəyim qocadır fikirlər uşaq,
Hər kəs yaşamaq üçün gəlibdir qonaq.
Bu dünya fanidir həmdəki sınaq,
Insan mələk deyil nəs eyləyərmiş.
Gün isidir yerin yeddi qatını,
Ömür qamçılayıb çapır atını.
Gətirir hər zaman öz həyatını,
Gələndə gedəndə səs eyləyərmiş.
Ağızlar dikilib dillər lal olub,
Sözlər dəyişilib şəkər bal olub.
Haqsız cövlan çəkib neçə hal olub,
Doğru danışanı kəs eyləyərmiş.
Dünya evcik imiş, bizsə oyuncaq,
Necəki haqsızlıq rüşvət qalacaq,
Nə olmalı imiş o da qalacaq,
Aslanlar tülküyə məs eyləyərmiş.
Tacirə kamillə cahil yoldadır,
Gecəsi gündüzü qalmaqaldadır.
Insanlar duymayır gör haldadır.
Qanmazlar zülmətdə fəs eyləyərmiş.

12.III.2009

BİZİ

Sənə dərman olan mənə dərd olar,
Ayrı -ayrı doğub ananlar bizi.
Insan həmi namərd həm də mərd olar,
Adətdi atarlar sonalar bizi.
Ömür əmanətdir həyat çilçıraq,
Gəlmişik dünyanı görməyə qonaq.
O nədir gələndə gedəndə uşaq?
Nə vaxtlar üçayaq sanarlar bizi?
Namus qeyrət mod içində itibdir,
Moddu deyə gültək qanqal bitibdir.
Indi qayıdışın dövrü yetibdir,
Inkişafdı deyib danarlar bizi.
Tacirə qoy yazsın güldən çiçəkdən,
Süsəndən sünbüldən ağ kəpənəkdən.
Don var əncir yarpaq, papq ləlkdən
Arıqlıq mod olub, yonarlar bizi.

5.III.2009

AĞLARAM

Bir ana həsrəti üzdü qəlbimi,
Özgələr yaladı, süzdü qəlbimi.
Açdım hər bir kəsə düzdü qəlbimi,
Sonradan peşman olub ağlaram.
Dünya tək vəfası olar tər sinə,
Namərd eyni olar, düzü tərsinə,
Nəyə əl uzatdım döndü tərsinə
Göylərdə bulud tək, dolub ağlaram.
Zəmanə xarabdır, ömürlər gödək,
Hər dünyaya gələn olarmı mələk.
Sevdim çəmənzarda bir tənha çiçək,
O da vaxt vədəsi solub ağlayaram.
Istərəm hər səhər günəş boylana,
Hər yan gül çiçəyə ətrə boyana.
Mənim yatmış bəxtim bəlkə oyana,
Heyf ki, saçlarım yolub ağlaram.
Tacirə dünyanın sirləri vardır,
Sığışa bilmirim bu dünya dardır.
Çox şeyi bilməzləzlər nə bəxtiyardır.
Mən də bu dünyanı yorub ağlaram.

1.XI. 2008

EYLƏYİBSƏN

Ey Tanrım nədir bu gərdişi dövran?
Alimi nadana qul eyləyibsən.
Var dövlətli aslan olub dünyada,
Kasıbı-fəqiri çul eyləyibsən.
Necə hikmət vardı sənin əlində,
Məlhəmdir, dərmandır şirin dilində.
Çox beyinlər itib batar sirində,
Hər dərdə cəfaya yol eyləyibsən.
Ayı günü yaratmısan yer üçün,
Gecə gündüz həm təbiət sirr üçün.
Insana da ülfət verin bir üçün,
Dünyada neməti bol eyləyibsən.
Məhəbbəti yaratmısan ürəkdə,
Güc qüvvəti xəlq eylədin biləkdə.
Insana vermisın vicdan kələkdə,
Lalənin bağında xal eyləyibsən.
Nədir bu təlatum, nədir bu dəhşət,
Bir tikə üstündə olur xəyanət.
Qardaşı qardaşdan ayırır sərvət,
Tamahı insanda bol eyləyibsən.
Bu hikməti Tacirə də dərk edər,
Hamı sərvət üçün, var üçün gedər.
Düzlük doğruçuluq aradan itər,
Dünya hökmranı pul eyləyibsən.

12.IV.2003

DARIXIRAM SEVGİLİM

Könlüm yanır gizlicə,
Eşqinə dözmür necə?
Sən qayıdıb gəlincə,
Darıxıram sevgilim.
Ya da düşər sözlərin
Canım alan gözlərim
Nə gec gəlir günlərin
Darıxıram sevgilim.
Mənim günəşim ayım,
Ay mənim şirin payım.
Sən gedibsən neynəyim,
Darıxıram sevgilim.
Tacirə unutmayar,
Gecə-gündüz ağlayar.
İli ayı qınayar,
Darıxıram sevgilim.
Darıxıram sevgilim.

23.X.2001

DAĞI-DAĞI

Azəri vətənim darda qalanda,
Çağırdım köməyə ay dağı dağı.
Erməni quldurlar əlbir oldular,
Çəkdilər sinəmə ay dağı dağı.
Mənim vətənimin çoxdur sərvəti .
Qızılı,gümüşü minbir neməti.
Vardır insanların şirin ülfəti ,
Axşamlar bəzəyir ay dağı dağı.
Səbri qərar ilə girişib işə ,
Onu adət etsək keçər vərdişə.
Sülhə çağır eli, hərdən nə peşə,
Ilham arxamızın ay dağı dağı.
Tacirə neyləsin yanır ürəyi,
Tanrı etsin qoy bizlərə köməyi.
Bədniyyətlər hər gün qurar kələyi,
Bir gün yağın çıxar ay dağı dağı.

14.III.2010

MƏN

Nədir gözlərimin qəribəliyi,
Deyirsən baxanda alışıram mən.
Mən səndə itirrdim, tapmışam nəyi,
Sevgimlə sevginə qapanmışam mən.
Oğurlama süzgün baxışlarımı,
Qoparma məhəbbət naxışlarımı.
Sel kimi tökülən göz yaşlarımı,
Unudub səninlə barışıram mən.
Eşqin intizarın üzür qəlbimi,
Yanıram alovda sən yanan kimi,
Sənin məhəbbətin, sənin eşqini,
Əlimdə tuturam yarışıram mən.
Oğurlama süzgün baxışlarımı,
Qoparma məhəbbət naxışlarımı.
Sel kimi tökülən göz yaşlarımı,
Unudub səninlə barışıram mən.

21. X. 2000.

PÜNHAN

Sinəm üstə balə-balə,
Qövr eləyir yarə pünhan.
Təbib neyləsin bu dərdə,
Gedin deyin yarə pünhan.
Düşkün olsam dost kəsilər,
Göz yaşımı qardaş silər.
Dərdli dərdi dərdlə bilər,
Eyləyərmi çarə pünhan.
Səbirlidir fələk cana,
Qismət verib hər insana,
Göydə uçan şux tərlana,
Həm qartala sarə pünhan.
Çətindən keç, asandan keç,
Həm yaxşını, həm pisi seç.
Eşqin şirin şərbətin iç,
Düşəcəksən darə pünhan.
Açılan gül solacaqdır,
Dünya yenə dolacaqdır.
Xar bülbülün olacaqdır,
Yox nifrəti xarə pünhan.
Tacirə, heyrətdi hər iş,
Həm danışıq, həm də yeriş.
Keçər dövran, keçər gərdiş,
Ağa düşər qarə pünhan.

17.XI.2000.

ZEYNƏB

Şeh üstünün jaləsi ,
Bir damla göz yaşındır.
Ürəyimə sancılan.
Kipriyinlə qaşındır.
Kədərinlə al bahar,
Donub boran qar olar.
Könlün sevinclə dolsa,
Dönüb laləzar olar.
Dalğa olub coşaram,
Dünya bir dəniz olsa.
Ürəyində yaşaram,
Könlün eşqilə dolsa.
Yaşadacaq arzular,
Bir də sevgi insanı.
Axtar qoca dünyada,
Sən qoyduğun iz hanı.
Demə gəldi gedərdi,
Dünya əbəsdir əbəs.
Dünya bir pəncərədir,
Ordan boylanar hər kəs.
Tacirə yadigarçün ,
Yazdım bu sətirləri.
Gəlsin uca göylərdən,
Zeynəbimin xəbəri.

6.X.2006

BUDAYAR

Qəlb ovudub könül açan lalasan,
Qəvvas ol ki, tez çatasan lələ sən.
Nə nadana könül vermə lala sən,
Yoxsa dərdim ürəyimi budayar.
Bir doyunca baxım dala izə mən,
Yar qoynunda bir cüt narı üz, əmən
Salmamışam sir sözünü üzə mən,
Gül baxçada mən olaydım buda, yar.
Qarışıbdı üzündəki al-ala,
Gərəkdirki, yar qadasın yar ala.
Kiprik oxdur qaşlar kaman göz ala.
Sərt baxışın, qol qanadım budayar.
Tacirə çox dərd veribdi bu yara,
Təbib ilə sağalmayar bu yara
Həsrət çəkdim rast gəlmişəm bu yara
Vəfasızdır dünya kimi buda yar.

4.VI.1999

GÖRDÜM

Bilmirəm ağlayım, bilmirəm gülüm,
Bilmirəm yaşayım, bilmirəm ölüm.
Könül birdir, onu mən necə bölüm,
Sinəmi dağlayan zəmanə kordur.
Mən baxa bilmirəm dağa, arana,
Yazda gül-çiçəyə, qışda borana.
Lənət gəlsin insanları yorana,
Sızlayıb ağlayan zəmanə gördüm.
Nə ad verim böylə çərxi fələyə,
Satqın əməliylə düşdük tələyə,
Uyma ey millətim, uyma kələyə,
Gözləri bağlayan zəmanə gördüm.
Səyyar kimi keçdim vətən yanından.
Qaradaşımı tanımadım canından.
Bizim igidlərin o al qanından,
Bulaq yək çağlayan zəmanə gördüm.
Alınan şəhərin donan bulağı,
Dağılan evlərin yanan torpağın.
Oğulları ölüb sönən çırağın,
Yasını saxlayan zəmanə gördüm.

6.I.2012

ŞƏHİDLƏR

Baxıram dünyanın pəncərəsindən,
Keçir günlərimiz ağlı qaralı,
Ağlayır min ürək şəhid səsindən,
Igidlər görürəm dərdli yaralı.
Qan töküb can verib hamı ağlayır,
20 yanvarın hökümünə bir bax.
Analar fəryadla qara bağlayır,
Bu xəbər tarixə bil yazılacaq.
Canlıkan insanlar cəsətə döndü,
Qurban tək fələyin bu gərdişinə.
Neçə şəhid ömürü yarımcıq söndü.
Insanlar mat qalır namərd işinə.
Ana bacıların axdı göz yaşı,
Şəhiddi qucağda gəzən körpədə.
Qabağa duranın əzilir başı,
Ölüm kabusudur qara gözlərdə.
Donuq sifətlərin sönmür şöləsi,
Insanlar tanınmır biri-birindən.
Düşmən tanklarının gəldikcə səsi,
Millətim durmayır bir an yerindən.
Millət şəhid oldu el şəhidi oldu,
Ana torpağımız batdı al qana.
Neçə şəhid ömrü yarımcıq soldu.
Lənət bu zamana, belə dövrana.

20.I.1993

ANAMI GƏZİRƏM TAPA BİLMİRƏM

Anamın vaxtsız vəfatına həsr edirəm

Laylasında xumarlanıb yatmışam,
Böyümüşəm boya başa çatmışam.
Nə məsləki nə istəyi atmışam,
Anamı gəzirəm tapa bilmirəm.
Yaşayıram yaxşı-yaman el kimi,
Könlüm coşub aşır daşan sel kimi.
Fikrim gedir qanadlanıb yel kimi,
Anamı gəzirəm tapa bilmirəm.
Nə sən doydun bu dünyanın özündən,
Nə mən doydum anamın üz gözündən.
Kaş öpə bileydim onun üzündən,
Anamı gəzirəm tapa bilmirəm.
Şirin-şirin sözü qalıb yadımda,
Nişanəsi həyatımda adımda.
Ondan başqa kimsə olmaz dadımda,
Anamı gəzirəm tapa bilmirəm.
Itirmişəm onu ümman içində,
Axtarıram min asiman içində.
Zaman gəlib keçə zaman içində.
Anamı gəzirəm tapa bilmirəm.
Ocağının odu közü olardı,
Balasıçün saralardı solardı.
Gah boşalıb gah bulud tək dolardı.
Anamı gəzirəm tapa bilmirəm.
Arxam idi həm köməyim pənahım,
Itirmişəm budur mənim günahım.
Onsuz qaranlıqdır günüm sabahım,

Anamı gəzirəm tapa bilmirəm.
Getdi ev eşiyi onsuz buz oldu,
Gizlicə qismətim aşkar düz oldu.
Nə qədər qaçsamda söhbət söz oldu,
Anamı gəzirəm tapa bilmirəm.
Işvəli görkəmim sərinləşibdir,
Kədər kök salıbdı dərinləşibdi.
Ölümlə yaşamaq çox guləşibdi,
Anamı gəzirəm tapa bilmirəm.
Xəyalım qonsada gülə çiçəyə,
Könlü parçalayıb mən yelə-yelə.
Həyatçün gəlmərəm birdə nəşəyə,
Anamı gəzirəm tapa bilmirəm.
Düşünə bilmirəm bu nə xəbərdi,
Anam bu dünyada nə əkdi dərdi.
Vaxtsız bu torpağa köksünü sərdi,
Anamı gəzirəm tapa bilmirəm.
Demirəmki, dəyişdirim dünyanı,
Demirəmki, mən əyləyim zamanı.
Axtarmıram milyonlarla insanı,
Anamı gəzirəm tapa bilmirəm.
Ürək dolub hey yazsamda boşalmaz.
Deyirlər yetimin qisməti olmaz.
Analı bəizlər saralıb solmaz,
Anamı gəzirəm tapa bilmirəm.
Tacirə sınandın əzəldən bəri,
Taledə bəxt etdi bu dərdi səri.
Könülü viran etdi ölüm xəbəri,
Anamı gəzirəm tapa bilmirəm.

17.II.1996

HƏYAT LÖVHƏLƏRİ

Məhəbbətim istəyim bir ümid damlasıdır.
Uçur könlüm havada o ümidə asidir.
Bir bulağam çeşməmin suları quruyarmı?
Təkəm fani dünyada tanrı mənə qıyarmı?
Uyuşmuram kimsəyə səhrada tək güləm mən,
Gah ağlayıb gah gülüb gah da istəm öləm mən.
Yaşamaq yaşataqdır, onunçün dünyadayam,
Gah vüqarlı bir dağam, gah da axan bir çayam,
Həyat tək sevgi üstə, bərqarar olub başdan,
Nəyə lazım axan qan, bu alınan intiqam.
Ləzzət al bu dünyadan yaşatki, yaşayasan,
Belə sadə gəlməsin dünya sənə çox asan.
Bu dünyanın çox soyuq, qarı var boranı var,
Qazan altı qalayan kənarda duranı var,
Ilanı yuvasından çıxardan yaltağı var.
Camalı günəş kimi qəlbdə təzə tağı var.
Düzü var dərəsi var, keçilməz bərəsi var,
Yetişməmiş çiçəyi meyvəni dərəsi var,
Hər başda ağıl adlı bir ixtiyar oturur,
Özünə güvənərək öz dünyasını qurur.
Elə bir dünya dayam pul zəncirdi qollarda,
Hökm edir hər bir kəsə ixtiyarla yollarla.
Burda pulla alınır azuqədə, geyimdə,
Vətrənpərvərlik dostluq kəşf eyliyən beyində,
Insanlarda satılır bəzi yerlərəd hərədən,
Təkcə vicdan satılmır, bilməm nəüçün nədən.
Əgər vicdan satılsa ana südü qarğayar,
Əgər vicdan satılsa təbiətdə ağlayar,
Onda aləm qarışar ikiliklər fonunda,
Insan görünər gözə bir heyvanın donunda.
Mənimdə ömür payım beləcə diyirlənir,
Gax yıxıla, gah dura illər aylar hərlənir.

Dünya sınaq meydanı, insan qazandığı nə,
Yaxşı pis əməlləri yazılacaq üstünə.
Niyə yada salmayır ömür qısa gün gödək,
Niyə pislik edirlər bəs onları bilərək.
Nədir gözləri örtən bir quru xəbislikmi,
Ömrü tarımar edən tamahmı xəstəlikmi.
Neçə qəlbləri qırır uçurur yuvaları,
Bircə yola gələrdi insaf olaydı barı.
Baş qaldıra qəlbində sevinc məhəbbət nuru,
Təzə tər təmizlənib süzülərdi dumduru.
Uçaydı qanad taxıb mələk tək səmalardı,
Məhəbbətdən yoğurub yaradaydı bir ada.
Olaydı yer üzümüz məhəbbətlər torpağı.
Dərman olaydı burda ağacların yarpağı.
Onda nifrətdə qəmdə olmazdı kainatda,
Qurdla quzu otlardı bir yerdə bir həyatda.
Səmaları buludsuz ulduzları parlayan,
Bir sehirli aləmə bənzərdi bizim cahan.
Lakin əfsuslar olsun bu ancaq xəyal olar,
Belə dünya həmişə arzu olaraq qalar.
Çünki tanrı hər şeyi çüt-çüt yaradıb deyə,
Yaxşı pis etdikləri qalxar ucalar göyə.
Axı yaxşıya qiymət pisə nisbət ölçülür,
Dünyada kim ağlayır, kimi sevinib gülür.
Düz olsaydı yolları həyatın küçələrin,
Hamı gülsə dadını bəs kim bilər kədərin.
Bu da yorar bezdirər həyatda insanları,
Tanrı yaradıb bilir həm qışı həm baharı.
Taleyin hökmü ilə yaranır hər yaranış,
Bəzi bəxtli doğulur bəzisi nakam yanlış,
Niyə dolu beyinə yer yoxdu bu dünyada,
Çaqqallar ucalaraq təltif edilir ada.
Yaxşılar narın-narın yaxşılar tək-tək gəlir,

Alaq ömürdür yaman gündə biri cücərrir.
Günəştək yanır göydə ulduzlar ləpik-ləpik
Tərsinə dövran edir dünya əzəldən demək.
Ağlamaq istəyirəm qəhər boğub boğazı,
Necə düşünən beyin olub nahaq güdazı.
Nədən sığışmayıram kainata dünyaya,
Qayıtmaq istəmirəm uçam uca səmaya.
Çünki görməyim deyə yerdə axan qanları,
Haqdan dönüb nahaqqa baş əyən insanları.
Öz bacı qardaşını atıb yaddan tutanı,
Bir az əli tutanda ata ana atanı.
Dar gündə qəlb dostunu qoyub qaçan dostları,
Dəyişən zamanəni qar yağdıran baharı.
Görmək istəmirəm yerdəki təbəqəni.
Varlı ilə kasıbı birdə qardaş düşməni.
Görmək istəmirəm qəlbi qara kəsləri,
Bir zəngi ilə ölkəni satan naqis pisləri.
Görmək istəmirəm ağlayan bulaqları,
Əsir düşmən qolları o solmuş yanaqları.
Yerdə bitən alaqlar bir şər hökmü daşıyır,
Naqis nahaqlar onun kölgəsində yaşayır.
Bu alaqlar o qədər çoxdur güllər yanında,
Bəzi güldə açılır nahaqların donunda.
Görmək istəmirəm vəfasız sevənləri,
Ucalan ah naləni ürəkdə qəm kədəri,
Neyləyimki yaşamaq verilir hər bir kəsə,
Verilir sınaq üçün həm yaxşıya həm pisə.
Indi məndə burdayam bu milyonlar selində,
Insan tanınır ancaq əməlində dilində.
Görmək istəmirəm nə daşqını nə seli,
Görmək istəmirəm tərsinə əsən yeli.
Vurulmuşam dünyaya səxavət ümüdüm ondan,
Anamız təbiəti başa düşməz hər nadan.
Min arzuya min naza çatmaq üçün çalışıram,

Tanrı vermiş qismətə, haq nahaq barışıram,
Çeşmənin sularında yuyunuram hər zaman,
Kimin varsa zəkası, deməkxoşbəxtdir insan.
Baxma dünya varına aldanma sümuzərə,
Insan dünyaya gəlir ömründə bircə kərə.
Bir az qəmli kədərli bir az sevinc nayiylə,
Kimi mənalı yaşar, kimin ömrü hpy ilə,
Süzülmək istəyirəm ömrümün süzgəcindən,
Saflaşam ta saflaşam axirət gününətən.
Bu haylı bu haraylı həyat meydanındayam,
Ya ucalmış bir dağam, yada axan bir çayam.
Lakin bilinməyirəm kimsənin nəzərində,
Bir sadəcə insanam hamının gözlərində.
Təkəm fani dünyada uca tanrı köməyim,
Hər yan xoşbəxt görünsün budur mənim istəyim.
Tamahkirə tamaha nifrət eyləyir ürək,
Xainlər başlar kəsir, üzlərinə gülərək.
İstərəm vətənimdə şər zəncirlər qırılsın,
Üzü gülsün hamının bir-birinə sarılsın.
Olmasın müharibə top tüfənglər lal olsun,
Dövlətlər qardaş olsun şirin, şəkər bal olsun,
Ürəyimin sevinci ucalsın səmalara,
Qovsun sevinc payım, mahnıya laylalara.
Güllər çiçəklər açsın bəzənsin hər dağ dərə,
İnsanlar alqlş desin o yaradan əllərə.
Çiçəklənsin ağaclar bol bəhrəli bağ olsun.
Bu gözəllik parlasın düşmənə bir dağ olsun
Insanlar bir-birinə paxıllıq etməsinlər.
Aldanıb tamahkirin dalınca getməsinlər,
Tanrıda baxıb bizə razı qalsın bu işdən,
Onsuzda gələn gedir, nə sən qalmırsan nə mən.
Tacirə xoşbəxtdir ki, bu həyatı görübdür,
Qəmlənib gah ağlayıb, gah sevinib güldürür.

26.XI.2009

İNCİYİR

Dünyaya gələnlər niyə gedirlər,
Dünyamı incidir, insanmı inciyir.
Şərəfli bir ölüm bir ömrə dəyər,
Şərəfsiz yaşayan min canmı inciyir.
Dünyanı dərk elə, yaşama hədər,
Cahil olma, ömürn yel olub gedər,
Bir haqdır dünyanın sonuna qədər,
Nahaq damarında qanmı inciyir.
Vaxtını itirsən, özünü itir,
Haqqı görəmməsən, gözünü itir,
Elə yaşama ki, izini itir,
İtirsən ömürün hər anmı inciyər.

Poemalar

Ana poeması

(Pərdə arxasında şeir)

Ananın ağzında yanırdı dili
Qaralmış sifəti, bükülmüş beli
Bu dərd olmasaydı büsbütün ili
Yaşardı kef ilə? damaqla Pəri.

Beşik kəsməsiydi İlqarla Bahar
Şirin xəyal idi bu iki nübar.
Sanki xoşbəxtliyi yumuşdu çaylar,
Gəzirdi səs ilə soraqla Pəri.

Sevsədə dərindən İlqar ananı,
Gedib gətirmişdi könlü yananı.
Həmişə özündən uca sananı,
Vurmaqçün gedirdi yarpaqla Pəri.

Təpidi İlqarın dili, dodağı,
Sanki qurumuşdu kolun budağı
O təzə açılmış qönçə yarpağı,
Əzib puç eylədi ayaqla Pəri.

Həmişə beləydi elin adəti,
Gərək ana tapsın ona qisməti,
İlqar düşündükcə bu qəbahəti,
Tökəcək gözünü barmaqla Pəri.

I hissə

Ana və məhəbbət

(Pəri xalanın evidir. O, baxçada tək oturmuşdur, oğlu İlqar da buraya gəlir.)

<u>Pəri</u>
Anan sənə qurban, bir yaxın gəlsən
Ananla oturub deyib güləsən

<u>İlqar</u>
Neynirəm oturub deyib gülməyi
Sirrim var bacarmam onu bölməyi.

<u>Pəri</u>
Sən mənim oğlumsan, ananam hər dəm.
Bəs necə olur ki, sirrini bilməm.
Anan görmək istər sənin toyunu,
Öpüb oxşayaram uca boyunu.

<u>İlqar</u>
Anamsan, hamıdan əzizsən mənə,
Etmişəm bir nazlı gözəl nişanə.
İcazə versəydin alardım onu,
Bitərdi bununla sirrimin sonu.

<u>Pəri</u>
(Ayağa duraraq əlini göyə qaldırır. Acıqla).

Ay allah bu nədir eşidirəm mən?
Bir də bu sözləri söyləmə gəl sən.
Sən mənim oğlumsan, sevinc payımsan
O ulduzlu gecəm, günüm ayımsan.
Elin adəti var qaydası vardır
Onu pozanlara ölümdü, ardı.

(İlqar qəmli halda otağa keçir).

Müəllif
Pərişan görünür İlqarın halı,
Indi necə dözsün dərdə zavallı.

İlqar
(Öz-özü ilə danışır)

Bilmirəm bu nədir, necə adətdir,
Atada-anada bu nə niyyətdir.
Həyat əyləncəmi, yoxsa oyuncaq?
Arzuya, niyyətə de kim baxacaq.
Sabaha açılır hər yeni səhər,
Bəs nədir şüurda köhnə fikirlər.
Yox-yox bu sevdadan dönə bilmərəm
Səhv etsəm ağlaram bir də gülmərəm.
Olarmı ürəyin-könlün biriylə,
Ömür keçirəsən başqa biriylə

(Kədərli halda sevgilisi Dilarənin yanına gedir. Dilarə gilin evidir. Sakitlikdir. Elə bu vaxt İlqar gəlir, Dilarə onu qarşılayır).

Dilarə
Xoş gördük İlqar.
Heç bu qədər də gecikmək olar.
Sənə deyiləsi bir sözüm vardır.
Sənsiz bu kainat gözümdə dardır.
Məni başqasına verir atam da,
Daha bir taqətim qalmayıb canda.

Müəllif
Bu xəbərdən İlqar sarsıldı yaman,
Dedi lənət sənə böylə bir zaman.
Onlar danışmadı dinmədi bir an,
Belə bir zülümə dözərmi insan.

İlqar
(İlqar qəti hərəkətlə).

Bilirsənmi sən,
Sabahdan aparıb səni gedəcəm,
Qoy mənim ömrümdə bir çıraq yansın.
O köhnə fikirlər oda qalansın.
Sözlərim qətidir inan sən mənə.
Ata-analarda etsin nişanə
Qoy tapsın sənə də mənə də bir yar.
Bu saf məhəbbətə söylə kim qıyar

(Həyətdən kiminsə səsi gəlir. Hər ikisi uzaqlaşırlar. Gələn Dilarənin anası Sona xaladır.)

Sona
Qızım burda kiminlə danışırdın.

Dilarə
Heç kimlə ana
(Dilarə üzünü yana çevirdi.)
Sona
A bala, bəs bu nə səs idi burada
Odur e, o gedən bəs kimdir orda

Dilarə
Ay ana gəl gedək neynirsən onu,
O yoldan ötəndir başqadır yonu

(Səhərdir, Pəri xalanın evidir. Samovar qaynayır. Sakitlikdir. Pəri xala oğlu İlqarla stol başındadır. Heç birisi dinib danışmır. Dünənki söhbət hər ikisini bərk məşğul etmişdir. Səhər yeməyindən sonra sürücü Ilqar işə tələsir. Pəri xala isə Baharın yanına gedir). (Bahargilin evidir. Ata-anası evdə yoxdur. Pərini Bahar qarşılayır. O bu gün sahəyə çıxmamışdır.Pərini görüb özünü itirir).

Pəri
Mənim Bahar qızım nə edir burda,
Sanki bir yaraşıq olubdu yurda.
Allah görüm səni xöşbəxt eyləsin,
Istərdim evimdən gəlsin xoş səsin.
Bahar bu gün işə getmənisən bəs?
Eh qızım istidə olarmı həvəs.

Bahar
Buyurun içəri keçin ay xala
Niyə dayanmısız qapıdan dala
İndicə anam da qayıdar işdən
Sevinib şadlanar bu xoş gəlişdən.

Pəri
Anan gec qayıdar gedirəm daha
Ona, sözüm vardır qalsın sabaha

(Pəri xala həyətdən çıxır, ağır addımlarla evlərinə qayıdır. Evdən səs-küy eşidir. Tələsik içəri keçir. Dilarəni otaqda görüb işin nə yerdə olduğunu anlayır. Ilqarı gəzir lakin onu tapmır.)

(Pərdə arxasından şer).

Ananın ağzında yanırdı dili
Qaralmış sifəti bükülmüş beli
Bu dərd olmasaydı büsbütün ili
Yaşardı kef ilə damaqla Pəri.

Beşik kəsməsiydi İlqarla Bahar
Şirin xəyal idi bu iki nübar.
Sanki xoşbəxtliyi yumuşdu çaylar,
Gəzirdi səs ilə soraqla Pəri.

Sevsədə dərindən İlqar ananı,
Gedib gətirmişdi könlü yananı.
Həmişə özündən uca sananı,
Vurmaqçün gedirdi yarpaqla Pəri.

Təpidi İlqarın dili, dodağı,
Sanki qurumuşdu kolun budağı
O təzə açılmış qönçə yarpağı,
Əzib puç eylədi ayaqla Pəri.

Həmişə beləydi elin adəti,
Gərək ana tapsın ona qisməti,
Ilqar düşündükcə bu qəbahəti,
Tökəcək gözünü barmaqla Pəri.

Müəllif

(Pəri Dilarənin qaçırılıb gətirilməsindən çox məyus olmuşdur. Hətta İlqarla belə kəlmə kəsmək istəmirdi. O, Dilarəni həmişə eyhamla dindirirdi. Bir sözlə Dilarə Onun xoşuna gəlmirdi).

Pəri

(Dilarəyə baxaraq)

Bura bax, öz xoşunla itil buradan,
Mənə bir səbr ver bizi yaradan
Mən nə fikirdəyəm, bu nə fikirdə
Ana da dözərmi belə bir dərdə.

Dilarə

Ana bu nə acı sözdür, bu nə eyhamdı,
Eşitdim sözləri ürəyim yandı.
Axı biz sevirirk bir-birimizi
Bəli acı olur hər sözün düzü
Ilqar gətirməsə mən də gəlməzdim
Bu cür həyatı mən heç vaxt bilməzdim

Pəri

Boş-boş çərənləmə itil gözümdən,
Mən dönən deyiləm bircə sözümdən.
İlqarın bir gözəl adaxlısı var,
Adı da gözəldir gül üzlü Bahar
Lap kiçik yaşından seçmişəm onu
Mən dedim qurtardı sözümün sonu.

(Pəri acıqlı-acıqlı otaqdan çıxır. İlqar işdən qayıdır. O, Dilarəni ağlayan görür).

İlqar
Niyə ağlayırsan indi Dilarə,
Sən ki, yetişmisən sevgili yarə.
Mənim həyatım da, canım da sənsən,
Mən çox şad olaram bircə an gülsən.

Dilarə
(Gözlərini silərək İlqarın üzünə baxır).

Anan məni qovdu indicə burdan,
Allah, məni qurtar sən özün dardan.
Mənim gəlişimə o sevinmədi,
Son qərarı verib sonra dinmədi.
Dedi ki, itilim burdan indicə,
Qalmayım burada heç bircə gecə.

İlqar
Qəm yemə düzələr baş qoşma ona,
Bir az döz hər bir şey yetişər sona.
Anadır bəs necə, o sərtlik edər,
Alarsan könlünü qurtarıb gedər.

(Dilarə dinmir bikef halda otağı yığışdırır. İlqar isə o biri otağa keçir. Elə bu vaxt həyətdə maşın səsi gəlir. Hər ikisi bayıra çıxırlar. Gələn İlqarın və Dilarənin dostlarıdır. Hər ikisi sevinirlər.)

İlqar
Xoş gəlmişsiniz,
Buyurun-buyurun içəri keçin,
Bax siz yerinizi bu başdan seçin.
Mənim xoş günümdə dostlarım gəlib,
Gülüşüm, sevincim göyə yüksəlib.

Dilarə bir tez ol stol aç bura,
Süzülsün badələr, qızışsın ara.

(Qonaqlardan biri).

İlqar təbrik edirik səni hamımız,
Sənin şad gününə qurban canımız.
Eşidən tək hamı sevindi yaman,
Fərhad tələsdirdi vermədi aman.
Dedi təbrik edək İlqarı bu gün,
Qoy ömrümüz bir toy büsata dönsün.

(Gülüşürlər. Ortalığa şərab gəlir. Qonaqlar axşama qədər yeyib-içir, çalıb oynayırlar. Artıq qonaqlar getmişdir. Dilarə stolu yığışdırır Pəri xala ona əyri-əyri baxır).

<u>Pəri</u>
Görürəm bu evdə sayılmır ana,
Heç bir sir, heç bir söz deyilmir ona.
Deyəsən mən burda artığam indi,
Mən gedirəm gəlin, evim sənindir.
Oğulu doğsamda hököm sənindir,
Ilqar da deyir ki, günah mənimdir.
Artıq İlqar mənə ana deməsin,
Görüm zəhər yesin çörək yeməsin.

(Dilarənin qanı qaralır. O, əsəbiləşir. Əlindən qab yerə düşüb sınır)
(Səhərdir, Pəri xala otaqdan qanı qara çıxır. İlqar həyət qapısında anası ilə qarşılaşır. Onun bikef getdiyini görüb onu saxlayır).

İlqar

Sənə qurban ana hara gedirsən,
Niyə bu könlümü viran edirsən.
Ay ana bağışla incitdim səni,
Gəl keç günahımdan bağışla məni.
Bilirəm dəymişəm sənin xətrinə.
Qurban olum ana o gül ətrinə,

Dərd çəkib incitmə əziz balanı,
Bu çətin yollarda donub qalanı.
Saçının ağına qurban olaram,
Sən getsən bir gül tək məndə solaram.

(Pəri xala oğlunun bu sözlərindən kövrəlib evlərinə qayıdır. İllər keçdikcə ananın gəlinə olan nifrəti daha da artırdı. O, İlqarın belə onunla danışmasına razı deyildi. Ananın sözləri oğul üçün qanun olmuşdur. O, Dilarənin arzularını yerinə yetirə bilmirdi, sanki ondan qorxurdu.)

Pəri

Ay gəlin daş düşsün sən gələn yola,
Bu necə xəmirdi qüvvət ver qola.
O körpə ağlayır get onu gətir,
O gedən qonağı qapıdan ötür.
Tez yu qab-qacağı yır-yığış eylə,
Niyə gec durmusan bir mənə söylə.
İş-gücü gör qurtar axşama qədər,
Gəlin də heç yunu beləmi didər.
Qonaq gedəcəyik İlqarla bu gün,
Mənə elə baxma sən ölgün-ölgün.

Nə var tökülübdür iş-gücün orda,
Odur karton yanır tökdüyün qorda.
İnəyi sağarsan, südü də bişir,
Odur qoyun-quzu yenə mələşir.
Bir az imkan eylə qoyunu otar,
Damı kürüməyə də vaxtın çatar.
Biz gələnə qədər xörək də bişir,
Səni görcək ətim yaman ürpəşir.
Elə bil gözümdə ildırım çaxır,
Mal kimi gözlərin hayana baxır,

(Pəri tapşırıq verib gedir. Dilarə təhqir olunmuş kimi xəyala dalır, sonra öz-özü ilə danışır).

Dilarə
Bu necə həyatdır, bu necə ömür,
Bu parlayan ulduz deyəsən sönür.
Bu körpə, ömrümün nübar sevinci,
Bu körpə, mənimçün bir ovuc inci.
İlqar da soyumuş məndən axır gün,
Bu nədir elə bil xəstəyəm, düşkün.
Odur Təranəm də ağlayır orda,
Mən də danışıram özümlə burda.

(Körpəni qucağına götürür).

Ağlama can bala eşit hər şeyi,
Ananın ahını, sözü gileyi.
Sevindim dedimki xoşbəxt olmuşam,
Ah, necə əriyib, necə solmuşam.
Artıq yaşamağa yoxdur həvəsim.

II hissə

Ananın kədəri

Bu evdə batıbdır büsbütün səsim,
Ah körpəm, ah balam bu nə müsibət.
İlqarda görürəm eşqə xəyanət,
Yox-yox İlqar bunu heç vaxt eyləməz.
O mənə heç zaman yalan söyləməz,
Görünür onun da hüququ yoxdur.
Anada nifrət də, qəzəb də çoxdur.
Görürəm heç zaman yumşalmaz Pəri,
Elə məni qovmaq olub əzbəri.

Müəllif
Beləcə Dilarə yaşadı bir az,
İlqar da bu qədər hüquqsuz olmaz.
Deyirdi bəlkədə özünə gəldi,
O da mənliyini anladı bildi.
Ana üçün çətin olsada hər an,
Gözlədi fərmanı qoy versin zaman.
Budur dolaşır o fikri pərişan,
Onun gözlərində qarışmış cahan.
Çəkir həyatının fikirlərini,
Yaşayır ömrümün son illərini.
Sanki məhəbbəti toxunmuş daşa.
Dözülməz həyatda dolsa da yaşa,
Onun qız körpəsi hərarətidir.
Üç yaşlı Təranə məhəbbətidir.
Salıb məhəbbəti bu balasına,
Bu qız çox oxşayır öz anasına.

Evdə qaynansı onu saymayır,
Bir adam yerinə belə qoymayır.
O, bu yerdə görür olmazın əzab,
Gəlin bir kimsəyə eyləməz gizab.
Yad bir insan kimi burda oturur,
Dinib danışmayır səsin batırır.
Qonşular mat qalır bu işə hərdən,
Itirir huşunu gəlincik birdən.
Onun bu həyatı çox dözülməzdi,
Bir kimsə qapını açıb girməzdi.
Bağlanıb elə bil bəxtinin sonu,
Bu əzablı çağa məhəbbət donu,
Geydirib Dilarə söyləyir hər an.

Dilarə
Mənim də bəxtimə xətt çəkdi zaman,
Onun qüdrətindən qaçmaq olarmı.
Belə bir həyatda insan qalarmı.
Ailə ki, ömrün bir parçasıdır,
Bu ailə çürüksə qəlb yarasıdır.
Ağrıdar insanın qəlbini hər an,
Özünü toplayıb yaşamaz insan.
Bu ağır həyatda bir günəşim var,
Onu qoyub getsəm mən olaram xar.
Aparım bəs necə saxlayım onu,
Bəsdir yetər, bitsin həyatın sonu.

Müəllif
Ağır düşüncələr ananı didir,
Bilmir o neyləsin lakin o gedir.
Gedir həmişəlik bu xanimandan,
Şikatçı olmuşdur dövrü zamandan.

Onun o üç yaşlı Təranəsi də,
O ilk məhəbbəti, o körpəsi də,
Arxada qalmışdır anasız indi.
Dil açıb ürəyi deyir sən indi,
Üç illik həyatın o zülümlərin,
Hər yanı bəzəyən nurlu əllərin,
Bəsləmiş evində bir körpə bala,
İndi rəvadırmı uşaq tək qala.
Çox çətin olacaq anasız ona,
Başqa ana çətin körpəyə yana.
Qayıt öz yerinə, yurduna indi.
O gözəl çiçəyin, evin sənindi,

Ana sarsıntılar keçirirdi bax.
Onun xəyalları çaşıb qalaraq,
Gah yeriyir, gah da haldan düşürdü.
Gah istiraf, gah da bədən üşürdü.
O gedir qayıtmaq yoxdu geriyə,
Bu evdə fərq yoxdu ölü diriyə.

__Dilarə__
Istəyirsən od ol özünü yandır,
Yüz zillət çəkərək onları qandır.
Birdir onlar üçün hər şeyin sonu,
Burda hamı geyir bir zalım donu.
Bir əlac bu yerdə gözdən itməkdir,
Bir dəfəlik burdan çıxıb getməkdir.
Budur həyatının ilk məhıbbəti,
Uğursuz taleyin yox sədaqəti.

__Müəllif__
Dilarə həyacan keçirir hər gün,
Heç yeyib içməyir oturur qəmgin.

O xəyala dalır üzü gülməyir,
Rahatlıq nə şeydir bir an bilməyir.
Üzür ürəyini o qəm dəryası,
Heç qaysaq tutmamış təzə yarası.
Gecələr gözünə yuxu getməyir,
Qızının xəyalı gözdən itməyir.
Əli də yatmayır evdə bir işə,
Girişə bilməyir xörək bişmişə.
Qəlbində yaşayır nifrət, məhəbbət,
Nə dəhşətli olur eşqə xəyanət.

Bala məhəbbəti, həyata nifrət,
Qazana bilmədi ana səadət.
Bəli, nifrət edir o həyatına,
Baxır ucalmayan qol qanadına.
Öz eşqi uğursuz olduğu üçün,
Ümumi həyata bəs nifrət neçün.
Bəzinin həyatı uğurlu olur,
Bəzi Dilarə tək saralıb solur.
Həyatın qəribə işləri çoxdur,
Ondan dərs almayan əfsuski yoxdur.
Bəzən o ağladır, bəzən güldürür,
Bəzən kam almamış vaxtsız öldürür.
Bəzən qismətə də yazırlar bunu,
Deyirlər bu imiş bəxtinin sonu.
Ananın bəxti də uğursuz oldu,
Onun eşq badəsi zəhərlə doldu.
Qəlbini sıxsada bu əks hislər,
Ağlının gücüilə o getmək istər.
O bilir birinci ağıldır hər an,
Olarmı hislərim ağıla qurban.
Ağıldır yaşadan bu xanimanı,

Dərk edər dünyanı, yaxşı, yamanı.
Ağıl hiss deyil ki, gözü yumula,
Düşündüyü ancaq bir nöqtə ola.
Dəyişdi ananın gözündə cahan,
Ağılın gücüylə ucaldı hər an.
O qurdu həyatı təzədən indi,
Bilirdi yaşamaq hissiz çətindi.
Lakin insanlığın borcudur ancaq,
Hissə qapılmadan qurub yaratmaq.
Dilarə işini davam edirdi,

Hər gün o vaxtında işə gedirdi.
Bu iş həyatının bir parçasıydı,
Bu iş keçən ömrün bir yarasıydı.
Dilarənin qəbi parçalanmışdı,
Körpəsindən ayrı xeyli yanmışdı.
Təranə anasız böyüyən zaman,
Ananın həmdəmi dərd ilə hicran.
Olsa da özünü toxdaq tuturdu,
O inad göstərib burda oturdu.
Uzun illər keçdi ana həyatda,
Unuda bilmədi bu kainatda.
O ilk məhəbbəti bala həsrəti,
Getdikcə əyildi uca qaməti.
Onu görmək üçün yarpaq tək əsdi,
Gəlib-gedənlərin yolunu kəsdi.
O sordu hamıdan Təranəsini,
O körpə balası durdanəsini.
Bir xəbər çıxmadı o ilk nübardan,
Ana soraqlayır onu bahardan.
Əsən küləklərdən istəyir onu,
Deyir bu imişmi sevdanın sonu.

Bu ayrılıq dəmi məzara bənzər,
Buna heç iradə, ürəkmi dözər.
Tutulmuşdu üzü uca göylərin,
Sanki hiss edirdi ana kədərin.
Birdən göyün üzü qaranlıq oldu,
Günəşin bənizi saralıb soldu.
Göydə şaqqıldadı odlu şimşəklər,
Elə bil qırıldı o xoş diləklər.
Göz açmaq olmurdu güclü yağışdan,
Ananın gəldiyi dəhşətli qışdan.

Fərqliydi təbiət payızdı indi,
Soyuyub havalar artıq sərindi.
Tökülür ağacın sarı yarpağı,
Küləklər yalayıb didir torpağı.
Sanki dilə gəlib hayqırır dağlar,
Baş əymək istəmir payıza bahar.
Dilarə ağlayıb zümzümə edir,
Xəyal düşüncələr qəlbini didir.

Dilarə
Uca dağlar qamətlisən,
Niskil ürək həsrətlisən.
Ayrılmışam mən balamdan,
Ey zamənə dəhşətlisən.

Axar sular dayan bir an,
Donsun vüsal, donsun hicran.
Mən körpəmi götürüəm,
Geri qayıt dövri zaman.

Sanki qəlbim yaralandı,
Ilk məhəbbət qaralandı.

Ayrılmışam bir balamdan,
Ana könlü paralandı.

(Dilarə ağlayırdı. Bayırda kiminsə səsi gəldi).

Müəllif
Məhbarə dostuna dəyməkçün gəldi,
Onun kədərini, qəmini bildi.

Acıdı ürəkdən o sirdaşına,
Nəsiət verirdi öz yoldaşına.

Məhbarə
Ümidsiz yaşama, ümitdir çara,
Dünya beş günlükdür beşi də qara.
Çalıb oynayaram dünyada hər an,
Mənə tuş gəlməsin qəm ilə hicran.
Ara-axtar qismətini tap götür,
Oyuncaq olma gəl hissin əlində.
Bu fani dünyada hər zaman bitir,
Qanqallar, tikanlar gülün belində.
Səadət sənindir, sənindir axtar,
Əbəs deyilmir ki, axtaran tapar.
Sən bu gəncliyinlə bir özün düşün,
Yaraşarmı sənə tək qalmaq bu gün.

Müəllif
Məhparə gözlədir o qəlbi xoşdur,
Öz camalını duyub sanki sərxoşdu.
Onun hörükləri iki qatardı,
O ay üzlü çıxsa günəş batardı.
Ala gözlərinin xoş qəmzəsindən,

Adam məst olurdu incə səsindən.
Kiprikləri bir ox, qaşları kaman,
Hələ o məktəbdə oxuyan zaman,
Çoxların qəlbini almışdı ələ,
Kef ilə damaqla yaşardı belə.
Başının üstündən əssədə külək,
Qururdu hər gündə təzə bir kələk.

Sevirdi gündə bir təzə oğlanı,
Danışırdı ona xeyli yalanı.
Bundan xəbərsizdi dostu Dilarə,
Bilsəydi dostunu çəkərdi darə.
Deyirdi bu dünya kimə qalacaq,
Insanlar bir gültək tezcə solacaq.
Nəki bacarırsan yaşa kef eylə,
Keçir xoş ömrünü kamanla neylə.
O, ali məktəbdə oxuyur hələ,
Indidən həyatı düşünür belə.
Bu tipli gözəllər ana olarmı.
Bnuna heç onların haqları varmı.

(Dilarənin otağıdır. O, tibb bacısı işləyir. O tək olduğu üçün xəyala dalmışdır. Bu zaman kimsə qapını döyür. Gələnlər dostu Nərgiz və Mahirədir).

<u>Nərgiz</u>
(Üzünü Dilarəyə tutub).

Işdən tez gəlmisən nə olub sənə,
Kefsiz görünürsən dərd bəlan mənə.
Səni çox axtardım tapmadım orda,
Sənə deyiləsi sözüm var burda.

Bir yaxın gəl mənə otur yanımda,
Deyəsən düz çıxır hər gümanımda.

(Dilarə ortalığa çay gətirir. Qızlar stol başında əyləşirlər).

Mahirə
Nərgizin belə bir məsləhəti var,
Sevincdən ürəyi eyləyir qübar.
Deyirki Dilarə oxusun gərək,
Arzumdu onu biz həkim görək.

Dilarə
Artıq bundan belə oxumaq nədir,
Könlümü almaqçün bir bəhanədir.

Nərgiz
Yox-yox elə demə əziz bacım sən,
Bu yolda səadət sevinc görərsən.

Müəllif
Dilarə fikr edir könlü tarımar,
Səadətlə kədər bir yerə sığar?

Mahirə
Dilarə necədir xoşuna gəlir?
Könlümün sevinci göyə yüksəlir.
Sənə qurban olum inad eyləmə
Gəl bizi incitmə sən yox söyləmə.

(Dilarənin boynunu qucaqlayır və üzündən öpür. Dilarə başı ilə razılıq edib gülümsünür. Hər ikisi yenidən onu qucaqlayırlar. Çöldən maşın səsi gəlir. Gələn Ma-

hirənin nişanlısı Ayazdır. O qızları aparmağa gəlib. Qapıda Dilarə ilə qarşılaşır).

Ayaz
Xoş gördük Dilarə bacı
Sənsən bu qızların başının tacı.

Dilarə
Heç elə söyləmə sadəcə dostuq,
O vaxtdan hamımız bir yerdə olduq.
Bir oldu sevgimiz həm kədərimiz,
Sevincli kədərli çox illərimiz.

(Ayaz Dilarə ilə sağollaşıb qızlarla gedirlər).

(Yenə Dilarənin otağıdır. Dilarə təkdir, nə isə tikir. Qızının xəyalı onu bir an belə tək buraxmır. Lakin bütün bunlara baxmayaraq Nərgizlə Mahirənin məsləhətinə o razıdır. Dilarə işləyə-işləyə işlərini Tibb İnstitutuna verir və qəbul olur. Nərgizgilin evidir, Mahirə və Dilarə də buradadır.
Hər ikisi Dilarəni qucaqlayıb təbrik edirlər.)

Nərgiz
Ay sağ ol, bax belə mən buna varam,
Qəlbin darıxmağa səni qoymaram.
Mahirə söylədi bu şad xəbəri,
Bacı unut getsin keçən günləri.

Dilarə
Unutmaq olarmı bala həsrətin,
Gərək şad eyləsin səni qismətin.
Mənim də qismətim daşlara dəydi,

Bu intizar, kədər qəddimi əydi.
Gəlmişəm yanına bir məsləhətə,

Onsuz da baxıram hər nəsiətə.
Qızımçün şikayət etməkdir arzum,
Deyirəm Elxana bir ərizə yazım.

Nərgiz
Bu çox yaxşı olar tələb et qızı,
Dəyişsin ömrünün qoy qışı, yazı.
Birdə könlün kədər qüssə görməsin,
Bir də titrəməsin o incə səsin.

(Dilarə evlərinə yola düşür. O, otağına daxil olur. Bayaqkı fikir onu rahat buraxmırdı. Nəhayət qızını tələb etmək üçün prokuror Elxana ərizə yazır).

(Artıq səhərdir. Dilarə öz ərizəsi ilə bərabər prokurorun qəbulundadır.)

Elxan
Bu sizin ərizənizdir?

Dilarə
Bəli mənimdir.

Elxan
Hələ bu ərizə qalsın bir yana,
Görürsən dəyişib dövri zamana.
Artıq hər bir şeyə hörmət də itib,
Hər köhnə adətin bir sonu yetib.
Utanma yaxına çək stolunu,
Ərizənə çəkmisən sən öz qolunu.

Dilarə
Xahiş edirəm ərizəyə baxın,
Hər sözə azacıq bər-bəzək taxın.

Elxan
Belə acığınız tutmasın mənə,
Mən də kömək etmək istərəm sənə.
Söyləyin siz nə vaxt getmisiz ərə,
Nə vaxtdan düşmüsünüz belə çöllərə.
Indi sizin neçə yaşınız vardı?
Bunu bilmək mənə çox intizardı.
Belə bir gözəli atarlarmı heç,
Nə çoxdur gənc oğlan birisini seç.

Dilarə
Dilarə dözməyib ayağa durdu,
Bu gənc prokurora bir şillə vurdu.
Haram olsun sizə bu ad sanınız,
Görüm cəhənnəmdə yansın canınınız.
Bu vəzifən, pulun qudurdub səni,
Elə sən özüsən xalqın düşməni.
Sən bilməzsən namus nə şeydir hələ,
Qurursan hamıya gündə bir tələ.
Deyirsən dəyişib bəs dövrü zaman,
Belə bir tiplərə neyləsin dövran.

(Dilarə otaqdan çıxır. O, acıqlıdır. Qızını istəyə bilmədiyinə məyus olur və hər şeyi öz bəxtinin qaralğına yazır).

(Dilarənin otağıdır. O, pərişan halda oturmuşdur. Sabahkı dərslərə hazırlaşır. Elə bu vaxt pəncərədən İlqarın maşınını görür.)

Müəllif
Dilarə çox məyus bir görkəm aldı,
Uzun hörüklərini darayıb saldı.
Sanki kimsəsizdir tənha qalıbdır,
Hər tərəfi duman, çiskin alıbdır.
Hər an yaşayırdı keçmişi ilə,
Əziyyət çəkirdi o bilə-bilə.
Ev qurmaq çətindir, uçurmaq çətin,
Bu dərdə dözməyib ağlar xəlvəti.
Həmişə bu hissi fikrən yaşardı,
Bu günsə gözünün önündə qaldı.
Keçmiş xatirəsi o ilk sevgisi,
Ananın bu yerdə qırıldı səsi,
Ilqar tez-tez gəlib burdan gedirdi?
Görəsən o bunu niyə edirdi.
Ilqar Dilrəçün gəlib-getsədə,
Bu halı o tez-tez davam etsədə,
Dilarə haqq vermir onun fikrinə,
Hər dəfə o məyus olurdu yenə.

Müəllif
Dilarə getmişdir,
Onun bu gedişi bir cinayətdir.
Üç yaşlı Təranə ana deyirdi,
İlqar həmin gündən qara geyirdi.
Pərinin artmışdı ailədə işi.
Edirdi hər şeyi, xörək bişmişi.

Bir gün azarladı, inlədi yaman,
Gəldi gözlərinə qaranlıq duman.
Gəlinə haqsızlıq üzürdü onu,
Deyəsən yetmişdir ömrünün sonu.

İlqar anasından möhkəm incimiş,
Fikir düşüncələr qəlbini yemiş.
O qərar tutmurdu evdə eşikdə,
Sanki xəylları batmış beşikdə
Bu beşik sevgini andırdı ona
Düşündü o dövrü o, yana-yana
İlqar gedir yenə həmin o yerə,
O ilk sevgisinə baxmağa görə.
Beləcə dolandı çox illər, aylar,
Bir gün evə gəldi nə gördü İlqar.
Uzanmış anası səssizcə burda.
O, oğul diləyir nəfəsi darda,
Qızın da təpiyib dili, dodağı,
Ağlayıb islanıb lalə yanağı.
İlqar anasının öpdü əlini,
Sığalladı onun gümüş telini.

Pəri
Ana dedi: oğul bağışla məni,
Dağıtdım ailəni ağlatdım səni.
Sənin bu dərdinə dözə bilmədim,
İnsafsız gedəli mən də gülmədim.
Bilirəm, bilirəm mənimdir günah,
Gərək qovmayaydım mən onu nahaq.

Müəllif
Ananın ağzında qırıldı sözü,
Əbədi olaraq yumuldu gözü.

İlqar ana dedi yandı ürəyi,
Qaraldı gözləri batdı kürəyi.
Yıxıldı ananın üstünə bərk-bərk,
Ağladı hündürdən o hönkürərək.

Budur qohum-qonşu yığışıb gəldi,
Ağlamaq səsləri göyə yüksəldi.

(Elin adətinə üzrə Pərini dəfn etdilər. Budur evdə sakitlikdir).

<u>Müəllif</u>

İlqarla Təranə oturmuş qəmgin,
Ilqar xəyala gedir, düşünür hər gün.
Ailənin taleyi onu üzürdü,
Çıxılmaz bir yolda olduğun görürdü.
Onun gözəlliyi get-gedə solur,
Könlünə sevinc yox kədərlər dolur.
Ağarmış saçları vaxtından qabaq,
Nə sakitlik tapdı nə sevinc, nə haq,
Gəldi gözlərinin önünə həyat,
İlk eşqi sevgini keçirdiyi vaxt.
O zaman xoşbəxtdi Dilarə ilə,
Indi xoşbəxtliyi vermişdi yelə.
Təranə bu eşqin nişanəsiydi,
Onun sevinc payı bir dənəsiydi.
Lakin o gülmədi heç sevinmədi,
Hər gecə, hər gündüz ana istədi.
Gözlərinin yaşı sellərtək axdı,
Bir ana görəndə dalınca baxdı.
Qızı qırdı onun xəyallarını,
Doladı İlqara öz qollarını.

<u>Təranə</u>

Dedi: ata anam nə vaxt gələcək,
Nə vaxt evimizdə deyib-güləcək.
Hər gün gözləyirəm onun yolunu,
Hər gecə yuxuda görürəm onu.

Müəllif

Ilqar qucaqlayıb öpdü qızını,
Qəhərdən boğuldu kəsdi sözünü.
Onun göz yaşları sel kimi axdı,
Qəmli oturaraq yollara baxdı.
O tez-tez qapılır hissə xəyala,
Ilqar da çatmadı bunca vüsala.
O, lənət yağdırdı köhnə adətə,
Qatı açılmamış çürük niyyətə.
Bu köhnə adətin nə faydası var.
Ayrıldı Dilarə, məhv oldu nənə.
O yenə o yerə getmək istədi,
Qəlbində oynayan bu istək nədi?
Baxacaq ilk eşqin ilk nübarına,
Baxacaq vəfasız çıxan yarına.

(Dilarənin otağıdır. Dilarə otaqda təkdir. Artıq o İnstitutu bitirmişdi. Bayırda səs gəlir. Gələnlər Nərgiz və Mahirədir).

Dilarə

Xoş gördük əzizlərim, siz
Bu kiçik mənzilə xoş gəlmisiniz.

Qızlar

Əziz bacım səni təbrikə gəldik,
Məktəbi bitirdin sevindik, güldük.

(Bir qədər şirin söhbətdən sonra qonaqlar gedirlər).

Müəllif

Dilarə fikr edir yatmayır hələ,
Aydının eşqini o bilə-bilə.

Aydının eşqinə o inansada,
Ikinci evlilik düşmürdü yada.
(Səhərdir. Dilarə işə gedir, o Aydınla qabaqlaşır).

<u>Aydın</u>
Xoş gördük doktor,
Bu nədir heç salam, kalam da yoxdur.
Heç gözləməzdim mən, sizdən bunları,
Bir quru salamsa versəydiniz barı.
Bildim incimisiniz dediyim sözdən,
O saat hiss etdim kədəri üzdən.

<u>Dilarə</u>
Aydın, bilirsən ki, bir qızım vardır,
Bu dərdli ürəyim çox tarimardır.
Arzumdur görüşüm o çiçəyimlə,
O sevimli balam, o göyçəyimlə.
Bir körpə balası olan anaya,
Yaraşarmı daha təzə bir sevda.

Çox xahiş edirəm bu təklifi sən,
Istəməzdim mənə birdə edəsiniz.

<u>Aydın</u>
Mən bilirəm sənin tərcümey halın,
Özgə adamlara vermə xəyalın.
Mənim məhəbbətim, sözüm də safdır,
Bu sadə sözlərim bir ehtirafdır.

<u>Dilarə</u>
Mənasız eşq ilə yansa bir ürək,
Onu kəsib atıb öldürmək gərək.

Yan ey fani dünya uğursuz dilək,
Dünyanın işləri zəmanədəndir.
Əgər daş imişsə ilk məhəbbətim,
Eşqdən kam almaq çətindir-çətin.
İndi eşqim ilə gizlin, xəlvəti,
Düşünüb daşınmaq bilməm nədəndir.

Aydın
(Üzünü Dilarəyə tutaraq)

Gəl mənim sevgilim, gəl mənim sonam,
Sənsiz üzüm gülməz, açılmaz aynam.
Gəl məni başa düş, qoy gülsün dünyam,
Bu ali hislərim dürdanədəndir.

Müəllif
Aydın çox gənc idi, həm də işgüzar,
Onun gözlərində gülürdü bahar.

Gözəldi qaməti, həm ay camalı,
Başında var idi əqli-kamalı.
Özütək kamallı bir qız gəzirdi,
Bu sevgi, bu həsrət onu zürdü.
Sevdi Dilarəni ilk gördüyündən,
Vermişdi könlünü ona bilmədən.
Dilarə bir dəfə ərdə olsa da,
Onun qiz körpəsi onsuz qalsa da,
Bu cavan oğlanın eşqi çoxaldı,
Bütün dostlarını o razı saldı,
Dedi, Dilarədir ancaq qismətim.
O həm gözəldir, ağıllı, mətin,
Bu yolda çox əzab əziyyət gördü.

Arzusuna çatıb sevinib güldü,
Bir gün evləndilər bu iki sevən.
Yox oldu söz-söhbət çəkildi o çən,
Aydının arzusu artıq çin oldu,
Sevindi ürəyi eşq ilə doldu.

(Aydın və Dilarə evlənmişdilər. Təbiətdə sanki sevinirdi bu sevgiyə. Havalar qışın soyuğundan və şaxtasından yaxa qurtarmışdır, yazın ılıq nəfəsi duyulurdu).

Müəllif
Ana Təranəni çox düşünürdü,
Onu xəyalında yaşayıb gördü.
Istərdi həyatda görüşəydilər,
Sevinci-kədəri bölüşəydilər.
Ana sarılaydı qızına bərk-bərk,
Öpəydi üzündən könlü gülərək.

Arzusuydu onu evə gətirə,
Bununla dərd-qəmi tamam bitirə.
Bu o Təranəydi ana atmışdı,
O gündən dərd çəkib qəmə batmışdı.
Ana düşünürdü kimdi köməyim,
Görəsən bu işi Aydına deyim?
Dilarə fikirlə, xəyalla yaşar,
Onunçün hər işdə arabir çaşar.
Ana qızı ilə bir gün görüşdü,
Təranə ananı heç bilməmişdi.
Onlar bir yad kimi söhbət etdilər,
Sonra da ayrılıb evə getdilər.
Ana dözə bilmir ayrılıq çətin,
Sanki itirirdi ana qamətin.

(Nərgizgilin evidir, söhbət Dilarənin evlənməsindən gedir).

Nərgiz
Çox yaxşı elədi ağıllı qızdır.

Mahirə
Onun tək insanlar çox deyil azdır.

Nərgiz
Allah xoşbəxt eləsin hər ikisini.

Mahirə
(Nərgizə işarə ilə)

İlahi sən eşit onun səsini,

(Dilarəgilin evidir. Onun Tərlan adında bir oğlu olur. Dilarə körpəsinə laylay çalır).

Laylay mənim balam laylay,
Yatıb dala qalan laylay.
Yat qoy yuxun şirin olsun,
Ömrə işıq salan laylay.

Oğul uyu beşiyində,
Boy at öz ev-eşiyində.
Anan sənin yorulmadan,
Dursun hər an keşiyində.
Laylay mənim çiçəyimsən,
Şirin dilli göyçəyimsən.
Bir balamı itirmişəm,
Sən ümidim bəzəyimsən.

(Aydın içəri girir. O, Dilarənin dərdli-dərdli oxuduğunu görüb bikef olur. Əlini onun çiyninə qoyub deyir. Dərd eləmə, hər necə olsa Təranəni bura gətirəcəyəm).

<u>Aydın</u>
Bu gün yorub məni operasiyalar,
Insan da bu qədər heç işdə qalar.
Acmışam bir tez ol yemək ver mənə,
Dilarə, bir xəbər deyəcəm sənə.
Dəyişdim otağı, qaranlıq idi,

(Aydın bu sözləri fərəhlə dedi).

Indiki genişdir, həm də işıqlı.
Hər tərəf pəncərə, çox yaraşıqlı.

<u>Dilarə</u>
Elə bu çoxdankı arzundu sənin,
Əhvalı necədir xəstə Gülşənin.

<u>Aydın</u>
Yaxşıdır, yaxşıdır qalxıb ayağa,
Hazırlaşır bugün-sabah çıxmağa.

(Səhərdir, Dilarəgilin mənzilidir. Aydın və Dilarə evdə təkdirlər. Onlar çay içə-içə söhbət edirlər. Dilarə qaynanası Pərinin ona tutduqlarından yana-yana danışır və danışdıqca əsəbləşirdi. Bir azdan Aydın işə gedir, Dilarə evdə tək qalır).

<u>Müəllif</u>
Ananın xəyalı dağılır yenə,
Qayıdır keçmişə o dönə-dönə

Onda da anaydı indi də ana,
Düşünür bunları o yana-yana.
Allahın hökmünü pozmaq olarmı,
Bir dəfə boşalan bir də dolarmı.
Qızım da gəlməyir mənim yanıma,
Ananın od düşdü sanki canına.
Oturduğu yerdən o birdən durur,
Nə üçünsə yenə bir də oturur.
Xəyallar qəlbini çəkirkən dara,
Elə bir ananı basırdı qara.
Gördü Təranəsi çağırır onu,

Lalətək qırmızı geyinib donu
Ana-ana deyir, gəlir üstünə,
Ana düşünürdü sonra-sonra nə
Qırılırdı ananın xəyal karvanı,
Bu nədir min yerə getdi gümanı.
Məni qara basır yatmışam nədir,
Bəlkə də xəstəyəm bu bahənədir.
Deyəsən Tərlan da yuxudan durdu,
Fikirlər ananın beynini yordu.
Aldı körpəsini o qucağına,
Düşdü həyətdəki kiçik bağına.

(İlqargilin evidir. O, qəmli-qəmli oturmuşdur).

<u>Müəllif</u>

Çətindir İlqara təkcə yaşamaq,
Evində bircə gün saxlamır ayaq.
Qərar tuta bilmir evdə, bayırda,
Qonşu Əsmər qızın yaşı ötsə də,

Evlənmək arzusu çoxdan bitsə də,
Ilqar məhəbbətsiz evlənmiş yenə
Əsməri gətirmiş öz mənzilinə.
Ötür illər-aylar keçir fəsillər,
Zamanın hökmilə dəyişir nələr.
Bir yaz səhəriydi havalar sərin,
Kəpənək qonmuşdu üstə güllərin
Bülbüllü bağlarda quşlar oxurdu,
Quşlar yuvasını tez-tez toxurdu.
Gəlirdi çayların şırhaşır səsi,
Bülübüllər olmuşdu güllər xəstəsi.

Belə bir fəsildə göz açdı Sevda,
Onun da qisməti varmış dünyada.
Ata-ananın da artdı sevgisi,
Eşitdi İlqar da bir körpə səsi.
Təranəylə Sevda oldular bacı,
Hər ikisi oldi İlqarın tacı.
Dilarə olmadı bu işdən xəbər,
Fikir xəyal ilə çəkdi dərdi sər.
Indi artıq onlar böyümüşdülər,
Deyəsən ailədə itmişdi kədər.

<u>Müəllif</u>
Bacı da qardaş da tez boy atdılar,
Yetginlik yaşına tezcə çatdılar.
Hər ikisi eyni sənət seçmişdi,
Ağır imtahanlar verib keçmişdi.
Bacı bir il qabaq məktəbə girmiş,
Sanki bir tanınmış rəssam imiş.
Onu tanımırdı qardaşı Tərlan,
İlk dəfə məktəbə iş verən zaman

Gördü Təranəni qazlar içində,
Arzuladı onu o görsün gündə.
Məktəbdə hamıdan o qız gözəldi,
Onunçün Tərlanın xoşuna gəldi.
Tərlan böyüyürdü sanki pəhlivan,
Ona bənzəməzdi bunca bir insan.
Enli kürəkləri uca boyu var,
Ceyranı qaçdığı yerdəcə tutar.
Dartınıb kaman tək qara qaşları,
Sanki tuşlanacaq ürəyə sarı.

Yaxşı oxuyurdu bütün dərsləri,
Mühəndis olmaqdı dilinin əzbəri.
Çəkirdi evlərə təzə bir plan,
Deyirdi tiksinlər qoy şəhər salan.
Lakin qəbul oldu o rəssamlığa,
Ananın ürəyi döndü bir dağa.
Məşqlərə gedirdi hər gün dalbadal,
Boks sənətini öyrəndi aşkar.
Həm oxuyur, həm yarışa gedirdi,
Yarışda hamını heyran edirdi.
Həmi gözəl idi, həmi də qoçaq,
Düşmənin gözündə olmuşdu bıçaq.

(Şəhərin idman zalıdır. Tərlan öz rəqibi ilə döyüşür. Adı dillərə düşmüş bokusçu Tərlan Zeynalov Bakı Pedoqoji Texnikomunun tələbələrinin də diqqətini cəlb etmişdir. Budur Təranə ilə texnikomun I kurs tələbəsi Sevda da buraya gəlmişlər. Oyun qurtaran kimi qızlar əllərindəki gül dəstələrini heç özləri də hiss etmədən Tərlana verib, onu təbrik etdilər).

Tərlan
Gözəl xanımların adları nədir?
Bu güllər sevgidən bir nişanədir.
Qızlar çox sağolun çiçəklər üçün,
Gəlin tanış olaq utanmaq neçün.
Sizin adınız nə, yeriniz hara?
İlk görüş könlümü saldı odlara.

Qızlar
(Gülüşürlər. Qızlardan biri)

Adımız Təranə, bir də Sevdadır,
Bu mənim bacım, o da Rənadır.
Yerimiz Qazaxdır, kəndimiz Pirli,
Biz kənd yerindənik, deyilik yerli.

Müəllif
Tərlan bu üç qızın birini seçdi,
Onunçün canından, varından keçdi.
O bildi Sevdadır bu qızın adı,
Təkcə bacısıdır onun imdadı.

Tərlan
Artıq tanış olduq bir-birimizlə,
Sevindim ürəkdən mən başqa sözlə.
Bu bağda görüşək biz gəlin hər gün,
Bu gözəl ömrümüz büsata dönsün.
(Qızlar razılıq edib ayrılırlar)

Müəllif
Tərlanı sevirdi neçə gözəllər,
Onların sevgisi olmuşdu hədər.

Lakin heç birini sevmirdi Tərlan,
Sevdanı sevirdi, sevirdi inan.
Eləbil bununçün yaranmışdı qız,
Qız deyil, göylərdə sanki bir ulduz.
Tərlan bütün günü sakit dururdu,
O, işə getməyib hey otururdu,
Ananın gözündən qaçmadı bu hal.

III hissə

Ananın sevinci

Dilarə

Dedi: Oğul nədir bu fikir, xəyal?
Yoxsa işlərində nə isə çatmır,
Yoxsa gördüklərin könlünə yatmır.
Nədir qurban olum bəs səni sıxan?
Nədir gül balamı odlara yaxan.
Aç de ürəyini əziz anana,
Səni öz canından uca sanana.

Tərlan

(Anasının boynunu qucaqlayır).

Ana qurban olun nigaran olma,
Sən mənim sarıdan intizar qalma.
Ağrıyır bir qədər başım dünəndən.
Bağışla gizlətdim mən bunu səndən.

Dilarə

Qadan mənə gəlsin gəl uzan bir az.
Əgər belə isə oturmaq olmaz

(Ana Tərlanı oxşaya-oxşaya yatağa uzadır. Lakin Tərlanın xəyalı sevgilisi Sevdanın yanındadır. O, bu gün Sevda ilə ilk dəfə görüşəcəkdir)

(Təranəgilin evidir. Təranə və Sevda oturub söhbət edirlər. Söhbət dünən tanış olduqları bu boksyor şəhərli oğlandan gedir).

Tərlanə
Bacı necə oldu biz tanış olduq?
Onun təkilifinə həm razı qaldıq?

Sevda
Bilmirəm hər nəsə gözəl oğlandır,
Eyni zamanda da yaxşı insandır.

Tərlanə
Sevda, gözlərini çəkmirdi səndən,
Görürdüm mən ona baxanda hərdən.

(Sevda dinmədi. O, öz böyük bacısından utandı və öz otağına keçdi. Sevda özüdə oğlanın məhəbbət dolu baxışlarının hiss etmişdi. Odurki səhərki görüşün vaxtı yaxınlaşdıqca ürəyi əsirdi. Artıq səhərdi. Tərlan əlində bir dəstə gül Sevdanı gözləyir. Sevda gəlir).

Sevda
Salam Tərlan necəsən?
Deyəsən xəyaldan ayırdım səni.
Nə üçün çağırdın bu gün sən məni,
Özüdə buraya, bu güllü bağa.
İki göz istəyir bura baxmağa.
Bu əlvan çiçəyə, güllərə bir bax,
Sarı gel, əlvan gül, bax bu da dümağ.

Tərlan
Mən çiçəyə deyil sənə baxıram,
O güldən saçına çələng taxıram.
Sən tərif edirsən gülü-çiçəyi,
Baxarmı sənintək belə göyçəyi
Olanda güllərə, heç çiçəklərə,

O, əlvan naxışlı xoş ləçəklərə.
Onlar ömürsüzsdü tez solub gedir,
İnsanın könlünün bu məyus edir.
Mənim çiçəyimsə ömürlüdür bax,
Sanki işıq salır burda bir çıraq.
Bu istək, bu sevgi əbədidir bil,
Tərlan öz sözündən heç dönən deyil.

(Sonra o sevgilisi üçün oxuyur).

Ana məhəbbətin şirin mehiri,
Alıb öz qoynuna gül-çiçəkləri.
İnsanı məsd edir gülün ətiri,
Lalə, nərgizlərin xoş ləçəkləri.

Dayan ay sevgilim getmə aralı,
Belə bir cənnətdən könlüm yaralı.
Səndən ayrı gəzsəm qəlbim qaralı,
Saçına düzərəm gül-çiçəkləri.

Arzuların böyük, ilqarın təmiz,
O coşqun ürəyin dənizdir dəniz.
Ayna sularına oxşayır bəniz,
Təbiət də sevir bu göyçəkləri.

(Sevgililər gülüşürlər).

(Dilarəgilin mənzilidir. Tərlan evdə təkdir. O rəsm çəkir. Ana o biri otaqdan Tərlana yaxınlaşır).

<u>Dilarə</u>
(Rəsmə baxaraq).

Oğlum nə çəkirsən, necə gözəldi,
Odur bax deyəsən atan da gəldi.

(Qapı açılır Aydın içəri girir. O, gəlib Tərlanın yanında əyləşir).

Aydın
Dərslərin necədir?

Tərlan
Yaxşıdır ata.
Bəlkə bu rəsmlər könlünə yata.

Aydın
Yaxşıdır, pis deyil artıq gecdir yat,
Vaxt keçir oturmaq olmaz bu saat.

(Tərlan yatmağa gedir).

Dilarə
Aydın gec qayıtdın, xəstən var idi?

Aydın
Elə qayıdırdım bir xəstə gəldi,
Haray qışqırığı göyə yüksəldi.
Maşın vuruğuydu çətin dözürdü,
Ağrılar yazığı yaman üzürdü.
Deyəsən heç kimi yoxuydu onun,
Yoxladım gözədim bu işin sonun.
Deyəsən özüdə sürücü idi,
Adı da deyəsən İlqardı dedi.

Müəllif
Dilarənin yenə dəyişdi halı,
Bir anlıq dağıldı fikir xəyalı.
Keçirdi qəlbindən mənasız istək,
İstədi desinki gəl ora gedək.
Uçundu bədəni əsdi qolları,
Xəyalı küləktək kəsdi yolları.
Soruşdu bəs indi xəstə necədir?
Baxdı pəncərədən artıq gecədir.
Aydın duyanmadı bu duyğuları,
Bir məna vermədi sula barı.
Ana tez qızını düşündü bir an,
Lənət gəlsin sənə böylə bir zaman.
Ay allah kömək ol mənim balama,
Onun atasını heç dara salma.

Dilarə
Bəs indi necədir xəstənin halı?

Aydın
Ayağı həm sınıb, əzilib yaman,
Bir də itiribdir o bir qədər qan.
Səhər gedib ona qan vuracağam,
Sabahkı simendə mən duracağam.

(Səhərdir, Dilarə yenə pərişandır. O, oğlu ilə Aydını işə yola salır. Sonra özü də geyinib işə gedir. Ilk dəfə İlqarla üz-üzə gələcəyini bilirdi. Odur ki, çox həyacanlı idi).

Müəllif
Doktor Dilarənin əsdi qaməti,
Bir yardım etməkdi onun niyyəti.

Onun qəlbindəki bu təlaş nədir,
Qaçmış rəngi-ruhu bir nişanədir.
Sanki unutmuşdur bütün olanı,
Indi ortalıqda qalan balanı.
Düşünürdü bütün varlığı ilə,
İlk dəfə can bala gətirdi dilə.
Dilarə xəstənin yanında durdu,
Bütün iynələri o özü vurdu.
ilqarın bədəni od tutub yandı,
İndi o özünü kimsəsiz sandı.
Ağrıdan arabir sayıqlayırdı,
Gözləri yaşarıb o, ağlayırdı.
Dilarə dözmədi bu mənzərəyə,
Çağırdı həkimi tez o köməyə.
Çəkdi axşamadək xəstənin halı,
Bu ağır sınağa dözdü zavallı.
Dilarə ayrısa İlqardan tamam,
Onun bu halında olurdu həyan.
İstəməzdi düşsün bu hala İlqar,
İlk eşqin sevdası olmuşdu onlar.
Bu sevda heç vədə sönməyəcəkdir,
Dilarə eşqindən dönməyəcəkdir.
Artıq qaranlıqdır ana düşündü,
Tez çıxıb otaqdan evinə döndü.

(Aydıngilin evidir. Dilarə evdə təkdir. O İlqarın yavaş-yavaş yaxşılaşdığını bilirdi və buna sevinirdi. O, yenə qızı Təranəni düşünürdü).

Müəllif
Ana tez qızının şəklinə baxdı,
Hər dəfə könlünü yandırıb-yaxdı.

Yordu düşüncələr onun beynini,
O qovmaq istədi dumanı, çəni.
Görəsən taleyin nə idi qəsdi,
Ümidi qırıldi, bədəni əsdi.
Bu o Təranəydi üç yaşlı qaldı,
Ananın könlünü odlara saldı.
Budur böyümüşdür artıq qızcığaz,
Kiçik rəsmlərdə çəkirdi az-az.
Ana ilə özünün şəklini çəkdi,
Ana gözəllikdə bircədi, təkdi.
O, bunu çəkmişdi ana rəsmindən,
Hər gün oxşayırdı şəkili nədən.
Ağlayıb yorulub Təranə hərdən,
Günlərlə durmurdu yatdığı yerdən.
Çəkdiyi çəkili ataya verdi,
Atacan anamadan bir danış dedi.
Ata onda dedi qulaq as mənə,
Ananın həyatın söyləyim sənə.
Anan günahsızdır onunla barış,
Bu dərd ürəyində donub qalmamış.

(Dilarəgilin evidir. O, İlqarın sağalıb xəstəxanadan çıxmasına çox sevinirdi. Elə bu zaman Tərlan oxuya-oxuya içəri girdi).

<u>Tərlan</u>
Ana məhəbbətinin şirin mehiri,
Alıb öz qoynuna gül çiçəkləri.
İnsanı məsd edir gülün ətiri,
Lalə nərgizlərin xoş ləçəkləri.

Dayan ay sevgilim getmə aralı,
Belə bir cənnətdən könlüm yaralı.

Səndən ayrı gəzsəm qəlbim qaralı,
Saçına düzərəm gül çiçəkləri.

Arzuların böyük ilqarın təmiz,
O coşqun ürəyin dənizdir-dəniz.
Ayna saçlarına oxşayır bəniz,
Təbiət də sevir bu göyçəkləri.

Dilarə
Oğul qurban olum uca boyuna,
Anan hazırlaşsın sənin toyuna.
Artıq məktəbi də qurtardın tamam,
Göstər sevgilini eyləyim nişan.

Tərlan
Anacan darıxma hər şey düzələr,
Hər şeyin bir vaxdı, vədəsi gələr.
Onda göstərərəm sevgilimi mən,
Baxıb bəyənərsən sevinərsən sən.

Müəllif
Boylanır sahilə xəzərdən ləpə,
Sanki mirvarilər düzülüb ipə.
Işvəli dalğalar hər nazlananda,
Gecə işıqları parlaq yananda.
Bakının görkəmi dəyişir həmən,
Onu görmək istər hamı təzədən.
Göylərin ulduzu yaraşır yerə,
Bir ulduz götürür özünə hərə.
Aydının gözündə hər insan gülür,
Çünki yetişmişdir o arzu kama,
Qəlbində duyğular dönüb ilhama.

(Aydıngilin evidir. Dilarə yenə fikirdədir. O, qızı Tərənə ilə görüşüb barışmaq istəyir. Bu işdə Aydın Dilarəyə kömək etsədə bir neçə səbəb üzündən bu iş baş tutmur. Çünki Dilarə Təranənin gözündə günahkar insan kimi tərbiyə olunmuşdur. Təranə ana həsrəti çəkə-çəkə öz doğma anasından qaçır. Tərlangilin mənzilidir, Tərlan evdə təkdir. Onun xəyalları sevgilisi Sevdanın yanındadır. O, bu gün sevda ilə yenə görüşə gedəcəkdir. Bu zaman Dilarə içəri girir. Oğlunun əlində gül dəstəsi olduğunu görüb, işin nə yerdə olduöğunu anlayır).

Dilarə

Söylə sevgilinin adı necədir?
Gözəldir, göyçəkdir, beli incədir?
O harda oxuyur, nədir sənəti?
Şirin danışığı, varmı ülfəti.
Şəhərlidir yoxsa başqa yerdəndir
Dili danışığı bizim dildədir?

Tərlan

Darıxma anacan çox çəkməzki sən,
İstəkli gəlnini tez görəcəksən
Bu səhər gedirik bağa mənimlə,
Görmək istədiyin qıza baxmağa.
O vaxt ki, o bağda gözləyəcəksən,
O qızlar gələndə izləyəcəksən,
Onda görəcəksən Sevda necədir.
Al yanaq, gül dodaq, beli incədir,
Bəyənib o qızı nişan edərsən,
Sonra da atamla elçi gedərsən.

Dilarə
Razıyam ammaki gərək tez olsun,
Bu könlüm sevinclə qürurla dolsun.

(Hər ikisi bağa gedib otururlar. Bir azdan qızlar gəlirlər. Onlar başqa üzbə-üz skamyalarda əyləşirlər. Ana görən kimi Təranəni tanıyır).

Dilarə
Oğul bax o qızın adı nədir bilrsən?

Tərlan
Nə oldu anacan onu neynirsən?

Dilarə
Bu qız tanış gəlir Tərlan mənə çox,
Adı deyəsənki Təranədir, yox?

Tərlan
Elədir ay ana sən nədən bildin?

Dilarə
Mənimlə nə üçün sən bura gəldin,
O sənə bacıdır, sən ona qardaş,
Olarmı heç bundan ömür, gün yoldaş.

Tərlan
Anacan bağışla bağışla məni,
Qanını qaraltdım, incitdim səni.
Mən xəbərsiz idim olub-keçəndən,
Sirrini aç söylə, gizlətmə məndən.

(Onlar evlərinə qayıtdılar).

Dilarə danışdı olub-keçəni,
O dəhşətli günü o tutqun çəni.
Açdı vərəq-vərəq söylədi bir-bir.
Tərlana anlatdı qalmadı bir sir.

<u>Dilarə</u>
Tərlan bundan belə bacınla danış,
Ona deki bacı, ananla barış.
O, günahkar bilir məni həmişə,
Könlümün aynası bir sınmış şüşə.
Nə qədər məlhəm də qoysan sağalmaz,
Doğma balam kimi o, burda qalmaz.
Bircə onu bilsin günahsızam mən,
Pəriydi ona da, mənə də düşmən.

<u>Tərlan</u>
Anacan Sevdadır istəklim mənim,
Ögey bacısıdır o Təranənin.

<u>Dilarə</u>
Yox, bu işə heç vaxt razı olmaram,
Sevdanı heç vədə sənə almaram.
Çünki birdəfəlik ordan çıxmışam,
Istəməzdim birdə oraya baxam.

(Aydın gəlir. O, Dilarənin və Tərlanı çox qəmli görür. Məsələnin nə yerdə olduğunu öyrənir və dərin fikrə gedir. Nəhayət ananın narazılığına baxmayaraq oğlu Tərlana elçi getməyi qərara alır. Bir neçə gündən sonra doktor Aydın dost tanışlarını da götürüb İlqargilin qapısına elçiliyə gəlir. İlqar qapıda bir neçə nəfərin dayandığını görür və həyətə çağırır. Qonaqları evə tək-

lif edir. Lakin hələ heç nə başa düşmür. Elə bu vaxt gözü Dilarəyə sataşır).

<u>İlqar</u>
Bu nədir görürəm, bəlkə yuxudur,
Yox-yox Dilarədir, özüdür budur,
Axı necə gəlib ömürlük küsən.

<u>Müəllif</u>
Qonaqlar otağa daxil oldular,
Dilarə ilə İlqar çaşıb qaldılar.
Onlar keçən günü saldılar yada,
Göz yaşı sel oldu, döndü fəryada.
Beyinlər sürətlə keçmişi andı,
Bu qəmdən, həsrətdən canları yandı.
Aydın sakit etdi hər ikisini,
Anlatdı onlara öz məqsədini.

<u>Müəllif</u>
Dinib-danışmırdı Dilarə İlqar,
İlk eşqin sevdası olmuşdu onlar.
Onların görüşü bir əziyyətdi,
Xəyallar şüurdan silinib getdi.
Bu məlul baxışlar dilsiz danışdı,
Sinədə ürəklər yandı-alışdı.
Günahkar etdilər biri-birini,
Axır sevinc tutdu kədər yerini.
Təranə sevincək girdi içəri,
Unutdu kədəri, keçən günləri.
Sarıldı ananın boynuna birdən,
Ağlayıb baxırdı üzünə hərdən.
Ana,ana dedi Təranə ona,
Yenidən sarıldı ana boynuna.

Aydın da arzuya, murada yetdi,
Kədəri unudub hamı şənlik etdi.

(Pərdə arxasından yenə səs gəlir).

Ananın ağzında yanırdı dili,
Qaralmış sifəti, bükülmüş beli.
Bu dərd olmasaydı büsbtün ili,
Yaşardı kef ilə damaqla Pəri.

Beşik kəsməsiydi İlqarla Bahar
Şirin xəyal idi bu iki nübar.
Sanki xoşbəxtliyi yumuşdu çaylar,
Gəzirdi səs ilə soraqla Pəri.

Sevsədə dərindən İlqar ananı,
Gedib gətirmişdi könlü yananı.
Həmişə özündən uca sananı,
Vurmaqçün gedirdi yarpaqla Pəri.

Fəridi İlqarın dili, dodağı,
Sanki qurumuşdu kolun budağı
O təzə açılmış qönçə yarpağı,
Əzib puç eylədi ayaqla Pəri.

Həmişə beləydi elin adəti,
Gərək ana tapsın ona qisməti,
İlqar düşündükcə bu qəbahəti,
Tökəcək gözünü barmaqla Pəri.

M Ü N D Ə R İ C A T

Ön söz 3
Ağızlar 7
Söz 8

Qəzəllər

Kimi 11
Söz 12
Görəmmədin 13
Sən 14
Yar demə 15
Bəri bax 16
Mənəm 17
Görüşmüşəm 21
Olmur 22
Eyləməz 22
Bu könlüm 24
Canım 25
Dilə gəlsin 28
Qalıbdır 29
İncimə 30
Dərin olsun 31
Gül üzündən 32
Sən azad et 33
Eylə 34
Ölüncə 35
Gəldi 36
Dolan gəl 37
Getmə gəl 38
Nə edim 39
Aldı 40
Kömək dur 41
Gözəllər 42
Bu gecə 43
Görüşəydim 44
Neylədin 46
Gələn 48
Tanıdım 49
Ola bilməz 50
Yox 51
Sonra 52

Səni 53
Olmaz 54
Yazılıb 55
Oxuyan 56
Yatmışam 57
Aldılar 58
Yollar 59
Ürəyim 60
Can alan 62
Dərdimə 63
Gözlərdin 65
Öyrən 67
Bir xəyalın izi ilə 69
Ey Vətən 70
Görrəm 71
İkilik 72
Sənsiz 73
İnsanın 74
Xəlq edən 75
İndi 76
Bilər 77
Qazandım 78
Var 79
Anamın 80
Bu gecə 81
Görürəm 82
İlə 83
Yarım 84
Neylər 85
Eylədin 86
Canına 87
Səni gördüm 88
Eylə 89
Bilmədim 90
Sənsən 91
Dərd ilə 92
Getmə gəl 93
Olmaq istəməm 94
Kimi 95
Mən 96
Getdi 97
Könlüm 98

Var 99
Söylərəm 100
Eləyər 102
Dönsün 103
Yarım 104
Yaratdın 106
Ağlar 107
Gecənin 108
Etdin 109
Hicran 111
Etdi məni 112
Sevgim 113
Bəri bax 114
Qərarsız 115
Afət 116
Sənin olsun 117
Naz edərsən 118
Etmişəm 120
Çəkirsən 122
Eşitdim 123
Qərarsız 124
Sənin 125
Məni 126
Görüm 127
Ölənlər 128
Görmüşəm 129
Neylədim 130
Yox 131
Ələ gəlməz 132
Bilməz 133
Gecənin 134
Aramızda 135
Gedib 136
Kimidir 137
Nəzərim 138
Olmaz 139
Heç vaxt 140
Sırtıq 141
Etdiyi 143
Yuva 145
İstəmə 146
Qeyri 148

Bunu sorma 149
Yarım 150
Olmuşam 151
Bənzəyir 152
Canım 153
Gəldi 154
Eyləmişəm 156
Bu könlüm 157
Neylim 158
Ey Sənəm 159
Getmə gəl 160
Yox 161
Gözəldir 163
Qaldı 164
Gərək 165
Ey yar 166
Qanayır 168
Dolan gəl 169
Gözəl 171
Etmə 172
Ey yar 173
Qəribəm 174
Ağlaram 175
Bağlıdır 176
Yarım 177
Kömək dur 178
Nə fayda 179
Düşər 180
Könlümə 181
Düşən 182
Könül neyləsin 183
Olmaz 184
Baxışın 185
Dünyadı 186
Ey gözəl 187
Məni 188
Yavaş-yavaş 188
Tək 189
Neylim 190
Nə edim 191
Nə edim 192
Kimiyəm 193

Vətənim 194
Arzuları kim danar 195
Dərdimə 196
Yalvarım 197
Deyişmə 198
Yaxşıdır 199
Tanınır 200
Xeyir və şər 201
Ola bilməz 202
Mənim 203

Qoşmalar

Oldun yenə Heydər oldun 205
Mən yolunda ölərəm 206
Dünya 207
Ağlama Xocalım, ağlama daha 208
Vətənimə vətəndaşam 209
Şəhidlər 210
Qoymaram torpağım talansın mənim 211
Kədərdən kövrəlib ağlayaram mən 213
Öbümr ucuz olar, mənasızlaşar 215
Kimi 216
Ağlaram 217
Mənim ola 218
Olmayar 219
Mən günahkar deyiləm 220
Mən səni sevirəm dünyalar qədər 221
Kiminə 222
Necədir 223
Bileydim 224
Vəzifə 225
Alışdı 226
Gözəl 227
İkimizin aramızda 229
Yaşa dünyada 230
Yeddidir 231
Kənardan - kənardan 232
Cavanlığım 233
Olsun 234
Etibarsız gəzərsənmi 235
Bilməz 236

Günah onun özündədir 239
Dostluq 241
Bənövşə 242
Yollar 243
Gedər 244
Nə fayda 245
Eyləyərmiş 246
Bizi 247
Ağlaram 248
Eyləyibsən 249
Darıxıram sevgilim 250
Dağı-dağı 251
Mən 252
Pünhan 253
Zeynəb 254
Budayar 255
Gördüm 256
Şəhidlər 257
Anamı gəzirəm tapa bilmirəm 258
Həyat lövhələri 260
İnciyir 264

Poemalar

Ana poeması 266
I hissə - Ana və məhəbbət 267
II hissə - Ananın kədəri 277
III hissə - Ananın sevinci 303

Tacirə Sarıyeva

“Qəlb çırpıntıları”

Dizayn: **Dönməz Vüsal**
Operator: **Mərcan Rüstəmova**

Yığılmağa verilmişdir: 12.11.2012
Çapa imzalanmışdır: 18.12.2012
Nəşrin formatı: **60x90 1/16**
Fiziki çap vərəqi: **20,1**
Tiraj: **500 nüsxə**